16. https://tradingeconomics.com/azerbaijan/ease-of-doing-business/forecast

**UOT 330.341.1**

# AVROPA BİRLİYİ ÖLKƏLƏRİNDƏ ELMİ-TƏDQİQAT VƏ TEXNOLOGİYA PARKLARININ MÖVCUD SİSTEMİ

**Təyyar MUSTAFAYEV**
Bakı Mühəndislik Universiteti
Bakı / AZƏRBAYCAN

*teyyarm@beu.edu.az*

**Nəsimi KAMALOV**
Bakı Mühəndislik Universiteti
Bakı / AZƏRBAYCAN

*nkamalov@beu.edu.az*

## XÜLASƏ

Məqalədə Avropa birliyinin bir sıra ölkələrinin universitetləri ilə sənaye əməkdaşlığı tədqiq olunmuşdur. Burada ilkin olaraq İngiltərədə bu sahədə mövcud vəziyyət, yaradılmış elm və elmi-tədqiqat parkları nəzərdən keçirilmişdir. İngiltərə elm parklarının istifadə olunan strategiyalar qeyd edilmiş, onların yerinə yetirdiyi funksiyalar göstərilmişdir. Bundan başqa dövlət, universitet və sənaye işbirliyi (DUSİ) çərçivəsində tətbiq edilən bir sıra proqramlar haqqında məlumatlar verilmişdir. Universitet və sənaye işbirliyi (USİ) məsələsində İngiltərədə qoyulan müəyyən şərtlər məqalədə verilmişdir. Daha sonra nəzərdən keçirilən digər dövlət isə Almaniyadır. Almaniya ilə bağlı xüsusi olaraq bəzi universitetlər və elm cəmiyyətləri qeyd olunmuşdur. Almaniyada elmi tədqiqatların inkişafı və sənayedə tətbiqi imkanlarının artırılması istiqamətində mövcud olan hüquqi və təşkilati mexanizm haqqında müəyyən qədər məlumatlar işdə öz əksini tapmışdır. Fransa nəzərdən keçirilərkən ölkədə tətbiq olunan ali təhsilin inkişaf planı haqqında və innovasiyaların bu ölkədə dəstəklənməsi, texnoparkların və iş mərkəzlərinin yaradılması kimi məsələlərə yer verilmişdir. Həmçinin məqalədə İspaniya və Niderland kimi dövlətlərdə bu sahədə mövcud sistem haqqında məlumatlar verilmişdir. İspaniyada elmi tədqiqatlara yönəldilən vəsaitlərin dinamikası ilə bağlı bəzi məlumatlar və elmi-tədqiqatların inkişafına yönəlmiş dövlətlə özəl sektorun əməkdaşlığını nəzərdə tutan proqramların əsas istiqamətləri göstərilmişdir. Niderlandın tədqiqat və araşdırma işləri ilə bağlı güzəşt sisteminin spesifik cəhətləri, bu sahədə vergi güzəştləri üçün qoyulan kriteriyalar, buradakı vergi güzəşt sisteminin fərqli cəhətləri məqalədə qeyd olunmuşdur. Məqalənin sonunda bir sıra təklif və tövsiyələr verilmişdir.

**Açar sözlər:** elm parkları, Lambert mərkəzi, "Akademik sərbəstlik", Almaniya universitetləri, elm cəmiyyətləri, texnoloji transfer ofisləri, Patent Ticarəti Agentlikləri, Sofiya Antipolis, vergi güzəştləri.

## THE CURRENT SYSTEM OF RESEARCH AND TECHNOLOGY PARKS IN THE EUROPEAN UNION COUNTRIES

### SUMMARY

In the article, Industrial cooperation with universities of various countries of the European Union has been examined. Initially, here the existing situation in the UK, established science and research parks has been reviewed. Specifying the strategies used by the UK science parks have been their functions have been shown. In addition, information was given about various programs offered within the state-university-industry collaboration (SUIC). Certain conditions laid down in the UK regarding university-industry cooperation has been given in the article. Later, Germany is the other state in reviewed in the article. Related to Germany especially some universities and science societies have been specified. A certain amount of information about the legal and institutional mechanisms that existed in Germany in order to improve the scientific researches in Germany and to increase the application possibilities in the industry has been included in the study. In the case of France, issues such as high education development plan applied in the country, the support of innovations, establishment of technoparks, and business centers were examined. In addition, information on the current system in this area of the Spain and the Netherlands has been included. Some information on the dynamics of funds for scientific research in Spain and for the development of scientific research the main directions of programs that envisage cooperation between the state and the private sector have been shown. Studies and research on specific aspects of the concession system in Netherlands, the criteria for tax reductions in this area, the different aspects of the tax reduction system are specified in the article.at the end of the article some suggestions and recommendations has been given.

**Keywords:** science parks, Lambert center, "Academic freedom", German universities, scientific societies, technology transfer offices, Patent Trade Agencies, Sophia Antipolis, tax reductions.

# СУЩЕСТВУЮЩАЯ СИСТЕМА НАУЧНО-ИССЛЕДОВАТЕЛЬСКИХ И ТЕХНОЛОГИЧЕСКИХ ПАРКОВ В СТРАНАХ ЕВРОПЕЙСКОГО СОЮЗА


## РЕЗЮМЕ

В статье было исследовано промышленное сотрудничество Европейского союза с университетами ряда стран. Здесь изначально были рассмотрены текущая ситуация в Великобритании в текущей сфере и созданные научно-исследовательские парки. Были отмечены стратегии, используемые в научных парках в Англии и их выполняемые функции. Кроме того, даны ряд информаций о программах, применяемых в рамках СПУИ. В статье приведены определенные условия, изложенные в рамках СУИ в Великобритании. Позже, следующим рассматриваемым государством стала Германия. Особенно были упомянуты некоторые университеты и научные общества связанные с Германией. В статье отражаются информации о существующих правовых и институциональных механизмах, также развитие научных исследований в Германии и в направлении повышения промышленного применения научных исследований в целях расширения возможностей. При рассмотрении Франции были затронуты вопросы плана развития высшего образования применяемого в стране и поддержка инноваций в стране, создания технопарков и бизнес-центрах. В статье также говорится о существующей системе в этой сфере в странах, как Испания и Нидерланды. Были показаны основные направления программ, учитывающих сотрудничество государства и частного сектора в направлении на развитие научных исследований и некоторые вопросы связанные с динамикой средств, уделенных на исследования в Испании. В статье были отмечены отличительная особенность концессионной системы, связанной с исследованиями в Нидерландах, критерии налоговых льгот в этой области и различные аспекты системы налогового льгота. В конце статьи перечислены ряд предложений и рекомендаций.


**Ключевые слова:** научные парки, центр Ламберта, «Академическая свобода», немецкие университеты, научные общества, бюро технологических передач, Торговые Агентства Патентов, София Антиполис, налоговые льготы.

Hazırda yüksək texnologiyalar və innovasiyalar cəmiyyətin zəruri tələbatına çevrilməkdədir. Dünya iqtisadiyyatında informasiya, informasiya texnologiyaları sahələrinin xüsusi çəkisi və rolu yüksək sürətlə artmaqdadır. Bu sahələrin inkişafını zəruri edən amillərdən biri də iqtisadiyyatın digər sahələrinin inkişafına təsir imkanlarının böyük olmasıdır. İnformasiya və informasiya texnologiyaları, yüksək texnologiyaların tətbiqi, mövcud texnologiyaların tək-

milləşdirilməsi məsələləri dövrümüzün ən aktual məslələrinə çevrilməkdədir. Bu istiqamətdə yüksək nailiyyətlər əldə etmiş ölkələr özlərinin yüksək inkişaf səviyəsini təmin etməyi bacarmışdır. Lakin burada bir həqiqət də var ki, istər cəmiyyətin, istərsə də iqtisadiyatın və onun müxtəlif sahələrinin inkişafı məhz elmin, təhsilin, elmi-texniki tərəqqinin inkişafından birbaşa asılıdır. Bu istiqamətdə ən önəmli məsələlərdən biri elmin nailiyyətlərinin iqtisadiyata tətbiqi, iqtisadiyyatın elmin, elmi sistemin inkişafına səmərəli təsiri mexanizmlərinin qurulmasıdır. Bu iki sahə ayrılıqda deyil, kompleks şəkildə fəaliyyət göstərdikdə daha yüksək effektivliyə malikdir. Avropa Birliyi üzvü olan bir sıra ölkələr elmin və iqtisadiyyatın qarşılıqlı səmərəli fəaliyyət mexanizmlərinin qurulması ilə fərqlənir. Burada İngiltərə, Almaniya, Fransa, Hollandiya, İspaniya, Belçika və s. kimi ölkələri qeyd etmək olar.

ABŞ-da Stenford və MTİ kimi universitet sənaye işbirliyi sahəsində uğur qazanmış universitetlərdən nümunə götürülərək İngiltərədə ali təhsil qurumlarının olduğu yerlərə elmi-tədqiqat parkları qurulmağa başlanılmışdır. Kembric və Heriot Uotda 1972-ci ildə qurulanlar İngiltərənin ilk elmi parklarıdır. Elmi parkların sayı 1989-cu ildə 32 və 1999-cu ildə 46-ya yüksəlmişdir. Hal-hazırda bu sayı 100-ü keçmişdir [11].

İngiltərədəki elm parklarında mövcud firmaların 80%-ə qədərinin ən çox 15 işçisi vardır. Bu da onu göstərməkdədir ki, elm parkları ən çox kiçik və orta ölçülü müəssisələrə istiqamətlənmiş fəaliyyət göstərməkdədir. Bu firmalar xüsusilə biotexnologiya, avadanlıq, kompüter və kommunikasiya texnologiyaları, sənaye, ətraf mühit və enerji istiqamətli texnologiyalar üzərində işləməkdədirlər [11].

İngiltərədə elm parklarının qurulmasında fərqli strategiyalardan istifadə edilir. Burada əsas üç strategiya fərqləndirilir:

- elm parklarının universitet və ya hər hansı bir ali təhsil qurumu tərəfindən yaradılması və maliyyələşdirilməsi;
- elm parklarının universitet və ya ali təhsil qurumu və hər hansı bir özəl investor ilə birlikdə qurulması. Bu strategiyanın özəlliklərindən biri də odur ki, burada elm parkları ayrıca hüquqi şəxs kimi fəaliyyət göstərməkdədir;
- universitet və ya ali təhsil qurumlarının rolunun məhdud olduğu, ortaq sərmayə qoyuluşuna əsaslanan idarəetmə üsulu. Burada parkın gündəlik fəaliyyətinə uyğun olaraq tədqiqatçıların dəstəyi gözlənilir. Buna baxmayaraq bu parkların bir çoxu universitet və ya ali təhsil qurumlarının mülkiyyətindədir.

İngiltərədəki elmi-tədqiqat parkları əsasən aşağıdakı funksiyaları yerinə yetirir:

- texnologiya sahəsində mübadilə;
- innovasiya fəaliyyəti ilə məşğul olan firmaların yaradılması və bu sahədə fəaliyyət göstərən firmaların fəaliyyətinin təkmilləşdirilməsini həyata ke-

çirmək;
- kənardan innovativ texnologiyalardan istifadə edən firmaları bu parklara cəlb etmək;
- məşğulluq, istehsalın inkişafı, texnologiya istehsalı kimi məsələlərdə regional inkişafa fayda vermək;
- milli və beynəlxalq iqtisadi əlaqələrin inkişafına müsbət şərait yaratmaq. İngiltərədəki yenilikçi firmaların dörddə birinin informasiyanı universitetlərdən digər dörddə birinin isə dövlət tədqiqat mərkəzlərindən və ya dövlət qurumlarından əldə etdiyi məlumdur [12].

İngiltərədə universitetlərin əksəriyyətinin özündə texnologiya transferi şöbələri vardır. Struktur baxımından bu şöbələr arasında universitetlər üzrə müəyyən fərqlər mövcuddur. Bir sıra universitetlərdə bu şöbələr konkret olaraq universitetin ayrıca bir bölməsi kimi, bəzilərində isə ortaqlıq formasında xidmət göstərməkdədir. Müəyyən qədər müstəqil olanları da vardır ancaq bunların sayı azdır. Ümumiyyətlə elmi tədqiqat sahəsindəki sisteminin xüsusiyyətlərinə görə İngiltərə ABŞ-a daha çox uyğun gəlir və elmi tədqiqat sahəsindəki xərclər və əldə olunan gəlirlər baxımından fərqlənən ölkələrdəndir.

İngiltərədə iş dünyası ilə dövlət, universitet elmi tədqiqat mərkəzləri arasındakı əlaqələri inkişaf etdirmək məqsədilə bir sıra proqramlar tətbiq edilməkdədir.

Birgə Tədqiqat üçün Lambert mərkəzi: Burada müqavilə modelləri üzrə universitet-sənaye əməkdaşlığı üçün istiqamətlər təklif edilir. Həyata keçiriləcək əqli mülkiyyət müqavilələri, maliyyə dəstəyi, akademik nəşrlərlə bağlı məsələlərdə internetdən istifadə imkanlarını artıran Lambert Proqramı maliyyə dəstəyi göstərməməkdədir.

İngiltərə hökuməti, mövcud Texnologiya və İnnovasiya Mərkəzlərinin yerini tutacaq qlobal rəqabət qabiliyyətliliyi təmin edəcək Katapult Mərkəzlərinin qurulmasına istiqamətlənmiş fəaliyyətə başlamışdır. Katapult Mərkəzləri bərpa olunan enerji, yüksək texnologiya emalı, kompleks sistemlər, fotonik və sensor sistemləri kimi İngiltərənin nisbi üstünlüyə malik olduğu sahələrdə fəaliyyət göstərməkdə olub akademik potensial ilə iş dünyası arasında əməkdaşlığı inkişaf etdirmək məqsədi daşıyır. Bu mərkəzlə iş dünyasının tələbləri istiqamətində, iqtisadiyyatın tələbləri əsasında, ölkədəki digər texnoloji transfer mərkəzləri ilə əlaqəli şəkildə fəaliyyət göstərməkdədirlər [11].

Kiçik həcmli müəssisələrə investisiyaların artırılması çox zaman investorlar tərəfindən riskli hesab olunur və bundan çəkinirlər. Bu sahədə investorların marağını artırmaq məqsədilə investorlara dəstək üçün yaradılmış 108 milyon avro investisiya büdcəsi olan vençur kapitalı tresti vardır.

Sayensvayz Mütəxəssis Mənbəyi Mərkəzi: Akademiklər, dövlət idarələri və xalq arasındakı dialoqu inkişaf etdirəcək layihələrin maliyyələşdirilməsi məqsədi ilə qurulan mərkəz illik 2 milyon 850 min avro məbləğində təminat göstərməkdədir [11].

200 milyon avroluq büdcə ilə qurulan Texnologiya Platformaları tədqiqatçılar ilə iş dünyası arasındakı əlaqəni gücləndirmək və əlaqələri sadələşdirmək məqsədi ilə xüsusilə informasiya kommunikasiya texnologiyaları, nəqliyyat və səhiyyə kimi cəmiyyət səviyyəsində olan problemləri diqqət mərkəzində saxlayan platformalardır.

İngiltərə iqtisadiyatında kiçik və orta ölçülü müəssisələrin rolu çox böyükdür. Bütün iş yerlərinin 99,9%-i kiçik və orta müəssisələr olub məşğulluğun 58,8%-ni təşkil edir və illik 1,5 trilyon funt sterlinq göstəriciyə malikdir [2, s.75].

Kiçik və orta müəssisələr müxtəlif qabiliyyətlərə ehtiyac duymaqdadır:

- işçi qüvvəsinin güncəl qabiliyyətlərlə təmin olunması;
- yeni bazarlara çıxış;
- işçinin məhsuldarlığının artırılması;
- liderlik qabiliyyətlərinin inkişaf etdirilməsi;
- yeni məhsul ixtirası və s. [3, s.25].

Universitet-Sənaye İşbirliyi məsələsində İngiltərədə müəyyən şərtlər qoyulmuşdur:

- universitet-sənaye işbirliyində yüksək mövqe qazanmaq üçün tədarük şəbəkəsi yaxşı təhlil olunmalıdır;
- istənilən universitet ən yaxşı olduğu istiqamət üzrə əməkdaşlıq etməlidir;
- iş dünyasında tələb olunan qabiliyyətdəki gənclərin təhsili üçün dövlət staj proqramlarım dəstəkləyən tənzimləmə fəaliyyətini yerinə yetirməlidir.

Burada əsas risk təşkil edən məqamlardan biri də vaxt sərf edilən fəaliyyətlər nəticəsində gözlənilən nəticələrin əldə olunmamasıdır.

Kiçik firmalarla həyata keçirilən işbirliklərində daha intensiv idarəetmə qabiliyatinə ehtiyac duyulur. İngiltərədə universitetlər dövlət tərəfindən subsidiyalaşdırıldığı üçün universitet-sənaye işbirliyi "cəmiyyətin xeyrinə fəaliyyət göstərməsi gözlənilən təbii işbirliyi" kimi qəbul edilir.

Böyük Britaniya Krallığında 2000-ci ilə qədər qüvvədə olan qanunvericiliyə əsasən şirkətlər tədqiqat və araşdırma işlərinə xərclədiyi məbləği və bu məqsədlə istifadə edilmək üçün alınan qurğuları və tikililərin dəyərini xərc kimi hesablamaqla vergi tutulan gəlirdən çıxa bilərdilər. 2000-ci ildən etibarən dövlət tərəfindən kiçik və orta, 2002-ci ildən etibarən isə iri istehsalat müəssisələrinə əlavə vergi güzəştləri təqdim olundu. Buna əsasən kiçik müəssisələr əlavə tədqiqat və araşdırmalara xərclədikləri maliyyə vəsaitinin 50 faizini, orta müəssisələr 25 faizini, iri müəssisələr isə 30 faizini vergi tutulan gəlirlərindən çıxa bilərlər. Bu işlər həm ölkənin sərhədləri daxilində, həm də xaricdə aparıla bilər, lakin dövlət büdcəsi hesabına aparıla bilməz [4, s.71].

Dünyada gedən qloballaşma prosesi Almaniyanın da ali təhsil və elmi sisteminə ciddi təsir göstərmişdir. Ali təhsil sistemində qloballaşma ilə bağlı

aparılan islahatlar bu sistemi beynəlxalq standartların tələblərinə uyğunlaşdırmışdır. Burada əsasən diqqəti cəlb edən mühüm məqamlara ölkənin çoxpilləli ali təhsil sisteminin yaradılması, elmi-tədqiqatlara diqqətin artırılması və iqtisadiyyatın ayrı-ayrı sahələri üzrə strateji, praktiki əməkdaşlığın güclənməsi kimi məsələləri aid etmək olar. Bunun nəticəsində bu gün Almaniyanın ali təhsil sistemi özünün keyfiyyəti və hazırladığı yüksək ixtisaslı kadrlara görə dünyada öncül mövqe tuta bilmişdir.

"Akademik sərbəstlik" prinsipini əsas götürən bu sistemdə tələbələr ixtisaslarına uyğun keçiriləcək fənlərin siyahısını sərbəst müəyyən etmək imkanına malik olurlar. Semestrlər mühazirə və mühazirədənkənar hissələrə bölünür. Bunun əhəmiyyəti ondan ibarətdir ki, mühazirə dövründə nəzəri biliklərə yiyələnməklə yanaşı, mühazirədənkənar dövrdə müstəqil elmi tədqiqatlarla məşğul olmaq imkanı yaradır. Bu isə Almaniyada təlim prosesi ilə, elmi-tədqiqatların qarşılıqlı əlaqəliliyinin daha da artırılmasına imkan verir.

Ölkənin ən güclü elmi-tədqiqat potensialına malik universiteti Reyn-Vestfal Ali Texniki Məktəbi hesab olunur. Texniki istiqamətli universitetlər burada əsasən mühəndis kadrlarının hazırlanması mərkəzləri kimi xüsusilə fərqlənirlər və əcnəbi tələbələrin bu universitetlərə marağı xüsusilə yüksəkdir. Almaniyada 1960-cı illərin sonlarından başlayaraq ixtisaslaşmış universitetlər daha çox inkişaf etməyə başladı. Bu gün Almaniyada tələbələrin 30%-ə qədəri məhz bu cür universitetlərdə təhsil alır. Hansı ki, bu universitetlərin təsərrüfat müəssisələri ilə geniş əməkdaşlıq əlaqələri mövcuddur.

Almaniyada təxminən 200 ixtisaslaşdırılmış universitetdə elmi-tədqiqat işləri yerinə yetirilir. Bu elmi-tədqiqatların əksəriyyəti sənayenin tələbləri əsasında yerinə yetirildiyi üçün təcrübi əhəmiyyətə malikdir.

Almaniya universitetləri ("vahid elmi tədqiqatlar və tədris" prinsipinə əsasən) yalnız ali təhsil müəssisəsi deyil, həmçinin qabaqcıl elmi tədqiqatlar mərkəzidir. Ölkə daxilində və xaricində alimlərlə elmi tədqiqat müəssisələri arasındakı sıx əməkdaşlıq bunun üçün geniş imkanlar yaradır. Ali təhsil məktəbləri dövlətdən, fondlardan və üçüncü şəxslərdən (elmi tədqiqatların sifarişçilərindən) maliyyə vəsaitləri alır [1, s.132].

Almaniyada yüksək ixtisaslı kadr hazırlığı və bu kadr potensialından iqtisadiyyatda istifadə olunmasında elmi cəmiyyətlərin rolu xüsusilə vurğulanmalıdır. Elmi cəmiyyətlər müəssisələr ilə əməkdaşlıq etməklə onların fəaliyyətinin təkmilləşdirilməsində müsbət rola malikdirlər.

Fraunqofer adına cəmiyyətin institutları isə sənaye ilə sıx əməkdaşlığa üstünlük verir. Cəmiyyətin 80-dən çox elmi tədqiqat müəssisəsi əsasən mühəndislik elmləri ilə məşğuldur. Cəmiyyətin mütəxəssisləri sifarişləri əsasən kiçik və orta müəssisələrdən aldıqları üçün laboratoriyalarla yanaşı, zavod sexlərində də çalışırlar. Cəmiyyətdəki elmi tədqiqat işlərinin illik həcminin dəyəri 1,5 milyard avro təşkil edir [1, s.135].

Helmolts adına Cəmiyyətin 16 elmi tədqiqat mərkəzi var. Bunların ara-

sında Ağır İonların Öyrənilməsi Cəmiyyəti, Alman Onkologiya Mərkəzi, Alman Elektron Sinxron və ya Alfred Vegener adına Qütb və Dəniz Tədqiqatı institutlarının adlarını çəkmək olar. Bu cəmiyyət Almaniyanın ən iri elmi təşkilatıdır. İllik büdcəsi təxminən 2,8 milyard avro olan cəmiyyətdə 28 min əməkdaş çalışır [1, s.134].

İnnovasiyaların inkişafında elmi tədqiqatların əhəmiyyəti olduqca böyükdür. Son nəticədə isə innovasiyalar iqtisadi inkişafı sürətləndirən başlıca amilə çevrilə bilir. Almaniya hökuməti bunları nəzərə alaraq elmi tədqiqatların dəstəklənməsi üçün məqsədyönlü yardım siyasəti həyata keçirir. Bu siyasətlə elmin və elmi tədqiqatların daha sistemli və sürətli formada inkişaf etdirilməsi nəzərdə tutulur. Bu məqsədlə son bir neçə ildə Alman federal hökümәti tərəfindən son illər ərzində təhsilə və elmi tədqiqata ayrılan xərclərin böyük miqdarda artırılması nəzərdə tutulmuşdur.

Almaniya universitetlərinin dəstəyi ilə xaricdə tərəfdaş müəssisələrlə birlikdə nümunəvi elmi tədqiqatlar və tədris mərkəzləri yaradılır. Bundan başqa, əcnəbi tələbələrə təqaüdlərin verilməsi üzrə təkliflər artır və dünyada alman dilinin öyrənilməsi üçün yaxşı şərait yaradılır [1, s.136].

Almaniyada təşkilati texnoloji transferlərin həyata keçirilməsini həyata keçirəcək vasitəçilərin, xüsusilə texnoloji transfer ofislərinin yaradılmasına 1980-ci ildən sonra başlanılmışdır. Almaniya hökumətinin 2001-ci ildə başlatdığı "İnformasiya bazar yaradır" şüarı altında fəaliyyətinin əhəmiyyətli nəticələrindən biri də ABŞ-dakı Bayh-Dole qanununa bənzər qanun layihəsinə bənzər formada qanunvericilikdə dəyişiklik edilməsi oldu. Bununla da universitetlərdə aparılan elmi araşdırmaların əqli mülkiyyət hüququ universitetlərə verildi və tədris üzvlərinin həyata keçirdikləri elmi-tədqiqatlarla bağlı universitet rəhbərliyini məlumatlandırma məcburiyyəti tətbiq edildi.

Universitetlərdə elmi-tədqiqatla bağlı fəaliyyətlərin genişlənməsi və demək olar ki, hər universitetdə yaradılmağa başlanılan vasitəçi qurumların fəaliyyətinin daha səmərəli olması, elmi-tədqiqatın nəticələrinin ticariləşmə mərhələsinə dəstək olunması üçün 2002-ci ildə Patent Ticarəti Agentlikləri yaradılmışdır.

Almaniyanın hər bir əyalətində belə agentliklərdən ən azı biri olmaqla sayı 21-ə çatmışdır. Bu agentliklər əməkdaşlıq halında tədqiqat nəticələrinin ticariləşdirilməsi üçün lazım olan bütün mərhələlərdə və əlaqəli bütün sahələrdə fəaliyyət göstərməkdədirlər. Bu sistem sayəsində ixtiraların sayında və onların ticariləşmə səviyyəsində olduqca böyük bir artım əldə olunmuşdur.

Bundan başqa Almaniya Federal İqtisadiyyat və Texnologiya Nazirliyi tərəfindən maliyyələşdirilən 200 elmi təşkilat ilə 100 min tədqiqatçının daxil olduğu texoloji əməkdaşlıq şəbəkəsinə 21 Patent Ticarəti Agentliyi də daxildir [4].

Almaniya elmi-tədqiqatlara ayrılan vəsaitlərin həcminə görə ABŞ ilə müqayisə olunacaq bir səviyyədədir. Ölkədə hazırda 250 universitet fəaliyyət

göstərir ki, bunlardan da 100-ə qədəri əsasən tətbiqi elm sahələri üzrə ixtisaslaşmışdır. Bu universitetləri "Fakhokskul" da adlandırırlar. Almaniya universitetlərində elmi-tədqiqat sahəsində müşahidə edilən ənənə ondan ibarətdir ki, sənaye istiqamətli texnologiya transferləri əsasən ortaq əməkdaşlıq proqramları və müqavilə əsaslı tədqiqat layihələrinə daha çox üstünlük verilir.

Almaniyada texnoloji tərəqqi məsələlərində mühüm xüsusiyyətlərdən biri də ictimai və ya ictimai xarakter daşıyan iri həcmli tədqiqat mərkəzlərinin rolunun böyük olmasıdır. Bunlar universitetlərlə sənaye arasındakı tədqiqat və təkmilləşdirmə fəaliyyətlərində vacib əlaqələndirici funksiyanı yerinə yetirməkdədirlər.

Almaniyada elmi-tədqiqat, texnologiya transferi kimi istiqamətlər üzrə fəaliyyət göstərən əsas qurumlar aşağıdakılardır:

- Fraunhofer Cəmiyyəti;
- Helmholtz Mərkəzləri;
- Leybnits Cəmiyyəti;
- Maks Plank İnnovasiya təşkilatı;
- Steynbeyz Cəmiyyəti;

2005-ci ildə Tədqiqat və Yenilik Paktı çərçivəsində bu mərkəzlərin və universitetləri maliyyələşdirən Almaniya Tədqiqat Cəmiyyətinin büdcələri artırılmışdır. Xüsusilə əldə olunan razılığa görə bu mərkəzlərin büdcələrində 2011-2015-ci illər arasında hər il 5%-lik artırılma olacaqdır. Doktorantura tələbələri üçün təklif edilən imkanlar bu mərkəzlər tərəfindən artırılmışdır [6].

Bunlar arasından Fraunhofer Cəmiyyəti içərisində birləşən institutlarda sənaye strukturları və ya dövlət strukturları ilə bağlanılan sazişlər çərçivəsində tətbiqi araşdırmalar həyata keçirilməkdədir. Fraunhofer Cəmiyyəti tamamilə tətbiqi tədqiqatlara yönəldilmişdir [7].

Maks Plank İnstitutunda da informasiya transferi vacib yer tutmaqdadır. Bu istiqamətdə Maks Plank İnstitutunda 9000-dən artıq gənc tədqiqatçı fəaliyyət göstərir və buradan ayrılanlar sənayedə və digər qurumlarda işləməkdədirlər. Bundan əlavə lisenziya müqavilələrinin bağlanılması və texnologiya əsaslı firmaların yaradılması yolu ilə Maks Plank cəmiyyəti informasiya ilə təmin etməkdədir. İnstitutun texnoloji transfer fəaliyyətlərini həyata keçirən bir şirkəti, Maks Plank İnnovasiya şirkəti 1970-ci ildən bəri işləməkdədir. Tədqiqatçıların sənaye hüquqlarını qoruma, İnstitut ilə işləyən firmaları yönləndirmə və patent müraciətləri məsələlərində Maks Plank İnnovasiya şirkəti mühüm vəzifələri üzərinə götürmüşdür [8].

Almaniyanın digər tədqiqat mərkəzlərində də bunlara oxşar fəaliyyətlər yerinə yetirilməkdədir.

Steynbeys Cəmiyyəti, transfer mərkəzləri, tədqiqat və təkmilləşdirmə mərkəzləri, məsləhət mərkəzləri, Berlin Universitetində Transfer İnstitutu və ortaqlarından təşkil olunmuşdur. Transfer mərkəzləri texnoloji transfer xidmətlərini həyata keçirərkən tədqiqat və təkmilləşdirmə mərkəzləri isə transferi

mümkün, bazarın tələblərini qarşılamağa istiqamətləndirilmiş tədqiqatlar aparmaqdadır. Məsləhət Mərkəzləri isə firmalara müxtəlif məsələlərdə məsləhət xidmətləri təklif edirlər [9].

Almaniyanın vergi reformasında iqtisadi inkişafın stimullaşdırılması və bazar mexanizminin aktivləşdirilməsinə yönəlmiş dövlət proqramları mühüm rol oynayır. Aparılan reformanın əsas məqsədi əlverişli investisiya mühitinin yaradılması, istehsalatın özünü maliyyələşdirməsinin artımına nail olunması, kiçik və orta müəssisələrin təşviq edilməsi, istehsal olunan malların yeniləşdirilməsi və texniki yeniliklərin tətbiq olunmasıdır.

Almaniya təcrübəsinin araşdırılması bizə onu deməyə əsas verir ki, bu ölkədə tədqiqat və araşdırma işlərini stimullaşdırmaq məqsədilə vergi güzəştləri tətbiq olunmur.

Dövlətin bununla bağlı siyasəti müxtəlif istiqamətli innovativ müəssisələrə subsidiyaların ayrılmasından ibarətdir [4, s.71].

Hazırda Fransada "Üçüncü Minilliyin Universiteti" adlanan yeni ali təhsilin inkişafı planı tətbiq edilir. Bu plan ali təhsil üçün prioritetləri müəyyən edir və inkişafın əsas istiqamətlərini göstərir. Bu istiqamətdə qarşıya qoyulmuş əsas hədəflər:

- ali təhsil müəssisələri arasında əməkdaşlığın şəbəkə sistemində təşkili;
- ali təhsil müəssisələrinin əməkdaşlığa açıqlığının və beynəlxalq mobilliyinin dəstəklənməsi;
- yeni informasiya və kommunikasiya texnologiyalarının inkişafı;
- elmi tədqiqatların səmərəliliyinin artırılması [1, s.154].

1990-cı illərin sonu 2000-ci illərin əvvəllərində Fransada innovasiyalar və əqli mülkiyyət hüquqları ilə bağlı məsələlərin təkmilləşdirilməsi yolu ilə Dövlət-Universitet-Sənaye arasında əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində müəyyən işlər yerinə yetirilmişdir. Bununla belə Fransada bu istiqamətdə buna bənzər fəaliyyətlər əvvəlki dövrlərdə də mövcud olmuşdur.

Fransanın Nice şəhərində yerləşən və 1969-cu ildə yaradılan Sofiya Antipolis dünyaca məşhur texnoparklar sırasındadır. Xüsusilə kompüter, elektronika, təbiət elmləri, biotexnologiya sahələrində şirkətlərin fəaliyyət göstərdikləri Sofiya Antipolisdə müxtəlif mövzularda informasiya bazası və informasiyanı emal etmək bacarığı olan insanların əlaqələndirilərək innovasiya emalının həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Şəbəkələrin və əməkdaşlıqların yaradılması üçün Sofiya İş Mələkləri Kulubu, Sofiya Skandinaviya Bağı və Telekom Vadisi kimi layihələr təşkil olunmuşdur. Məsələn, Sofiya Skandinaviya Bağı, Skandinaviya, Fransanın cənubu ilə Monako arasında mədəni və iqtisadi əməkdaşlıq əlaqələrinin inkişafı istiqamətində fəaliyyət göstərən iş adamları şəbəkəsidir.

Sofiya Antipolisdə Nis Universiteti-Sofiya Antipolis, fakültələri və tədqiqat mərkəzləri ilə birlikdə yerləşməkdədir. Texnologiya Parkı, universitetin ehtiyatları ilə, beynəlxalq tədqiqatçılarla, çoxlu sayda texnologiya əsaslı firma-

larla, infrastruktur dəstəyi ilə böyük bir tədqiqat-təkmilləşdirmə və innovasiya mərkəzi mövqeyindədir. Sofiya Antipolisin innovasiya istehsalında müxtəlif mədəniyyətlərdən, elm sahələrindən, ixtisaslardan payçıları bir yerə yığma missiyası vardır [10].

Niderlandın tədqiqat və araşdırma işləri ilə bağlı güzəşt sisteminin unikallığı iki aspektdə təzahür edir.

*Birincisi, bu güzəşt tədqiqat və araşdırma işlərini həyata keçirən işçilərin əmək haqlarına tətbiq edilir.*

*İkincisi, bu güzəştin tətbiqi nəticəsində ənənəvi olaraq müəssisənin mənfəət vergisinin məbləği yox, əməkhaqqı fondu vergisinin və sığorta ödəmələrinin məbləği aşağı düşür [4,s.69].*

Niderlandda bu sahədə vergi güzəşti əldə etmək üçün bir sıra kriteriyalar qoyulur. Bu kriteriyalara aşağıdakılar aidddir:

- tədqiqat və təkmilləşdirmə işlərini müəssisələr öz hesablarına yerinə yetirməlidirlər;
- tədqiqat və təkmilləşdirmə işləri sistemlik xüsusiyyətinə malik olmalıdır;
- tədqiqat və təkmilləşdirmə işləri Niderland ərazisində yerinə yetirilməlidir;
- tədqiqat və təkmilləşdirmə işləri birbaşa texniki və elmi tədqiqatlar, məhsullar, əməliyyatlar və proqram təminatlarının işlənilməsi ilə bağlı olmalıdır.

Niderlandda tətbiq olunan güzəştin əsas xüsusiyyəti ondan ibarətdir ki, bu sahədə fəaliyyət göstərən sahibkarın işçilərin əməkhaqqından sosial müdafiə fonduna ayrılmalı olan vəsaiti tədqiqat və təkmilləşdirmə işləri üzrə əmək haqlarının ilkin 90756 avrosundan 40%, qalan məbləğdən isə 13% azaltmaq hüququna malikdir.

Tədqiqatlara əsasən, Niderlandda tətbiq olunan vergi güzəşt sisteminin digər ölkələrdən aşağıdakı fərqli cəhətlərini müəyyən etmək olar:

1. Güzəştlər yalnız əmək haqlarına münasibətdədir.
2. Bu sistem mənfəətsiz müəssisələr üçün daha az çətinlik yaradır.
3. Ərizə təqdim etmiş şirkətlərdə planlaşdırılan tədqiqat və araşdırma işləri texnoloji cəhətdən yeni olmalıdır.
4. Şirkətlər ərizəni müəyyən olunmuş müddətdən əvvəl təqdim etməlidirlər [4, s.70].

İspaniya 2002-2008-ci illər aralığında önəmli cəhdlər etmiş və tədqiqat-təkmilləşdirmə xərclərini 2002-ci ildə 0.99%-dən 2008-ci ildə 1,35%-ə qədər artırmışdır. Ancaq maliyyə böhranının təsirli olduğu 2011-ci ildə tədqiqat-təkmilləşdirmə işlərinə vəsait qoyuluşunun həcmi 1,33-ə düşmüşdür ki, bu da 2008-ci ildəki 1,35%-dən aşağı göstəricidir [11].

Son dövrlərdə İspaniyada elmi-tədqiqat və təkmilləşdirmə sahəsində fəaliyyətlərin daha da inkişaf etdirilməsi və dövlətlə özəlsektor arasında qarşılıqlı

əməkdaşlığın inkişafı üçün bir sıra proqramlar hazırlanmışdır. Bu cür proqramların əsas istiqaməti dövlətlə özəl sektor arasında əməkdaşlığın zəif olduğu sahələrə yönəldilmişdir. Ölkədəki sənaye təşkilatları bu istiqamətdə əməkdaşlığın inkişafında maraqlı olduqları üçün universitetlərdə aparılan elmi-tədqiqat işlərinin 8%-ni maliyyələşdirməkdədirlər. Dövlətlə özəl sektor arasında əməkdaşlığın inkişafı istiqamətində yerinə yetirilən Milli Proqram bu əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün hazırlanmışdır.

Bundan başqa İspaniyada kiçik ölçülü müəssisələrin dəstəklənməsi üçün də müəyyən proqramlar yerinə yetirilməkdədir. İnno Empressa-Madrid proqramı kiçik həcmli müəssisələrin və firmaların innovasiya mədəniyyətinin inkişaf etdirilməsi üçün dəstəyin verilməsini nəzərdə tutur.

Bu istiqamət üzrə kiçik və orta ölçülü firmalara 12 ay müddətə qədər 100 min avroya qədər dəstək verilməkdədir. Dəstək kiçik firmalar üçün cəmi xərclərin 20%-lik, orta ölçülü firmalar üçün isə 50%-lik hissəsinə verilməkdədir. Bu yardıma bənzər Valensiya bölgəsində də bir yardım proqramı mövcuddur. Zaman və dəstək miqdarı eyni olmaqla bərabər qarşılanan büdcə kiçik firmalar üçün 60-70% səviyyələrinə çatmaqdadır [10].

Ümumilikdə AB ölkələri üzrə baxılan məqamlar üzrə aşağıdakıları qeyd etmək olar:

- Texnoparkların ərazi üzrə yerləşdirilməsində ABŞ-da olduğu kimi kiçik şəhərlərin xüsusi çəkisi daha yüksəkdir;
- Əksər ölkələrdə texnoparkların qurulmasında dövlətin rolu böyükdür. Məsələn, İngiltərədə sərmayə qoyuluşlarının 60%-i, Almaniya, Fransa, Hollandiyada 75%-i, Belçikada isə demək olar ki 100%-i dövlət fondu tərəfindən edilməkdədir [5, s.46];
- Ali təhsilli kadr hazırlığının praktiki istiqamətinin gücləndirilməsinə daha çox diqqət ayrılmaqdadır;
- Bir sıra ölkələrdə universitetləri və özəl sektorun əlaqələndirilməsində vasitəçilik fəaliyyətində ixtisaslaşmış qurumların rolunun yüksək olması görülməkdədir;
- Universitetlər əsasən müəyyən istiqamətlər üzrə ixtisaslaşmağa üstünlük verirlər;
- Universitetlərdə kadr hazırlığı prosesi həyata keçirilərkən və elmi-tədqiqatlar aparılarkən özəl sektorun tələblərinə diqqətlə yanaşılır.

Məqalədə təhlil olunan ölkələrin xüsusiyyətlərini nəzərə alaraq ölkəmiz üçün bir sıra təkliflər verə bilərik:

1. Universitetlərdə Texnoloji Transfer Ofislərinin (TTO) qurulması və səmərəli fəaliyyətinin təmin olunması;
2. Rəqabət mühitinin inkişafı üçün kiçik və orta sahibkarlığa texnoloji və innovasiya yönümlü dəstəyin göstərilməsi;
3. Ayrı-ayrı universitetlər üzrə üstün olduqları konkret ixtisas istiqamətlərin müəyyənləşdirilməsi və bu istiqamət üzrə sənaye ilə yaxından əməkdaşlıq qurulması;

4. Universitetlərin elmi-tədqiqat və kadr hazırlığı imkanlarının artırılması, hazırlanan kadrların qarşısında qoyulan tələblər sənayenin tələbləri ilə uyğunlaşdırılması və bu sahədə sənaye ilə birgə işin təmin edilməsi;
5. Elm və texnologiya parklarının sayının perspektivli sahələr üzrə artırılması və burada sənaye müəssisələri ilə universitetlərin birgə fəaliyyətinin genişləndirilməsi, bunun üçün lazım olan hüquqi bazanın təmin edilməsi;
6. Azərbaycanda sosial-iqtisadi potensialına uyğun olaraq regionlarda texnoparkların yerləşdirilməsinə dövlət dəstəyinin artırılması;
7. Tələbələrin, universitetlər və elmi-tədqiqat institutlarında fəaliyyət göstərən tədqiqatçıların özəl sektorda iştirakı üçün mexanizminin təkmilləşdirilməsi;
8. İxtiraların, innovasiyaların stimullaşdırılması məqsədilə iqtisadi, hüquqi və sosial mexanizmlərin effektivliyinin təmin edilməsi və təkmilləşdirilməsi;
9. Xüsusilə gənclərin universitetlərdə, elmi-tədqiqat sahələrində və texnoparklarda aktivliyinin təmin olunması üçün əlavə imkanların yaradılması;
10. Dövlət tərəfindən bu cür parklarda göstərilən fəaliyyətlərin əlavə stimullaşdırıcı tədbirlər hesabına təşviq olunması.

**Ədəbiyyat:**


1. M.C.Mahmudov, Dünyada təhsil sistemləri. Monoqrafiya. Bakı, Mütərcim, 2014. 480 s.
2. Departament of Business, İnnovation and Skills. Statistical release: Business population estimates for UK and Regions, 2011. s.75
3. Department of Business, Innovation and Skills (April 2011), Small Business Survey 2010, 2011, 25 s.
4. Musayev A., İnnovasiya iqtisadiyyatı və vergi stimullaşdırılması. Bakı. "Azərbaycan Universiteti" nəşriyyatı, 2014. 184 s.
5. Sevcan Karahan, Üniversite-sanayi işbirliğinde teknoparkların yeri ve Gaziantep teknoparkı, Gaziantep Üni- versitesi, Sosyal Bilimler Enstitüsü, Gaziantep, 2009. s. 47
6. http://www.tubitak.gov.tr/tubitak_content_files/BTYPD/ulke_raporlari /Almanya_BTY_sistemi.pdf, 13/06/2017
7. http://www.fraunhofer.de
8. http://www.mpg.de
9. http://www.steinbeis.de
10. www.sophia-antipolis.org
11. www.kompozit.org.tr/documents/bildirimler/Rapor.DOC, 08/10/2016
12. http://www.ukspa.org.uk, 25/08/2016

**UOT 330.341.1**

# TÜRKİYƏ RESPUBLİKASINDA TEXNOLOGİYA PARKLARININ FƏALİYYƏTİNİN XÜSUSİYYƏTLƏRİ VƏ BU SAHƏDƏ DÖVLƏT SİYASƏTİ

**Təyyar MUSTAFAYEV**
Bakı Mühəndislik Universiteti
Bakı / AZƏRBAYCAN

teyyarm@beu.edu.az

## XÜLASƏ

Məqalədə son dövrlərdə Türkiyə Respublikasında yüksək ixtisaslı kadr hazırlığı, iqtisadiyyatın beynəlxalq rəqabət standartlarına uyğunlaşdırılması istiqamətində həyata keçirilən tədbirlər və mövcud vəziyyət nəzərdən keçirilmişdir. Daha sonra Türkiyədə elmi-tədqiqatlara ayrılan vəsaitlərin son dövrlərdə ÜDM-dəki xüsusi çəkisi ilə bağlı bəzi statistik göstəricilər verilmişdir. Türkiyədə qurulması planlaşdırılan texnoparklardan gözlənilən fayda və texnoparkların fəaliyyəti ilə bağlı nəzərdə tutulan strategiyalar qeyd olunmuşdur. Daha sonra texnoparkların fəaliyyəti ilə bağlı qanunda nəzərdə tutulmuş güzəştlər məqalədə öz əksini tapmışdır. Bununla yanaşı texnoloji təkmilləşdirmə bölgələri üçün qanunda nəzərdə tutulmuş vergi təşviqləri də göstərilmişdir. Məqalədə eyni zamanda Türkiyədə fəaliyyət göstərən bir sıra texnoparklar haqqında da məlumatlar verilmiş, həmin texnoparkların qurulmasında və fəaliyyətində müəyyən edilmiş bir sıra çatışmazlıqlar qeyd edilmişdir. Sonda ölkəmizdə xüsusi əhəmiyyəti ola biləcək bir sıra təkliflər verilmişdir.

**Açar sözlər:** Türkiyə Respublikası, "Texnoloji İnkişaf Bölgələri", texnoparklar, ODTÜ, OSTİM, İzmir texnopark, Arçe- lik, vergi təşviqləri.

# THE PERFORMANCE CHARACTERISTICS OF INDUSTRIAL PARKS IN THE REPUBLIC OF TURKEY AND GOVERNMENT POLICY IN THIS AREA

## SUMMARY

In the article, recently in the Republic of Turkey, highly qualified staff preparation, measures taken to adapt the economy to International competition standards and the current situation has been reviewed. Initially, public policy to improve the system of vocational training of staff and the role of a number of large companies in this field have been considered. Con- sequently, funds

allocated to scientific research in Turkey in recent years and some statistics on the proportion of GDP has been shown. The expected benefits from the planned technological parks established in Turkey and the strategies envisa- ged for the activities of Technoparks are mentioned. Then, discounts foreseen in the law about the activities of the Techno-parks are considered in the article. In addition, tax incentives foreseen in the law for technological development zones has also been emphasized in the article. At the same time, information on some Technoparks operating in Turkey was also given and a number of proposals were made at the end of the article which could be of particular importance.

**Keywords:** Turkey, vocational education, "Technological Development Zones", industrial parks, METU, OSTİM, Izmir Technoparks, Arcelik, tax encouragements.

## ХАРАКТЕРИСТИКИ ДЕЙСТВИЯ ТЕХНОЛОГИЧЕСКИХ ПАРКОВ В ТУРЕЦКОЙ РЕСПУБЛИКИ И ГОСУДАРСТВЕННАЯ ПОЛИТИКА В ЭТОЙ ОБЛАСТИ

### РЕЗЮМЕ

В статье дан обзор о подготовке высококвалифицированных кадров за последний период в Турецкой Республике, о текущей ситуации, усилия мер в направлении по гармонизации стандартов международной конкурентоспособности экономики. Первоначально были рассмотрены роли государственной политики и целого ряда крупных компаний в направлении усовершенствования системы профессиональной подготовки персонала. В дальнейшем были даны некоторые статистические показатели доли средствам ВВП, выделенных научным исследованиям в Турции за последние годы. Были отмечены ожидаемая польза от создания планируемых технических парков и стратегий индустриальных парков. В статье также нашли свое отражение и, предусмотренные законом, скидки для деятельности технопарков. Помимо этого, для технологических зон развития приведены, предусмотренные законом, налоговые поощрения. В статье также представлены информации о ряде действующих в Турции технопарков, в конце были даны некоторые предложения, которые могут иметь особое значение в нашей стране.

**Ключевые слова:** Республика Турции, образование профессий, «Зоны технологического развития», промышленные парки, МЕТУ, ОСТИМ, Технопарк Измир, Арчелик, налоговые поощрения

Qloballaşma prosesinin nəticəsi kimi dünya ölkələri təbii və iqtisadi ehtiyatlardan daha səmərəli istifadə və daha çevik iqtisadi münasibətlərin qurulması zərurətini hiss etməyə başlamışdır. Eyni zamanda beynəlxalq iqtisadi müna-

sibətlərin daha da mürəkkəbləşdiyi, dünya bazarlarında tələbin xüsusiyyətlərinin dəyişdiyi, rəqabət mühitinin dərinləşdiyi bir şəraitdə innovasiyalar, elmi-texniki yeniliklər, ixtiralar və onların tətbiqi məsələləri hər bir aspekt üzrə öz aktuallığını daha da artırmışdır. Bu proses bilik iqtisadiyyatını dövrün əsas tələblərindən birinə çevirmişdir.

Türkiyə Respublikasının son illərdəki sosial-iqtisadi nəticələrini təhlil etsək təhsildə aparılan islahatların nəticəsi kimi bu ölkənin bilik iqtisadiyyatının yaradılmasında böyük nailiyyətlər əldə etdiyi müşahidə olunur. Belə ki, ölkə iqtisadiyyatında ixracatın strukturunda yüksək bilik tələb edən texnologiya, maşınqayırma və cihazqayırma məhsulları üstünlük təşkil edir. Sözsüz ki, bilik iqtisadiyyatının formalaşmasında düzgün təşkil olunmuş təhsil sistemi dayanır.

Dünya iqtisadiyyatında son dövrlərdə bir sıra sahələrdə öz xüsusi çəkisini artırmağı bacaran Türkiyə öz təhsil sistemini və təhsil proqramlarını xeyli dərəcədə təkmilləşdirməyə nail olmuşdur. Təhsilin keyfiyyəti baxımından böyük nailiyyətlər əldə olunmuşdur. Təhsildə xüsusilə tətbiqi əhəmiyyətə malik istiqamətlərdə görülən tədbirlər öz səmərəsini göstərməkdədir. Bir sıra universitetləri dünyanın nüfuzlu universitetləri sırasına daxil olmuşdur. Bu universitetlərin hazırladığı yüksək ixtisaslı kadrlar elmi-tədqiqat, iqtisadiyyat və başqa bir sıra sahələrdə fərqlənməyə başlamışdır.

Hazırda Türkiyə ali təhsildə yaradılmış güclü maddi-texniki bazası, münasib təhsil şəraiti, təhsil və yaşayış xərcləri ilə də əmək bazarında rəqabətqabiliyyətli, yüksəkixtisaslı kadrların hazırlanması imkanlarını xeyli genişləndirmişdir.

Türkiyə ali təhsil sisteminin yenidən qurulması mərhələsi 2011-ci ilin fevral ayından bu yana davam etməkdədir. Bir çox universitet yenidənqurmanın nə cür olmalı olduğu ilə bağlı raport hazırlamışdır. Misal üçün ODTÜ tərəfindən hazırlanan raportda, universitet təşkilatlanmasında, maliyyə və akademik strukturun idarəedilməsində, personal seçimi və məşğulluğunda universitetin müstəqil bir quruluşa malik olmasının önəmi vurğulanmışdır [10, s.8].

Bundan başqa burada universitetlərdə ixtisaslaşma, beynəlxalq rəqabət standartlarına uyğunlaşma, məhsuldarlıq, hesabatlılıq, universitetin idarə heyətinin yenidən formalaşdırılması üçün nələrin edilməli olduğu, yeni strukturun hansı formada olmasının daha məqsədəuyğun olması ilə bağlı fikirlər də öz əksini tapmışdır.

Türkiyə universitetlərlə sənaye arasında əməkdaşlığı inkişaf etdirən ölkələrdəndir. Bu əməkdaşlıq üzrə tənzimləmə siyasəti beşillik inkişaf planları əsasında həyata keçirilmişdir və bu proses bu gün də davam etdirilir.

Türkiyədə elmi-tədqiqatlara və texnologiyaların inkişafına sərf olunan vəsaitlərin ÜDM-dəki payı son illərdə artmışdır.

Türkiyədə tədqiqat-təkmilləşdirmə xərclərinin ÜDM-də xüsusi çəkisi 2002-ci ildə 0,53%-ə, son illərdə elm və texnologiya sahəsində müşahidə olunan siyasətə bağlı olaraq 2012-ci ildə 0,92%-ə çatmışdır. Bu faiz 2011-ci

ildə 0,86% idi. 2012-ci ildə tədqiqat-təkmilləşdirmə fəaliyyətləri tədqiqatı çərçivəsində, ictimai quruluşlar, vəqf universitetləri və ticarət sektorundakı anket nəticələrinə, dövlət universitetlərinin büdcə və şəxsi sənədləri əsasında yerinə yetirilən hesablamalara görə Türkiyədə ümumi daxili tədqiqat-təkmilləşdirmə xərcləri 2012-ci ildə əvvəlki illə müqayisədə 17,1% artaraq 13,062 milyon TL olaraq hesablanmışdır [11, s. 21].

1991-ci ildə rəsmi qəzetdə nəşr olunan məlumata görə, Türkiyədə texnoparkların qurulması aşağıdakı məqsədləri daşıyırdı:

- Dünya bazarı üçün rəqabət potensialına və daxili bazarda strateji əhəmiyyətə malik texnologiyaya əsaslanan sənaye sahələri qurmaq;
- Daxili və xarici sərmayəni təşviq etmək;
- Universitet, dövlət və özəl sektor arasında güclü əlaqə yaratmaq;
- Yeni xammal, bacarıqlı işçi qüvvəsi və sərmayə üçün daha yüksək əlavə dəyərli ixrac məhsullarının istehsalını inkişaf və təşviq etmək;
- Yüksək iqtisadi təsirə malik yeni texnologiyalara sərmayə qoyulması və dolayı yolla məşğulluğun artırılması;
- Universitetlərin tədqiqat nəticələrini məhsuldar sektorlara tətbiq etmək [9. s. 186].

Türkiyədə elmi-tədqiqatların aparılması əsasən, biotexnologiya, kosmos araşdırmaları və peyk texnologiyası, elektron, bərpa oluna bilən enerji resursları, yeni vəsaitlər, dəniz elmləri, dəmir və kömür texnologiyası kimi istiqamətlər üzrə aparılır və texnoparkların əsasən bu istiqamətlərdə yaradılması nəzərdə tutulur.

Türkiyədə fəaliyyət göstərən texnoparkların fəaliyyət sahələri dünyadakı texnoparklarla müqayisədə bənzərlik nümayiş etdirir. Proqramlaşdırma və müdafiə sənayesi ən öndə gələn fəaliyyət sahələridir. Dünyadakı uğurlu texnoparklar tədqiq edilərkən firmaların ortalama istehsala keçmə müddəti 5 il olaraq götürülsə də, Türkiyədəki texnoparklarda fəal olan firmalar 3 ildən az bir müddət ərzində texnologiya ixracatına başlayırlar [2, s.88].

Türkiyədə qurulması planlaşdırılan texnoparklar layihəsindən sənaye, ticarət, elm və texnologiya sahələrində fayda və strategiyalar bu şəkildə müəyyən edilmişdir:

- Dünya bazarı üçün qlobal rəqabət potensialına və daxili bazarda strateji əhəmiyyətə sahib texnologiyaya əsaslanan sənayenin qurulması;
- Daxili investisiyaları və xarici kapital qoyuluşuna təşviq etmə;
- Universitet, dövlət və özəl sektor sənaye müəssisələri arasında effektiv qarşılıqlı əlaqələri qurmaq;
- Xüsusilə yerli xammal, bacarıqlı iş qüvvəsi və kapital üçün daha yüksək əlavə dəyərə sahib ixrac məhsullarının təşviqi və inkişaf etdirilməsi;
- Yüksək iqtisadi effektivliyə malik qabaqcıl texnologiyalara investisiya edilməsi və dolayı yolla məşğulluğu artırmaq;
- Qabaqcıl texnika və təhsilin tətbiqi ilə məhsul keyfiyyəti və məhsuldar-

lığın artırılması;

- Universitetin tədqiqat nəticələrinin məhsuldar sektorlara ötürülməsi hədəflərini texno-parklar vasitəsilə reallaşdırma planları vardır [1, s. 52-53].

Türkiyədə texnoparkların qurulmasına 1980-ci illərdən başlanılmışdır. Bu mərhələdə ilk addımlardan biri kimi KOSGEB ilə universitetlərin qarşılıqlı əməkdaşlığının nəticəsi olaraq texnologiya mərkəzləri yaradılmağa başlanıldı. Bu fəaliyyətin tənzimlənməsi ilə bağlı hüquqi baza 2001-ci ildən 4691 saylı qanunvericilik aktının qüvvəyə minməsi ilə formalaşdırılmışdır. "Texnoloji İnkişaf Bölgələri” anlayışı bu aktda istifadə olunmuşdur.

2015-ci ilin dekabrından etibarən fəaliyyətdə olan tədqiqat-təkmilləşdirmə fəaliyyətlərini həyata keçirən firmaların sayı 3744-ə çatmışdır. Bu firmaların 39%-i elektron yazışmalarda, 19%-i Kompüter və Rabitə Texnologiyarı sektorunda, 7%-i Elektronika və 5%-i Maşın və Təchizat Emalı sahələrində fəaliyyət göstərməkdədir. Bundan başqa Tibb, Enerji, Kimya, Ərzaq, Müdafiə kimi bir çox sektordan firmalar bölgələrdə tədqiqat-təkmilləşdirmə fəaliyyətləri çərçivəsində yerləşməkdədir. Texnoloji İnkişaf Bölgələrində, 2015-ci il dekabr ayından etibarən cəmi 38,239 şəxsi heyət məşğulluqla təmin olunmuşdur. Texnoloji İnkişaf Bölgələrində tamamlanan tədqiqat-təkmilləşdirmə layihəsi 18,318, həyata keçirilən tədqiqat-təkmilləşdirmə layihəsi 8,525 ədəddir. Fəaliyyətə başlayan Texnoloji İnkişaf Bölgələrində mövcud olan şirkətlərin, Amerika Birləşmiş Ştatları başda olmaqla, Yaponiya, İsrail, İngiltərə və Almaniya kimi dünyanın ən inkişaf etmiş ölkələrinə etdikləri texnoloji məhsul ixracı 2014-cü ilin sonu etibarı ilə təxminən 2,4 milyard ABŞ dollarına çatmışdır. Xarici investisiya baxımından yanaşdıqda Texnoloji İnkişaf Bölgələrində cəmi 174 xarici/ xarici ortaqlı firma yer almaqdadır [8].

Türkiyədə texnoparkların fəaliyyəti ilə bağlı qanunda texnoparklara bir sıra dəstək və güzəştlər nəzərdə tutulur:

- ETTKİ işçiləri üçün gəlir vergisindən azad olma;
- Şirkətlər üçün mənfəət vergisindən azad olma;
- Texnoparkın şirkətləri üçün işləyən akademik personal üçün stimullar.

Türkiyədə texnoloji təkmilləşdirmə bölgələri üçün xüsusi vergi güzəştlərini özündə əks etdirən qanun qəbul edilmişdir. Bu qanunun bir sıra müddəaları aşağıdakı cədvəldə əks etdirilmişdir [3, s. 100].

**Cədvəl.**

Texnoloji Təkmilləşdirmə Bölgələri Qanununa Görə Texnoparklara Tətbiq Olunan Vergi Təşviqləri Xülasə Cədvəl [3].

| İdarəedici şirkətlər üçün nəzərdə tutulmuş vergi təşviqləri | Texnopark tərkibindəki firmalar üçün nəzərdə tutulmuş vergi təşviqləri | Texnopark tərkibində işləyən işçilər üçün nəzərdə tutulmuş vergi təşviqləri |
|---|---|---|
| - Fəaliyyət gəlirləri, gəlir və mənfəət vergisindən azaddır,<br>- Qanunun tətbiqi ilə bağlı əməliyyatlarda hər cür vergi, rüsum və xərcdən azaddır. | - Proqramlaşdırma və tədqiqat<br>- təkmilləşdirmə qazancları gəlir və mənfəət vergisi xaricindədir,<br>- Bölgədən edilən təhvil-təslim və xidmətlərdə ƏDV-dən istisna tətbiq edilir. | *Tədqiqat-təkmilləşdirmə heyəti;*<br>- Vəzifələri ilə bağlı əldə etdikləri məbləğlər hər cür vergi, rüsum və xərcdən istisnadır,<br>- Tədqiqat-təkmilləşdirmə heyətinin icazəli formada bölgədən kənarda həyata keçirilən fəaliyyətlərindən əldə edilən məbləğin, tədris üzvü kadrlar üçün 50%-i, digər tədqiqat- təkmilləş-dirmə heyəti üçün 25%-i gəlir vergisindən istisnadır |
| | | *Köməkçi heyət;*<br>- Vəzifəsi ilə bağlı məbləğ hər cür vergi, rüsum və xərcdən istisnadır (tədqiqat-təkmilləşdirmə heyəti sayının 10%-i ilə məhdudlaşır) |

Türkiyədə bir sıra texnoparkların fəaliyyətini universitet-sənaye əməkdaşlığının, ölkədə təhsilin, yüksək ixtisaslı kadr hazırlığının inkişafı, məşğulluğun artırılması baxımından xüsusilə fərqləndirmək lazımdır.

Orta Şərq Texniki Universiteti Texnoparkı Türkiyədə yaradılmış ilk texnopark olmaqla bərabər, innovasiya fəaliyyətində digər texnoparklara nisbətən daha çox fərqlənməkdədir.

ODTÜ texnoparklarının yuxarı qurumu 12 nəfərdən ibarət "Ali Məsləhət Şurası"dır. Bu şuranın 50%-ni dövlət institutları, TUBİTAK, KOSGEB təşkil edilmiş sənaye zonasının biznesmenləri (OİZ), Ankara sənaye palatası və təşkilatlar təşkil edir. İdarəedici şirkət məsləhətçilər və biznes tərəfdaşlarla əlaqədə işləyirlər.

ODTÜ texnoparkının idarəedici şirkətinin fəaliyyətinə aşağıdakılar aiddir:

- Daşınmaz əmlakın idarəedilməsi;
- Monitorinq və qiymətləndirmə;
- Texnoloji əməkdaşlıq

- Texnoloji transfer [1, S.52].

ODTÜ texnoparklarda yerləşən şirkətlərin bu texnoparkların güclü tərəfləri ilə bağlı bir sıra fikirləri vardır:

- ODTÜ texnoparkının markasının olması;
- Yeni kadrlar;
- Gəlir;
- Sahibkarlığın aparılması üsulları öyrədilir;
- Dövlət dəstəyi;
- Layihələrin dövlət dəstəyi;
- TÜBİTAK layihələri;
- Toplantılar aparılır. Toplantılar hesabına işbirliyi yaradır;
- Sorğulara cavab verir;
- Beynəlxalq tədbirlər haqqında məlumatlandırma;
- Tələbələr üçün iş yerləri;
- Universitetlər üçün təcrübə yeri;
- Beynəlxalq təcrübənin öyrənilməsi üçün layihələr təşkil edilir;
- Şirkət nümayəndəsi xaricə göndərilir;
- Şirkətlərə investorların axtarışına şərait yaradır;
- Xarici şirkətlərlə əlaqələr yaradılır;
- Sərgi və konfranslara şirkətlərin nümayəndələri göndərilir;
- Sənaye ilə əlaqələr yaradır;
- Texnologiyaların kommersiyalaşdırılmasına köməklik edir;
- Patentlərə və investisiyalara köməklik edir;
- Tədqiqatların aparılması;
- Alimlərlə əməkdaşlıq imkanları artır;
- Tələbələrin diplom işləri araşdırılır;
- Tələbələrin diplom işləri tətbiq edilir [1, s.59]:

Bununla belə ABŞ texnoparkları ilə müqayisə etdikdə ODTÜ-nün maliyyələşdirilməsində dövlətin rolunun, ABŞ texnoparklarında isə sənayenin rolunun daha çox olduğu müəyyən edilmişdir. Sənaye ilə əməkdaşlıq baxımından ODTÜ-nün ABŞ texnoparklarından geri qaldığı müşahidə edilmişdir.

OSTİM sənaye parkının idarəçilik heyəti 24 bölmədən ibarətdir və idarəçilik tərkibində olan müəssisələrin fəaliyyətinin yaxşılaşdırılması üçün anket sorğuları aparır. Bunun üçün xüsusi proqramlardan istifadə edir. Onun əsas funksiyalarından biri də sənaye bölgəsində bir sahəyə qulluq edən müəssisələri bir-biri ilə əlaqələndirməkdir. Burada eyni zamanda işçilərin işləməsi üçün hər cür şərait yaradılmışdır. Eyni zamanda Ostimdə alternativ enerji üzərində işləmək üçün "enerji parkı"nın açılması planlaşdırılır.

OSTİM-də sənaye istiqaməti daha güclüdür. ODTU universitet texnoparkıdır, OSTİM isə sənaye tipli tədqiqat aparan firmaları özündə birləşdirən texnoparkdır. Bununla yanaşı OSTİM ölkənin 6 universiteti ilə əməkdaşlıq edir.

OSTİM ilə ODTU birləşməsi gedir. ODTU layihələri OSTİM-də

kommersiyalaşdırılır. Bu gün OSTİM klaster siyasəti irəli sürür. Bölgədə olan əsas 6 klaster götürülüb. Bu klasterlərə daxil olan müəssisələr ərazi yerləşməsindən çıxırlar. Bu klasterlərə OSTİM-dən kənarda olan müəssisələr də daxil olur. Bu siyasət gələcəyə yönəlib. Müəssisələrin rəqabət qabiliyyətini artırmaq üçün nəzərdə tutulur. Klasterlər halında dövlət ilə əlaqələndirmə koordinatorlar tərəfindən aparılır.

Beləliklə, OSTİM-in siyasəti dövlət, müəssisə, universitet, sənaye birliyi yaratmaqdır. Tələb və təklif öyrənilir, qarşı-qarşıya qoyulur, iş birliyi yaradılır [1, s.57].

İzmir Texnoparkı Türkiyənin ən böyük texnoparklarından biridir. İzmir Yüksək Texnologiya İnstitutunun Kampusunda 2002-ci ildə qurulub, 2004-cü ildə isə fəaliyyətə başlayıb. Nəqliyyat baxımından da yaxşı yerləşdirilib. Buraya daxil olan firmalar əsasən biotexnologiya, elektronika, avadanlıq emalı, müdafiə, enerji, dizayn, kimya, telekommunikasiya, nanotexnologiyalar, avtomatika, robot sistemlər, turizm və s. istiqamətlər üzrə formalaşmaqdadır.

Ərazinin İYTE kimi beynəlxalq tədqiqat institutunda yer alması, buradakı firmalar üçün beynəlxalq bir tədqiqat-təkmilləşdirmə mühiti formalaşdırmaqdadır. Bir sıra universitetlərin bu bölgənin yaradılmasında rolu böyük olmuşdur. Bu universitetlərin də bölgənin qurucuları arasında olması firma və müəssisələr tərəfindən universitetin texniki və sosial imkanlardan istifadədə əlavə üstünlük yaradır.

Burada eyni zamanda ictimai qurum və quruluşları ilə birlikdə universitetin şəxsi heyətindən, bölgə əhəmiyyətli yeri olan fəaliyyətlərdə tədqiqatçı xidmətinə ehtiyac duyulanlar, işlədikləri iş yerinin icazəsi ilə davamlı və yaxud hissə-hissə olaraq işlədilə bilirlər. Eyni zamanda tədris hissəsinin işçiləri, universitetin idarə heyətinin icazəsi ilə yerinə yetirdikləri tədqiqatların nəticələrini ticariləşdirmək üçün bu bölgələrdə şirkət qura və bu şirkətlərin idarə olunmasında vəzifə tuta bilirlər.

İzmir texnoparkının bir sıra üstün cəhətləri vardır:

Bölgədə 6224 saylı Xarici Sərmayəni təşviq qanunu və əlaqəli məsələlər çərçivəsində xarici mənşəli idarəedici və mütəxəssis tədqiqat-təkmilləşdirmə heyəti işlədilə bilinməkdədir.

Bölgədə yerləşən gəlir və mənfəət vergisi mükəlləflərinin, bölgə daxilində proqramlaşdırma və tədqiqat-təkmilləşdirmə fəaliyyətlərindən əldə etdikləri qazancları 31.12.2023-cü il tarixinə qədər gəlir və mənfəət vergisindən azaddır.

Bölgədə fəaliyyət göstərən tədqiqatçı, proqramçı və tədqiqat-təkmilləşdirmə heyətinin buradakı vəzifələri ilə bağlı gəlirləri də yenə hər cür vergidən azaddır [5].

Eyni zamanda burada Texnoloji İnkişaf Bölgələri ilə bağlı qəbul olunmuş 4691 saylı qanuna əsasən göstərilən müddətə qədərki vergi güzəştləri, əlavə tətbiq edilən dəstək subyektlər və təşkilatlara yalnız bölgə daxilindəki fəaliyyətlər üçün keçərlidir.

Bundan başqa burada dövlətin Tədqiqat və təkmilləşdirmə Fəaliyyətlərinin Dəstəklənməsi Haqqında Qanuna əsasən gəlir vergisindən azad olan işçilərin fəaliyyətləri nəticəsində alacaqları əməkhaqqından müəssisə tərəfindən sığorta ödənişlərinin yarısı 5 il müddətinə Maliyyə Nazirliyi tərəfindən qarşılanacaq.

Bütün bunlar texnoparkın fəaliyyətinə müsbət təsir göstərir, həm də innovasiyalara yönəldilən investisiyanın artımını daha da münasib edir.

İzmir texnoparkının idarə heyətinə universitet və iri şirkətlərin rəhbər vəzifəli şəxsləri daxildir. Bu isə onun fəaliyyətində həm universitet, həm də şirkətlərin maraqlarının təmsil olunması deməkdir.

Türkiyə Respublikası texnoparkların inkişafı ilə bağlı bir sıra layihələrdə beynəlxalq əməkdaşlıq siyasətini həyata keçirir. Belə ki, bu çərçivədə İstanbul və Berlin texnoparkları arasında bərpa olunan enerji, səhiyyə və nanotexnologiyalar kimi sahələrdə ortaq yeni tenologiyaların yaradılması planlaşdırılır. Bundan başqa İstanbul texnoparkında bir çox xarici şirkətlər, xüsusilə Almaniyanın telekommunikasiya və məişət əşyalarının istehsalı ilə məşğul olan şirkətləri iştirak etməkdə maraqlıdırlar.

Türkiyədə universitet-sənaye işbirliyinin uğurlu inkişafında bir sıra böyük şirkətlərin də önəmli rolu olmuşdur. Onlardan biri də "Arçelik A.Ş."-dir. Bu şirkət 200-dən çox dissertasiyanın hazırlanmasında universitetdəki akademik heyətlə birlikdə müsbət rol oynamış, bunun sayəsində universitetdəki biliyin, elmi-nəzəri bazanın tədqiqat-təkmilləşdirmə fəaliyyətinə cəlb olunmasına nail olmuşdur. Burada staj dövründən başlayaraq uzunmüddətli layihələr yerinə yetirilmiş, dissertasiyasını Arçelik A.Ş-də tamamlayan 100-dən artıq mühəndis şirkət daxilində müxtəlif strukturlarda işlə təmin olunmuşdur.

İstanbul Texniki Universitetinin Maşınqayırma və Kimya-Metallurgiya fakültələri nəzdində Arçelik dəstəkli laboratoriyaların qurulmasına dəstək verilmişdir. Bu laboratoriyaların nəzdində Santez, TÜBİTAK işbirliyi layihələri yerinə yetirilməkdə, tələbələrin işləyə biləcəkləri şəkildə müxtəlif təchizat və təcrübə qurğuları qurulmaqdadır [6].

Yerli universitetlərlə yanaşı bu şirkət xarici universitetlərlə də əməkdaşlıq edir. ABŞ, Çin, İngiltərə, Almaniya, Hollandiya kimi ölkələrdə bir çox elmi-tədqiqat institutları ilə əməkdaşlıq əlaqələri yaradılmışdır. Ölkə daxilində isə 30-a yaxın yerli universitetlə əməkdaşlıq edilir.

Şirkət tədqiqat-təkmilləşdirmə fəaliyyətlərini yerli və beynəlxalq universitetlərlə, təchizatçılarla, tədqiqatçı təşkilatlarla əməkdaşlıq şəraitində yerinə yetirməkdədir. Nanotexnologiyalar, qida saxlama texnologiyaları, nəqliyyat və logistika şəbəkələrinin yaxşılaşdırılması və s. kimi bir sıra sahələrdə 12 layihədə iştirak edir.

Bir sıra tədqiqatlarda Türkiyədə texnoparkların yaradılması və fəaliyyəti ilə bağlı müəyyən çatışmazlıqlar da qeyd edilmişdir:

- Ölkənin müxtəlif bölgələrində çoxlu sayda texnoparklar yaradılsa da,

əvvəlcədən texno-park yerləşən ərazinin iqtisadi təhlili aparılmamışdır. Bu isə həmin texnoparkların inkişafını ləngitmişdir;

- Texnoparkların yaradıldığı sahələrin zəruriliyinin bir sıra hallarda aşağı olması;
- Texnoparklara daxil olan bəzi firmaların fəaliyyətinin texnoparkın fəaliyyət prinsiplərinə uyğun olmaması. Belə ki, bəzi firmaların bura daxil olma səbəbi yalnız müəyyən vergi güzəştləri əldə etməkdən ibarətdir;
- Texnoparklarda fəaliyyət göstərənlərin strukturu. Texnoparklarda əsasən tələbə və tədqiqatçıların cəlb edilməsi gözlənilsə də, bəzən bunların tam əksi müşahidə olunmaqdadır.

Respublikamızda nəzərdən keçirdiyimiz məsələlər əsasında aşağıdakı tədbirlərin xüsusi əhəmiyyəti ola bilər:

1. Ölkədə ali təhsil müəssisələri ilə sənaye arasında əməkdaşlığın inkişafı üçün dövlət tərəfindən hüquqi bazanın hazırlanması, strategiyanın müəyyənləşdirilməsi və inkişafına dəstək verilməsi;
2. Ölkədə yüksəkixtisaslı kadr hazırlığı və elmi-tədqiqat işlərinə investisiyaların stimullaşdırılması;
3. Sənaye müəssisələrinin universitet texnoparklarında fəaliyyət göstərmələri üçün ciddi stimullaşdırma imkanlarının artırılması;
4. Universitet texnoparklarında istehsal olunan məhsulların dövlət dəstəkli olaraq bazara çıxarılması;
5. Texnoparkların yaradılması zamanı texnopark qurulan ərazinin sosial-iqtisadi potensialının düzgün qiymətləndirilməsi və buna uyğun optimal seçim edilməsi;
6. Texnoparkların fəaliyyətində perspektiv inkişaf üçün elmi potensialın və tədqiqatçıların xüsusi çəkisinin yüksək olmasına çalışılması;
7. Ali təhsil müəssisələrində təhsil alan tələbələrin sənaye müəssisələrində təcrübə imkanlarının genişləndirilməsi və istehsalatda davamlı iştirak imkanlarının yaradılması;
8. Tələbələrin və tədqiqatçıların texnoparklarda fəaliyyətinin stimullaşdırılması;
9. Texnoparklarda kəşf olunan ixtiraların və innovativ məhsulların patent haqqlarının qorunması;
10. Texnoparkların fəaliyyəti üzrə konkret, əsaslandırılmış ixtisaslaşma istiqamətinin müəyyən edilməsi, bu istiqamətdə elmi-tədqiqatların sistemli şəkildə aparılması.

## Ədəbiyyat:

1. Azərbaycanda beynəlxalq təcrübə əsasında texnoloji innovasiya məqsədli Texnopark və Aqroparkların yaradılması üzrə təklif və tövsiyələrin hazırlanması. İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu. Yekun

Hesabat 2014, Bakı-2014, 52-59 s.
2. Cihan Talha Çağıl, "Türkiyede Ulusal Teknoloji Politikaları ve Teknoparkların Bölgesel Gelişmeye Etkileri", İTÜ, Fen Bilimleri Enstitüsü. İstanbul-2007, 88 s.
3. Demirli Yunus, "Türkiyede Teknoparklara Yönelik Teşvikler ve Teknoparkların Bilim ve Teknoloji Kapasite- sinin Gelişimine Katkısı", Maliyye Degisi, Sayı 166, Ankara-2014, 95-114 s.
4. http://arsiv.mmo.org.tr/pdf/1684.pdf, 11/03/2017
5. http://teknoparkizmir.com.tr/hakkimizda, 15/06/2017
6. http://www.arcelikas.com/sayfa/70/Isbirlikleri, 13/09/2016
7. http://www.tgbd.org.tr/WebContent/WebContent/4707, 18.01.2017
8. Qasımov İ.H., Cəbiyev F.A., "İnnovasiya sahibkarlığı və texnoparklar", Dərs vəsaiti, Bakı-2017.
9. Muazzez Babacan, "Teknopark Kavramları ve Türkiyede Uygulamalar", TMMOB, Mühendis ve Makina Der- gisi, Ankara-1991, 186 s.
10. Orta Doğu Teknik Üniversitesi, "Yüksek Öğretimin Yeniden Yapılandırılması Üzerine Görüş ve Öneriler Hazırlama Komisyonu Raporu", Ankara-2012. 8 s.
11. Türkiye İstatistik Kurumu (TÜK), "Araştırma Geliştirme Faaliyetleri Araştırması 2012 Yılı Verileri", 20/11/2013 tarihli ve 13630 sayılı Haber Bülteni, Ankara-2013, 21 s.

**UOT 330.31/.33;330.567;330.12**

# MÜASİR ŞƏRAİTDƏ AZƏRBAYCANDA İSTEHLAK BAZARININ TƏDQİQİNİN SOSİAL-İQTİSADİ ASPEKTLƏRİ

**Səbinə MURADOVA**
Azərbaycan Dövlət İqtisad Universiteti
Bakı / AZƏRBAYCAN

sabina-muradova@rambler.ru

## XÜLASƏ

Qloballaşma dövründə və fəal bazar münasibətlərinin inkişaf etdiyi bir şəraitdə istehlak bazarı Azərbaycan iqtisadiyyatının ən iri və iqtisadi cəhətdən uğurlu sahələrindən biri kimi fəaliyyət göstərir. Ümumiyyətlə, istehlak bazarının vəziyyəti ölkənin sosial-iqtisadi inkişafının mühüm göstəricisidir. Azərbaycanda istehlak bazarının inkişafının təhlili onu göstərir ki, 2005-2015 illəri əhatə edən bir dövr ərzində ölkədə əlverişli şərtlərlə xarakterizə olunan bazar konyunkturana keçid uğurla həyata keçirilmişdir ki, bu da nəticədə bu sahədə çalışan sahibkarlar üçün böyük stimula çevrilmişdir.

**Açar sözlər:** bazar, istehlak bazarı, istehlak bazarının seqmentləri, əhalinin pul gəlirləri, ev təsərrüfatlarında istehlak xərclərinin quruluşu, istehlak qiymətləri indeksi.

# СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКИЕ АСПЕКТЫ ИССЛЕДОВАНИЯ СОВРЕМЕННОГО СОСТОЯНИЯ РАЗВИТИЯ ПОТРЕБИТЕЛЬСКОГО РЫНКА В АЗЕРБАЙДЖАНЕ

## РЕЗЮМЕ

В период глобализации и активного развития рыночных отношений одним из самых крупных и экономически успешных секторов азербайджанской экономики становится потребительский рынок, состояние которого в целом является показателем социально-экономического развития страны. Проведенное исследование состояния развития потребительского рынка Азербайджана показывает, как за период с 2005-2015 гг. в стране осуществлен постепенный переход к благоприятной конъюнктуре, характеризующейся стабилизацией цен, относительной сбалансированностью рынка, стремительно растущим объемом продаж, что в конечном итоге повысило степень привлекательности потребительского рынка для предпринимателей, устремленных на достижение высокой рентабельности

бизнеса.

**Ключевые слова:** рынок, потребительский рынок, сегменты потребительского рынка, денежные доходы населения, структура потребительских расходов домашних хозяйств, индекс потребительских цен.

## SOCIO-ECONOMIC ASPECTS OF RESEARCH OF THE CONSUMER MARKET IN AZERBAIJAN

### SUMMARY

In the period of globalization and the active development of market relations one of the largest and most economically successful sectors of the Azerbaijan economy becomes the consumer market. The condition of the consumer market in general is an indicator of socio-economic development of the country. A study of the development of the consumer market of Azerbaijan shows how over the period 2005-2015, the country carried out a gradual transition to a favorable conjuncture characterized by the stabilization of prices, the relative balance of the market, rapidly growing sales, which ultimately increased the attractiveness of the consumer market for entrepreneurs, aspiring to achieve high profitability.

**Keywords:** market, consumer market, segments of the consumer market, monetary incomes of the population, structure of consumer expenditures of households, the consumer price index.

Bəşəriyyətin ən mühüm nailiyyətlərindən biri hesab edilən mürəkkəb bazar mexanizmi neçə yüzilliklər ərzində formalaşmışdır. Elmi ədəbiyyatda "bazar" anlayışının çoxsaylı izahlarına rast gəlmək mümkündür və bu da təbiidir, çünki bazar olduqca mürəkkəb və bu günə qədər kifayət qədər dərindən öyrənilməmiş iqtisadi kateqoriya hesab olunur.

K.R.Makkonell və S.A.Bryu tərəfindən nəşr edilən "Ekonomiks" dərsliyində bazar kateqoriyası "müəyyən mal və xidmətlərin alıcıları və satıcılarını bir araya gətirən institut və ya mexanizm" kimi qiymətləndirilir [6, s.61]. "Bazar" anlayışına analoji yanaşmanı L.N.Xaymanda da görmək mümkündür: "Bazar alıcı və satıcıların mal və xidmətlərlə ticarət etmək məqsədilə görüşməsidir" [9, s.7], o cümlədən E.C. Dolan da nümayiş etdirir: "Bazar - insanların bir-biri ilə ticarət etməsi məqsədilə hər hansı bir qarşılıqlı əlaqəsidir" [4, s.20]. Oxşar anlayışları A.Xoskinq, R.Pindayk [10, s.104; 7, s.21] kimi bir sıra digər iqtisadçılarda da tapmaq mümkündür. Mülkiyyət hüquqları nəzəriyyəsinə əsasən, bazar hər şeydən əvvəl dəqiq müəyyən edilmiş mülkiyyət hüquqlarıdır.

Yuxarıda qeyd edilən bazar anlayışları bu kateqoriyanın iqtisadi mahiyyətini düzgün əks etdirməklə yanaşı bəzi xüsusiyyətlərinə və istiqamət dərəcəsinə görə fərqlənirlər. Bizim fikrimizcə, bazarın ən dəqiq təyini onun əsas

bazar subyektləri olan alıcı və satıcılar arasında formalaşan iqtisadi münasibətlər sistemi olmasıdır. Digərləri sadəcə bu iqtisadi münasibətlərin mahiyyətini dəqiqləşdirmiş olurlar. Başqa sözlə, bazar - müvafiq qanunların və prinsiplərin əsasında qurulan iqtisadi münasibətlərdir.

Tədqiqatımız bütövlükdə bazara deyil, yalnız onun ən əhəmiyyətli hissəsi hesab edilən istehlak malları və xidmətləri bazarına həsr edilmişdir.

Bazarın bir iqtisadi kateqoriya kimi təhlili onu göstərmişdir ki, istehlak bazarının məcmu bazarın tərkib hissəsi kimi araşdırılması və onun şəxsi istehlakla bilavasitə əlaqələndirilməsi yalnız F.Kotlerə: "... şəxsi istehlak məqsədilə mal və xidmətlər alan və ya digər üsullarla onları əldə edən ayrı-ayrı fiziki şəxslər və ev təsərrüfatlarıdır" [5, s.143] və A. Xoskinqə məxsusdur: "...şəxsi (qeyrikommersiya) istehlakı üçün ayrı-ayrı fiziki şəxslər və ev təsərrüfatları tərəfindən alınmış və ya icarəyə götürülmüş mallar və xidmətlər bazarıdır" [10, s.105].

Müasir iqtisadi ədəbiyyatda istehlak bazarı anlayışına dair çoxsaylı şərhlərə və yanaşmalara rast gəlinir ki, bunlar bu iqtisadi kateqoriyanın müxtəlif aspektlərini özündə əks etdirməklə yanaşı bir-birilərini tamamlayır və dəqiqləşdirirlər. Aşağıda tərtib edilmiş cədvəldə "istehlak bazarı" anlayışına dair əsas yanaşmalar tərəfimizdən toplanmışdır.

**Cədvəl 1.**

"İstehlak bazarı" anlayışına dair müxtəlif yanaşmalar

| Müəllif | "İstehlak bazarı" anlayışının izahı | Mənbə |
|---|---|---|
| F.Kotler | İstehlak bazarı şəxsi istehlak məqsədilə mal və xidmətlər alan və ya digər üsullarla onları əldə edən ayrı-ayrı fiziki şəxslər və ev təsərrüfatlarıdır. | Kotler F. Основы маркетинга: Пер. с англ. - М.: «Ростинтэр», 1996, с. 143 |
| A.Xoskinq | İstehlak bazarı şəxsi (qeyrikommersiya) istehlakı üçün ayrı-ayrı fiziki şəxslər və ev təsərrüfatları tərəfindən alınmış və ya icarəyə götürülmüş mallar və xidmətlər bazarıdır. | Xoskinq A. Курс предпринимательства: Практ. пособие: Пер. с англ. М.: Международные отношения, 1993 - с. 105 |
| İ.K. Belyayevskiy | İstehlak bazarı məhdudlaşdırılmış ölçülərlə mal kütləsinin və xidmətlərin kütləvi və fərdi alıcılara (əhaliyə) satışını əhatə edir. | Belyayevckiy İ.K. və başqaları: Статистика рынка товаров и услуг. Учебно-практическое пособие/ Моск. гос. универ. экономики, статистики и информатики, 2006. - 143 |

| | | |
|---|---|---|
| V.A. Şulqa | İstehlak bazarı daha əlverişli təbii və sosial-iqtisadi şərtlər mövcud olan ərazidə inkişaf edən ərzaq və qeyri- ərzaq malları bazarı və istehlak xidmətləri bazarıdır. | Национальная экономика: Учебник / Под общей ред. акад. В. А. Шульги. М.: Изд-во Рос. экон. акад., 2002. 592 с.- с. 342 |
| T.V. Uskova O.İ. Popova T.V. Vorontsova | İstehlak bazarı mal və xidmətlərin istehsalı və/və ya satışını həyata keçirən təsərrüfat subyektləri ilə bu məhsulları şəxsi istifadə üçün əldə edən fərdi istehlakçılar arasında yaranan əmtəə-pul və təşkilati-iqtisadi münasibətlər sistemidir. | Потребительский рынок города: состояние и перспективы [Текст]: монография / кол. авт. под рук. Т.В. Усковой. - Вологда: ИСЭРТ РАН, 2012. - 111 с.- с.8 |
| R.İ. Şniper | İstehlak bazarı minimal tədavül xərcləri hesabına əmtəə-pul münasibətlərinin inkişafı əsasında əhalini mallarla təmin etmək məqsədi daşıyan mal tədavülünün ərazi sahəsidir. | Şniper R.İ. Экономические проблемы формирования региональных рынков / Новосибирск: ИЭиОПП СО РАН. 1990 |
| A.V. Zverev | İstehlak bazarı regional iqtisadi məkanın təşkili səviyyəsinə uyğun olaraq formalaşan və subyekt-obyekt münasibətlərinin xüsusiyyətləri, resurs məhdudluğu, tranzaksiyaların təmərküzləşmə və ixtisaslaşma səviyyəsi, inhisarçılıq dərəcəsi və rəqabət səviyyəsi ilə xarakterizə olunan milli bazarın altsistemidir. | Zverev A.V. Теоретические основы модернизации регионального потребительского рынка / А. В. Зверев, О. В. Фетисова // ФЭС: Финансы. Экономика. Стратегия. 2011,№ 3. - С. |
| Y.L.Aleksandrov N.N. Tereşenko | İstehlak bazarı sferası müasir şəraitdə aşağıdakı seqmentləri özündə cəmləşdirir:<br>• əmtəə bazarı, o cümlədən ərzaq və qeyri- ərzaq malları bazarlarını;<br>• istehlak xidmətləri bazarını;<br>• şəxsi daşınmaz əmlak bazarını. | Aleksandrov Y.L., Tereşenko N.N. Экономика товарного обращения. Учебник /Красноярский гос.ун-т.- Красноярск, 2000. 247 с. С. 30-31 |

Beləliklə, bəzi müəlliflər bazarı mal tədavülü sahəsi ilə eyniləşdirirlər; digərləri ona istehlak mallarının istehsalı və satışını müəyyən edən işgüzar əməliyyatların və şərtlərin məcmusu kimi baxırlar; üçüncülər istehsalla istehlak arasında iqtisadi əlaqələri əks etdirən mal-pul münasibətlərinin məcmusu kimi; dördüncülər bazarı mal tədavülü prosesini həyata keçirən alıcı və satıcılar arasında baş verən iqtisadi münasibətlər sistemi kimi qiymətləndirirlər.

Bizim fikrimizcə, istehlak bazarının fundamental izahı kimi "Şəhərin istehlak bazarı: mövcud vəziyyəti və perspektivləri" adlı kollektiv monoqrafiyanın müəllifləri tərəfindən verilmiş məntiqi əsaslandırılmasını göstərmək

daha məqsədəuyğundur. Onların fikrincə, istehlak bazarı mal və xidmətlərin istehsalı və ya satışını həyata keçirən təsərrüfat subyektləri ilə bu məhsulları şəxsi istifadə üçün əldə edən fərdi istehlakçılar arasında yaranan əmtəə-pul və təşkilati-iqtisadi münasibətlərin sistemidir [8, s. 7].

Bu kateqoriyaya aid bütün mövcud olan ifadələrə əsaslanaraq, biz *istehlak bazarı* dedikdə şəxsi istehlak tələbatlarının ödənilməsi məqsədilə malların istehsalı, bölgüsü, mübadiləsi və istehlakını şərtləndirən və bazar qanunları və prinsipləri əsasında qurulan, bir tərəfdən, mal və xidmətlərin istehsalçıları və satıcılarını, digər tərəfdən isə bu malların istehlakçıları və alıcılarını əlaqələndirən tranzaksiya münasibətləri sistemini nəzərdə tuturuq.

Bu baxımdan, istehlak bazarının regionun müasir iqtisadi sistemində rolu və əhəmiyyəti əhalinin mallar və xidmətlərə olan tələbinin ödənilməsindən ibarət olmaqla, tranzaksiyaların təmərküzləşmə və ixtisaslaşma dərəcəsi, inhisarçılıq və rəqabətin səviyyəsi, tələb və təklifin strukturu, istehlakçı üstünlüklərinin mövsümi tərəddüdləri, xarici və daxili ticarətin xüsusiyyətləri və nəhayət, istehsalçı, vasitəçi və istehlakçı arasında qarşılıqlı əlaqələrin xarakteri ilə şərtlənir. Bu isə öz növbəsində onu düşünməyə əsas verir ki, təmərküzləşmiş halda istehlak bazarı ölkə iqtisadiyyatında baş verən bir çox prosesləri əks etdirərək bütün təsərrüfat sisteminin effektivliyinin özünəməxsus indikatoru kimi çıxış edir.

İstehlak bazarının strukturu öz müxtəlifliyi ilə seçilir. Bildiyimiz kimi, istehlak bazarı üç əsas seqmentdən ibarətdir: pərakəndə ticarət, ictimai iaşə və məişət xidmətləri bazarından. Bir-birilə qarşılıqlı əlaqədə olarkən bu seqmentlər əhalinin tələbatlarının ödənilməsini təmin etməklə bütövlükdə iqtisadiyyatın uğurla inkişaf etdirilməsinə şərait yaradır [8, s.3].

Ticarət, ictimai iaşə və məişət xidmətləri göstərən müəssisə və təşkilatlar, həmçinin sonuncu istehlakçılar istehlak bazarının birbaşa iştirakçıları hesab olunurlar. Dövlət orqanları (inzibati resurlar və qanunlar vasitəsilə birbaşa iştirakçıların fəaliyyətini tənzimləyirlər), maliyyə-bank sektoru (zəruri maliyyə resursları ilə iştirakçıları təmin edir), yerli istehsalçılar və avadanlıq təchizatçıları birlikdə istehlak bazarının normal fəaliyyətini təmin edən iştirakçılardır [8, s.9].

Xüsusilə qeyd etmək istərdik ki, istehlak bazarında tələbin subyektləri və ya daşıyıcıları kimi istehlakçılar qismində bütün regionun əhalisi və onun ayrı-ayrı demoqrafik (gənclər, uşaqlar, yaşlı adamlar) və iqtisadi (əhalinin aztəminatlı və yüksəkgəlirli təbəqələri) qrupları, şəhər və kənd əhalisi çıxış edirlər.

İstehlak bazarının sosial-iqtisadi əhəmiyyəti 1-ci şəkildə təsvir edilmişdir.




**Şək. 1.** Bazarının ölkənin sosial-iqtisadi inkişafındakı rolu

İstehlak bazarının ölkənin sosial-iqtisadi inkişafındakı rolu onunla müəyyən olunur ki, qeyd edilən bazar təkrar istehsalın bütün fazalarına: istehsal, bölgü, mübadilə və istehlaka xidmət göstərməklə yanaşı tələblə təklifin tarazlaşdırılması mexanizmi əsasında təkrar istehsalın ayrı-ayrı subyektləri arasında iqtisadi münasibətləri tənzimləmiş olur.

İstehlak bazarının ölkənin pul tədavülü sistemində oynadığı rol əlamətdardır, belə ki, pul vəsaitlərinin əsas kütləsi məhz burada öz hərəkətinə başlayır. Bundan əlavə, istehlak bazarı müəyyən mal qrupları və növləri üzrə alıcı tələbinin həcmi, tələbin çeşid və keyfiyyət quruluşunda yarana biləcək dəyişikliklər, əhalinin yeni məhsullara olan tələbinin formalaşması və s. haqqında çox önəmli məlumat verir.

Müasir qloballaşma dövründə və bazar münasibətlərinin fəal inkişaf etdiyi bir vaxtda istehlak bazarı Azərbaycan iqtisadiyyatının iqtisadi cəhətdən ən uğurlu sahələrindən hesab olunur. Belə ki, statistik məlumatlara əsasən, 2015-ci ildə Azərbaycan Respublikasında istehlak bazarı 27 695,4 mln. man. təşkil etmişdir [2, s.117, 119]. Pərakəndə ticarət (25 721,1 mln. man.), ictimai iaşə (1 111,2 mln. man.) və əhaliyə göstərilən məişət xidmətləri (863,1 mln. man.) pərakəndə ticarətin aşkar üstünlüyü ilə (92,9%) istehlak bazarının tərkib elementləridir.

Aşağıdakı qrafikdən (şəkil 2) göründüyü kimi, pərakəndə ticarətin faktiki dövriyyəsi 2015-ci ildə 25,7 mlrd. manata bərabər olmuşdur ki, bu da 2014-cü ilin səviyyəsi ilə müqayisədə 1,2 dəfə, 2005-ci ilə nisbətən isə 5,7 dəfə artmışdır. Dinamikada ictimai iaşə və məişət xidmətləri dövriyyəsi təhlil dövründə müvafiq olaraq 1,2 və 1dəfə yüksəlmişdir.




**Şək. 2.** Pərakəndə ticarət, ictimai iaşə və məişət xidmətləri dövriyyəsinin fiziki həcm indekslərinin dinamikası

Qrafikdən göründüyü kimi, 2007-2008-ci illərdə ictimai iaşə dövriyyəsində müşahidə edilən rekord səviyyədə yüksəlişdən sonra 2009-2010-cu illərdə bu göstəricinin əhəmiyyətli dərəcədə enməsi izlənilir, bu hal müəyyən dərəcədə məişət xidmətləri dövriyyəsinə də təsir edərək onun indeksinin bu dövr ərzində düşməsinə gətirib çıxartmışdır. İctimai iaşə dövriyyəsinin indeksi 2011-ci ildən etibarən yenidən sürətli artım nümayiş etdirir, lakin sonrakı dövrlərdə qeyrisabit inkişaf edərək 2015-ci ildə ən aşağı həddə düşür. Nisbətən stabil inkişaf edən pərakəndə ticarət indeksidir.

İstehlak bazarının normal fəaliyyəti və gələcək inkişafı ölkə əhalisinin gəlirlərinin səviyyəsilə müəyyən olunur, eyni zamanda istehlak bazarının tutumu bilavasitə əhali gəlirlərinin həcminə mühüm təsir göstərir. Ölkə əhalisinin 2005-2015-ci illər ərzində pul gəlirlərinin bölgüsü 3-cü şəkildə göstərilmişdir.




**Şək. 3.** Əhalinin pul gəlirlərinin bölgüsü, %-lə

Təhlil etdiyimiz dövr ərzində ölkə əhalisinin pul gəlirlərinin xərclənməsində aşağıdakı əsas meyllər izlənilir: birincisi, son istehlak xərclərinin payı, yəni mal alışına sərf olunan pul kütləsinin həcmi daim yüksək səviyyədə qorunub saxlanılır, yalnız 2012-ci ildə bu istiqamətdə cüzi enmə izlənilir. İkincisi, 2009-cu ildən etibarən pul gəlirlərinin quruluşunda cari transfer ödənişlərin xüsusi çəkisi durmadan azalır və dövrün sonuna 9,4% təşkil edir. Üçüncüsü, ödənilən cari transferlərin azalması fonunda əhalinin sərəncamında olan pul vəsaitlərinin həcmi artaraq 2012-ci ildə ən yüksək həddə 24,5%-ə çatmışdır. Nəhayət, dördüncüsü, maliyyə aktivlərinin yığımı ilə yanaşı əhali əlində toplanmış nağd pul vəsaitlərini daşınmaz əmlaka yatırmağa maraq göstərmir, bunun da bir neçə səbəbi var, bir tərəfdən, bu vəsaitlər investisiya baxımından yetərli deyil, digər tərəfdən isə əhali daha çox bahalı uzunmüddətli istifadə mallarına: mebelin, avtomobilin alışına üstünlük verir və ya istirahət və səyahət məqsədilə toplayır.




**Şək. 4.** Əhalinin istehlak xərclərinin quruluşu (faizlə).

Son illər Azərbaycanda ev təsərrüfatlarında istehlak xərclərinin quruluşunun təhlili onu göstərdi ki, pul gəlirləri artdıqca əhali daha çox vəsaitlərini mal alışına və xidmətlərin ödənilməsinə sərf edir (şəkil 4). 2005-2008-ci illər ərzində istehlak xərclərinin strukturunda ərzaq mallarının alışına sərf olunan xərclərin payı 54,3%-dən 57,5%-ə qədər yüksəlmişdirsə, 2009-cu ildən etibarən bu xərclərin xüsusi çəkisi azalaraq 2015-ci ildə 41% təşkil etmişdir [3, s.178]. Ailə büdcəsindən ərzaq məhsullarının alınmasına ayrılan vəsaitlərin ildən ilə ardıcıl olaraq azalmasının ümumi fonunda qeyri-ərzaq mallarına çəkilən xərclər əhəmiyyətli dərəcədə artmamışdır və 2015-ci ildə ev təsərrüfatlarının istehlak xərclərinin ümumi həcmində 17,3% xüsusi çəkiyə malikdir. Xidmətlərə çəkilən xərclər isə ərzaq və qeyri-ərzaq mal alışını üstələyərək, 2005-2008-ci illərdə orta hesabla 31% artım tempi nümayiş etdirirdisə, 2010-2012-ci illər ərzində 37,9% yüksəlmiş, sonuncu dövr üçün 2013-2015-ci illərdə daha da sürətlənərək 41,3% təşkil etmişdir.

Hər bir ölkədə istehlak bazarının mövcud vəziyyətinin başlıca göstəricisi kimi ümumi qiymət səviyyəsinin artımında özünü göstərən inflyasiya həddi hesab edilir. Dünya təcrübəsində inflyasiya səviyyəsinin ümumi göstəricisi kimi istehlak qiymətləri indeksi qəbul edilir ki, onun vasitəsilə bütövlükdə istehlak bazarında və onun ayrı-ayrı seqmentlərində inflyasiya səviyyəsini qiymətləndirmək mümkündür. Azərbaycan Respublikasında ötən illər ərzində istehlak qiymətləri indeksi və mal qrupları üzrə dövriyyənin dinamikası aşağıdakı qrafikdə verilmişdir [1, s.19; 3, s. 418].




**Şək. 5.** Mal qrupları üzrə dövriyyənin və istehlak qiymətləri indeksinin dinamikası (ötən ilə nisbətən artım %-lə)

Qrafikdən aydın görünür ki, 2005-2008-ci illərdə müşahidə edilən qiymət artımı tendensiyası (bu dövrdə ortaillik artım tempi 13,9 % təşkil edir) 2009-cu ildə indeksin kəskin tənəzzülü ilə nəticələnir, bu da qeyri-ərzaq malları üzrə dövriyyənin artımının ləngiməsinə gətirib çıxarır. Belə ki, 2009-cu ildə qeyri-ərzaq malları üzrə dövriyyənin ləngiməsi qeyd olunur (ortaillik artım 2008-ci ildəki 30,7%-ə qarşı müvafiq olaraq 4,7% təşkil edir). Gələcəkdə qeyri-ərzaq malları üzrə dövriyyənin qabaqlayıcı artım tendensiyası davam edərək 2010-2013-cü illərdə ortaillik artım tempi 20,9% çatdırılır, halbuki ərzaq malları üzrə artım 3,6% səviyyəsində qeyd olunur. 2012-ci ildə istehlak mallarına olan qiymət səviyyəsinin azalması prosesi yenidən bərpa olunur. Bir tərəfdən qiymət artımının yavaşlaması, digər tərəfdən isə əhalinin real gəlirlərinin artması həm pərakəndə ticarət dövriyyəsinin artımını, həm də onun strukturunda müsbət dəyişikliklərin yaranmasını şərtləndirmişdir.

Beləliklə, Azərbaycanda istehlak bazarının müasir vəziyyəti və inkişafı istiqamətində aparılmış tədqiqat nəticəsində məlum olmuşdur ki, 2005-2015-ci illəri əhatə etmiş dövr ərzində ölkədə qiymətlərin sabitliyi, bazarın nisbi balanslaşdırılması, satış həcminin sürətli artımı və digər xüsusiyyətlərilə seçilən əlverişli bazar konyunkturuna keçid tədricən həyata keçirilmişdir ki, bunun nəticəsində biznesin yüksək gəlirlilik dərəcəsinə nail olmaq istəyən sahibkarlar üçün istehlak bazarının cəlbediciliyi xeyli yüksəlmiş oldu.

**Ədəbiyyat:**


1. Azərbaycanda ticarət. Statistik məcmuə. Bakı. 2016
2. Azərbaycan rəqəmlərdə. Bakı. 2016
3. Azərbaycanın Statistik Göstəriciləri. Bakı, 2016
4. Долан Э.Дж., Линдсей Д. Рынок: микроэкономическая модель. Пер. с англ. В. Лукашевича и др. С-Пб. 1992
5. Котлер Ф. Основы маркетинга: Пер. с англ. - М.: «Ростинтэр», 1996
6. Макконнелл К.Р., Брю С.А. Экономикс: Принципы, проблемы и политика. В 2 т.: Пер. с англ. Т I. - Баку: Издательство "Азербайджан". 1992
7. Пиндайк Р., Рубинфельд Д. Микроэкономика / Науч. ред. В.Г. Борисович и др. - М.: Экономика, Дело, 1992
8. Потребительский рынок города: состояние и перспективы [Текст]: монография / кол. авт. под рук. Т. В. Усковой. - Вологда, 2012
9. Хайман Д.Н. Современная микроэкономика: анализ и применение. В 2-х т. Т 1. Пер. с англ. - М.: Финансы и статистика. 1992
10. Хоскинг А. Курс предпринимательства: Практ. пособие: Пер. с англ. М.: Международные отношения, 1993.

# MATHEMATICS

**UOT 51**

## ИНФОРМАТИКА FƏNNİNİN RİYAZİYYATLA ƏLAQƏLİ TƏDRİSİNDƏ C++ PROQRAMLAŞDIRMA DİLİNİN ELEMENTLƏRİNDƏN İSTİFADƏ EDİLMƏSİ

**Rəna HACIYEVA**
"Western Caspian" Universiteti
İnformasiya texnologiyaları və maşınlar kafedrası

rena_gajieva@yahoo.com

**Rəmzi HACIYEV**
Bakı Dövlət Universiteti
İnformasiya texnologiyaları və proqramlaşdırma kafedrası

haciyevramzi@gmail.com

### XÜLASƏ

Məqalədə İnformatika fənninin tədrisində mühüm məsələlərdən biri digər elmlərin əsaslarına daha dərindən yiyələnmək üçün tələbələri informatikanın mahiyyətini açan fundamental biliklər və praktiki vərdişlərlə silahlandırmaqdan ibarət olduğu göstərilmişdir. Bu baxımdan informatika fənninin digər fənlərlə əlaqəli tədrisi aktual olaraq digər elmlərin əsaslarına dərindən yiyələnmək üçün əlverişli zəmin yaradan vasitələrdən biri hesab edilməlidir. İnformatika fənninin riyaziyyatla əlaqəli tədrisinin daha geniş imkanlara malik olduğunu inkar etmək mümkün deyildir.

**Açar sözlər:** fənlərarası əlaqə, tədris metodikası, müəyyən inteqral, fərdi funksiyalar, inteqral, təqribi hesablama.

## USING ELEMENTS OF C++ PROGRAMMING LANGUAGE IN TEACHING INFORMATICS WITH MATHEMATICS

### SUMMARY

One of the important issues in the teaching of computer science in the article is that interdisciplinary ties should equip students with fundamental knowledge and practical skills that reveal the essence of computer science and,

in parallel, even more to learn about the basics of other sciences. In this regard, the subject of informatics should be considered as one of the most effective tools for the profound mastery of the foundations of other sciences. It can not be denied that the curriculum of informatics and mathematics has very great opportunities in this direction.

**Keywords:** intersubject connection, definite integral, individual function, integral, approximate calculation

## МЕЖПРЕДМЕТНАЯ СВЯЗЬ В МЕТОДИКЕ ПРЕПОДАВАНИЯ ИНФОРМАТИКИ И МАТЕМАТИКИ С ИСПОЛЬЗОВАНИЕМ ЭЛЕМЕНТОВ ЯЗЫКА ПРОГРАММИРОВАНИЯ C$^{++}$

### РЕЗЮМЕ

Одним из важных вопросов в преподавании информатики в статье является то, что межпредметные связи должны вооружить студентов фундаментальными знаниями и практическими навыками, которые раскрывают суть информатики и параллельно еще больше узнать об основах других наук. В этой связи предмет информатики следует рассматривать как один из наиболее эффективных инструментов для глубокого освоения основ других наук. Нельзя отрицать, что учебная программа информатики и математики имеет очень большие возможности в этом направлении.

**Ключевые слова:** *межпредметная связь, определенный интеграл, индивидуальная функция, интеграл, приблизительное вычисление*

İnformatika fənninin tədrisində riyaziyyat fənni ilə sistemli olaraq əlaqənin yaradılması məqsədi ilə riyaziyyat fənninin proqramları təhlil edilməli və əlaqə üçün daha məqsədəuyğun mövzular seçilməlidir. Bir məqalədə yaradılan bütün əlaqələri araşdırmaq mümkün olmadığı üçün informatika fənni üzrə «Fərdi funksiyalar» mövzusu, riyaziyyat fənnindən isə «Müəyyən inteqral. İnteqralların hesablanması» mövzusu seçilmişdir. Hər iki mövzu əlaqəni ətraflı izah etmək üçün geniş imkanlara malikdir [4, səh.42-46].

Hesab edirik ki, tələbələrə əvvəlki dərslərdə standart olmayan – fərdi funksiyalar mexanizmi haqqında başlanğıc nəzəri məlumatlat verilmiş və fərdi funksiyaların tətbiqi sadə misallarla praktik olaraq nümayiş etdirilmişdir. Əlaqənin yaradılmasında əsas məqsəd fərdi funksiyalar mövzusunu daha geniş izah etmək və fərdi funksiyalardan istifadə edərək kompüterdə inteqralların təqribi hesablanması üçün tələbələrə zəruri biliklərin verilməsindən, praktik vərdişlərin aşılanması və riyaziyyat fənnindən inteqralların təqribi hesablanması ilə bağlı alınan biliklərin daha da dərinləşdirilməsindən ibarətdir [4, səh.296-307].

Mövzular arasında əlaqənin effektiv təşkili, vaxtdan səmərəli istifadə etmək məqsədi ilə tələbələrə əvvəlcədən trapesiyalar üsulunun təkrarı və əsas hesablama düsturlarının araşdırılması tapşırılır. İnformatika fənni üzrə müəllim inteqralın trapesiyalar üsulu ilə hesablanması üçün məlum düsturdan hazır formada istifadə edir.

$$S=\int_a^b f(x)dx \approx \frac{b-a}{n}\left[\frac{1}{2}f(x_0)+f(x_1)+f(x_2)+\ldots+f(x_{n-1})+\frac{1}{2}f(x_n)\right];$$

hesablamanı sadələşdirmək məqsədi ilə

$h=\dfrac{b-a}{n}$, $x_i=a+ih$, $f_i=f(x_i)$ olduğunu nəzərə alaraq

$t=\dfrac{1}{2}(f_0+f_n)=\dfrac{1}{2}(f(a)+f(b))$, $r=f_1+\ldots+f_{n-1}$ qəbul etsək, onda

$S=\int_a^b f(x)dx \approx h(r+t);$ ifadəsini alarıq. Məlumdur ki, n -[a,b] parçasının bölündüyü eyni uzunluqlu hissələrin sayıdır (Şəkil 1.) [7, səh.21-24].




**Şək. 1.**

Məsləhət görülür ki, Nyuton-Leybnis düsturu vasitəsilə qiyməti dəqiq hesablana bilən sadə bir inteqral təqribi hesablansın.

**Мисал.** $\int_0^9 x^2 dx;$ inteqralını trapesiyalar üsulu ulə təqribi hesablayın.

Fərdi funksiyalar mexanizmi haqqında tələbələrə artıq məlum olan nəzəri məlumatlara və praktiki vərdişlərə əsaslanaraq, həm də yuxarıda göstərdiyimiz hesablama düsturlarından istifadə edərək verilmiş məsələni kompüterdə həll etmək üçün aşağıdakı proqramı hal hazırda müasir $C^{++}$ proqramlaşdırma dilində tərtib edirik [2, səh.84-85, səh.135-137]:

```
// Variant 1
#include  <iostream>
#include  <iomanip>
using namespace std;
// inteqralın qiymətini təqribi hesablayan funksiya
float Inteqral(float a,float b,int n)
{float h,fi,xi,r,t;
int i;
r=0;h=(b-a)/n;
for(i=1;i<=n-1;i++)
{xi=a+i*h;
fi=xi*xi;
r=r+fi;
}t=0.5*(f(a)+f(b));
return h*(r+t);
}
// əsas funksiya
int main()
{int n; float s;
cin>>n;
s=Inteqral(0,9,n);
cout<<fixed<<setprecision(10)<<"Inteqralın qiyməti ="<<s<<"
"<<"n="<<n;
return 0;
}
```

n-in müxtəlif qiymətləri üçün hesablamanın nəticələrini göstərək:

*Inteqralın qiyməti =243.0121765137 n=100*
*Inteqralın qiyməti =243.0004272461 n=500*
*Inteqralın qiyməti =243.0000457764 n=1000*
*Inteqralın qiyməti =243.0000000000 n=20000*

Beləliklə, [a,b] parçasının bölündüyü bərabər hissələrin sayı (n) artdıqca hesablama dəqiqliyinin artdığı nümayiş etdirilir [7, səh.42-46].

Aydındır ki, bu inteqralı Nyuton - Leybnis düsturu ilə hesabladıqda onun dəqiq qiyməti 243 alınır. Bu isə inteqralın qiymətinin trapesiyalar üsulu ilə təqribi hesablandığını əyani təsvir edir. Bu proqramdan istifadə edərək inteqralın həndəsi mənasının daha yaxşı başa düşülməsinə nail olmaq mümkündür. Məsələn, [0,9] parçası əvəzində ardıcıl [0,3], [0,6], [5,8] götürərək proqramı yerinə yetirsək hesablanan sahələrin əvvəlki sahədən az olduğunu görərik. Aydındır ki, bu zaman əsas proqram blokunda fərdi funksiyaya müraciət də uyğun olaraq dəyişilməlidir.

S=İnteqral(0,3,n); S=İnteqral(0,6,n); S=İnteqral(5,8,n);

Tələbələrə Nyuton-Leybnis düsturu ilə bu inteqralların hesablanması və alınan nəticələrin proqramlarının yerinə yetirilməsindən alınan təqribi nəticələrlə müqayisə edilməsini təklif etmək faydalı olar. İzah edilən materialın lazımi səviyyədə mənimsənilməsinə əmin olduqdan sonra fərdi funksiyadan istifadə imkanını tədricən genişləndiririk. Bu məqsədlə inteqralaltı $f(x)=x^2$ funksiyasının özünü də fərdi funksiya kimi təyin edirik [2, səh.143-145]. Göstərilən imkan proqramın növbəti variantında nümayiş etdirilir.

```
// Variant 2
#include  <iostream>
#include  <iomanip>
using namespace std;
// Inteqralalti funksiya
float f(float x)
{return x*x;
}
// inteqralın qiymətini təqribi hesablayan funksiya
float Inteqral(float a,float b,int n)
{float h,fi,xi,r,t;
int i;
r=0;h=(b-a)/n;
for(i=1;i<=n-1;i++)
{xi=a+i*h;
fi=f(xi);
r=r+fi;
}t=0.5*(f(a)+f(b));
return h*(r+t);
}
// əsas funksiya
int main()
{int n; float s;
cin>>n;
```

```
s=Inteqral(0,9,n);
cout<<fixed<<setprecision(10)<<"Inteqralin qiymeti="<<s<<"
"<<"n="<<n;
return 0;
}
```

Proqramın bu variantını da kompüterdə yerinə yetirərək əvvəlki variantla (variant 1) tamamilə eyni nəticənin alındığını göstəririk.

Göründüyü kimi, bu variant daha universaldır. Belə ki, inteqralaltı funksiyanı başqa funksiya ilə əvəz edərək bu proqram vasitəsilə bizi maraqlandıran istənilən inteqralı təqribi hesablamaq imkanı əldə edirik.

Məsələn, $\int_0^4 \frac{1}{1+\sqrt{x}}dx$; inteqralının hesablanması üçün tərtib etdiyimiz proqramdakı

```
float f(float x)
{return x*x;
}
```

Funksiyası

```
float f(float x)
{return 1/(1+sqrt(x));
}
```

ilə əvəz edilir və proqramın başlığına #include <cmath> daxil olunur. Əsas funksiyadakı müraciət isə s=Inteqral(0,4,n); operatoru ilə əvəz edilir və çox asanlıqla verilən yeni inteqralın təqribi hesablanmasına nail oluruq.

İnteqralların müəyyən ε dəqiqliyi ilə təqribi hesablanması mexanizmi də göstərilə bilər. Fərdi funksiya mexanizmi belə hesablamaların aparılmasını çox asanlıqla həyata keçirməyə imkan verir. Belə ki, inteqralın **n** və **2n** sayda nöqtə üçün hesablanmış qiymətlərini uyğun olaraq $S_n$ və $S_{2n}$ kimi işarə etsək, $| S_{2n} - S_n | \leq \varepsilon$ şərti ödəndikdə $S_{2n}$ verilmiş inteqralın ε dəqiqliyi ilə hesablanmış qiyməti kimi qəbul olunur. Şərt ödənmədikdə yenidən parçanın bölündüyü hissələrin sayı 2 dəfə artırılır, $S_n$-in qiyməti $S_{2n}$–in qiyməti ilə əvəz edilir, $S_{2n}$ yenidən hesablanır, qoyulan şərt yoxlanılır və s [7, səh.23-24].

Belə nəticəyə gələ bilərik ki, təqdim olunan metodika ilə informatikanın “Fərdi funksiyalar” mövzusunun riyaziyyat fənnindən “Müəyyən inteqral. İnteqralların hesablanması” mövzusu ilə əlaqəsini yaradarkən həm seçilmiş mövzu tam açılmış olur, həm də tələbələr kompüterdə inteqralların təqribi hesablanması üçün zəruri məlumatlar əldə edir və praktik vərdişlər mənimsəyirlər [5, səh.15-18].

"Patriarxat nəzəriyyəsi"nin atası Platon hesab olunur. Onun insan təbiətinə xas dövlətin ilk hüceyrəsi kimi çıxış edən patriarxat nəzəriyyəsini Aristotel inkişaf etdirirdi. Patriarxat quruluş Orta əsrlərdə və maarifçilik dövründə şəriksiz hökmranlıq edirdi.

Qrup nikahı anlayışı isə hələ Herodotun "Tarix" əsərində - qrup nikahlarının bir çox xalqlara məxsus bir adət və bu adətə görə arvadların ümumi sayılması qeyd olunurdu.

İ.Bahoven özünün heterizm konsepsiyasını işləmişdir. Bu konsepsiyaya əsasən bütün xalqlar bu mərhələdən keçərək hazırki ailə və nikah anlayışlarına qədər yol qət etmişlər. Heterizm də qrup nikahı ilə bağlıdır. Bu nikah formalarında bir kişiyə bağlı olan qadın başqa bir kişi ilə cinsi əlaqəyə girə bilərdi. Hətta qonaqpərvər heterizm anlayışı da mövcud idi ki, bu nikahlarda qadın əriylə eyni yaş qrupuna, eyni nəslə aid olan qonaqla cinsi əlaqədə ola bilərdi. Daha doğrusu, qonağa ev yiyəsinin arvadı ilə cinsi əlaqədə olmaq hüququ verilirdi. Bütün bunlar Bahovenə görə qadının cəmiyyətdəki yüksək mövqeyi və analıq hüququna - ginekokratiyaya əsaslanırdı. Ailənin tarixi inkişafı və matriarxat ideyaları C.Lebbok, İ.Koler, M.Kovelevski, L.Ştrenberq, L.Morqan və F.Engelsin əsərlərində öz əksini tapmışdır.

Tədqiqatçılar belə bir fikrə gəliblər ki, nəsil anlayışının ilkin forması müşahidə olunan ikili ittifaqların kollektiv təsərrüfata, ekzoqam və endoqam nikah formalarına söykənən ana nəslidir. Onlar L.Morqan və F.Engelsin ardınca ailə münasibətlərinin ana nəslindən ata nəslinə keçməsi və monoqam nikahların

yaranması ilə əlaqədar dəyişkənliyin əsas səbəbi kimi kollektiv mülkiyyətin dağılması, xüsusi mülkiyyət və vərəsəliyin yaranmasını göstərirlər.

Evolyusionist yanaşma ekzoqam ana xəttiylə əvəzlənən ilkin promiskuitet nəzəriyyəsindən irəli gəlir. Sonralar ekzoqam nəsil nəzəriyyəsi ikili nəsil təşkilatı anlayışı ilə tamamlanır. Bu təşkilat iki ana xətti ilə birləşən tayfa və fratriyaların birliklərindən yaranır. Hesab olunurdu ki, nəsil iki hissədən – fratriyadan, ibarət idi ki, bunların hər birində qadın və kişilər bir-biri ilə nikaha daxil ola bilməzdilər. Bunun üçün onlar özlərinə həyat yoldaşlarını nəslin digər hissəsindən tapmalı idilər.

P.A.Sorokin evolyusionist yanaşmanın əsas vəziyyətlərini göstərir:

1) demək olar ki, bütün tədqiq olunmuş xalqlarda ana nəslinə əsaslanan qohumluq, ata nəslinə əsaslanan qohumluğa nisbətən daha əvvəldir;
2) müvəqqəti monoqam münasibətlərlə yanaşı, cinsi münasibətlərin ilkin mərhələsi üçün nikahda geniş azadlıq hökm sürür;
3) nikahın təkamülü tədricən cinsi həyatın azadlığının məhdudlaşdırılmasına gətirirdi;
4) nikahın təkamülü qrup nikahlarından fərdi nikahlara keçidlə nəticələnirdi (8, s.56-66.).

Evolyusionizmə əsasən, ailə münasibətləri proqressiv istiqamətdə inkişaf edir: ən aşağı formalardan ən yüksək formalara qədər. Bu halda onun ailə həyatı və qohumluq sistemində sosial şərtiliyi, tarixi müəyyənləşməsi və reprezentivliyi qeyd olunur. Bununla əlaqədar olaraq rus sosioloqu A.İ.Antonov bu cür yanaşmanı ailə dəyişməzliyi konsepsiyası adlandırır, çünki onun mahiyyəti ora gəlib çıxır ki, insanlar hər zaman nikaha daxil olacaq, övladlar dünyaya gətirəcəklər və bununla da ailə və qohumluq münasibətlərində iştirak edəcəklər.

İsveçrə psixoloqu Adolf Quqqenbül-Kreyq nikaha arxetipik başlanğıcın təzahürü kimi baxır. Nikaha xas olan sosial və şəxsi problemlərinə görə onu daha fundamental hesab edir (4, s.34-35).

Evolyusionist yanaşma çərçivəsində ailə-nikah münasibətlərinin cəmiyyət və mədəniyyətin "tənəzzülü"ndən bəhs edən başqa bir nəzər nöqtəsi mövcuddur. Onun tərəfdarları ailə münasibətlərinin inkişafında neqativ tendensiyaları vurğulayırlar: valideyn və övlad, ər-arvad ittifaqının və ailə təsərrüfatının zəifləməsi.

A.İ.Antonov hesab edir ki, iki elmi paradiqmanın mövcudluğu faktı - "liberal-tərəqqipərvər" köhnə, ənənəvi ailə münasibətlərinin qırıqları üzərində yeni alternativ ailə strukturlarının yaranmasını iddia edən və "mühafizəkar-böhranlı"- ailə həyat tərzinin yox olması təhlükəsinin mövcudluğu və bununla əlaqədar olaraq, ailə təkamülü çərçivəsində ailə əsaslarının möhkəmləndirilməsi qaçılmazdır (1, s.154).

Funksional yanaşma. Funksional yanaşmaya əsasən, ailə münasibətləri sosiomədəni funksiyalarla şərtlənmiş nikah, qohumluq və valideynlik sosiomədəni rollar üzərində qurulmuş ailə həyat tərzi və ailədən törəmədir.

Ailənin öyrənilməsinə struktur-funksional yanaşma istiqamətinin banisi E.Dürkheym, elmi axtarış səylərini ailənin birləşməsi mexanizmləri, ailə həyatında hər bir ailə üzvünün boşanma və intiharlara qarşılıqlı əlaqəsi üzərində cəmləşdirmişdir. O, urbanizasiyanın təsiri altında bir sıra ailə funksiyalarının dəyişilməsi və ya itməsi məsələsinə diqqət yönəltmişdir.

Funksionalizm nikah münasibətlərini yalnız hamiləlik və uşaq dünyaya gələndən sonra tanıyır. Ailənin tarixi formalarındakı dəyişiklik, ekzoqamiyanın yaranması insest (yaxın qohumlar arasında cinsi əlaqəyə qadağa) qadağasından irəli gəlir. E.Vestermarka görə tabu ailə münasibətlərinin funksional inteqrasiyası vasitəsi kimi görülürdü. E.Dürkheymə görə nikahın könüllülük prinsipi (valideynlərin sözləşməsi əvəzinə) onun qeyri-stabilliyinə, müasir ailələrin sayının azalması isə ailə həmrəyliyinə təsir edir.

Funksional yanaşmada ailə funksiyalarının digər sosial institutlara tarixi keçidinin analizinə daha çox diqqət yetirilir. Sosiomədəni təlimatlara əsaslanan ailə fenomenindən, şəxsiyyətlərarası münasibətlərə söykənən ailəyə keçid ilk dəfə U.Oqbornun adı ilə bağlanılır. E.Bördcessin terminlogiyasında bu "ailə institutu"ndan "ailə yoldaşlığına" (və ya evlilik-əməkdaşlığına) keçid kimi ifadə olunub. Rus sosioloqu İ.Antonov bu terminologiyanı nikahın qurulması və qorunmasının aparıcı motivlərinin yenidənqurması kimi izah edir.

Evolyusionist yanaşmadan fərqli olaraq, funksional yanaşmada dar mənada - ailədaxili münasibətlərdə, geniş mənada-ictimai münasibətlər kontekstində məsuliyyət problemi əsas məqam kimi çıxış edir. Məsuliyyət hissinin ölçüsü ailə münasibətləri dinamikasını yaratmağa qadirdir.

Etoloji yanaşma. (Etologiya – təbii yaşama mühitində heyvanların davranışını öyrənən və onu insanın davranışıyla müqayisə edən elmdir) Bu istiqamətin mənbələri Ç.Darvinin 1873- cü ildə Rusiyada ilk dəfə tərcümə edilmiş "İnsanın mənşəyi və cinsiyyət seçimi" adlı kitabının meydana gəlməsinə bağlamaq lazımdır.

Bu yanaşmanın nümayəndələri əsasən müqayisəli etologiya metodu vasitəsilə insanın rudimentar sövqi-təbii davranışının əsaslarının gizli məqamlarını aydınlaşdırırlar. Etoloji yanaşmanın tərəfdarları promiskuiteti nikahın ilkin forması kimi inkar edirlər. Çünki promiskuitet uşaqların valideynə sahib olmaq, böyüklərin isə valideyn olmaq sövqi-təbiiliyinə ziddir (5, s.219 ).

Etoloji yanaşmaya əsasən bəşəriyyət nikah münasibətlərinin 4 forması ilə üzləşib: qrup halında nikah, poliginiya (bir kişi və bir neçə qadın), poliandriya (bir qadın və bir neçə kişi) və monoqamiya (bir qadın və bir kişi); sonuncu iki formalı olur - ömürlük və ya boşanma ehtimalına yol verən. Etoloqlar ailə-nikah münasibətlərinin bütün sadalanan formalarının təbii xarakterini və onların dəyişkənliyini təsdiq edirlər. Ailə-nikah münasibətlərinin bioloji nöqteyi-nəzərdən müxtəlifliyi təəccüblü faktdır, belə ki, nikah sistemi növ əlamətidir və sabitdir.

Etoloji yanaşmanın qeyri-adiliyi onun tərəfdarlarının insanın əcdadlarının

monoqamiya şəklində yaşaması fərziyyəsindən ibarətdir. Onlar iddia edirlər ki, təkamül nəticəsində inkişafın hansısa mərhələsində əcdadlarımız qrup nikahlara tərəf yönəliblər. Monoqam və qrup nikahların mövcudluğu proqramı uzunmüddətli idi. Sonrakı vaxtlarda həyat şəraitindəki dəyişikliklər insanlara asanlıqla nikahın başqa formalarına keçə bilməsinə şərait yaratdı. Məsələn, Avropada əkinçilərə monoqam nikah, köçəri maldarlara isə daha çox poliginiya uyğun gəlirdi.

Etoloji yanaşma çərçivəsində təyin edilmişdir ki, monoqamiya təbii seçim nöqteyi nəzərindən ideal deyil. Cinslərin nikah davranışının bioloji motivlərində kəskin fərq meydana çıxıb, nikah münasibətləri dövründə hökmranlığın inversiyası, insanın hiperseksuallığının çoxluğu aşkar edildi.

Bioloji təkamülün ən qızğın vaxtında informasiyanın genetik yolla deyil, genetikadan kənar ötürülən, sosiallaşmağa ehtiyac duyulan yolla baş verməsi fikri irəli sürüldüyündən insan təbii seçimin təsiri altından çıxdı.

Empirik yanaşma. Empirik (təcrübi) yanaşmaya əsasən, ailə özünün yaranma, inkişaf və dağılma mərhələlərindən ibarət kiçik sosial qrupdur. Ailə münasibətləri ailə üzvlərinin yaxınlığı, onların ehtiyacları və maraqları üzərində qurulur.

Empirik yanaşmanın banisi F.Le Ple hesab olunur. O, hesab edirdi ki, ailənin kortəbii stabilliyi nəsillərin həmrəyliyə və birliyə meylliliyi ilə bağlıdır. Tədqiqatın empirik metodu ilə bağlı Le Ple ailə büdcəsinin ailədaxili fəaliyyətin müxtəlifliyinin miqdar ifadəsi və ailənin mikro mühiti, uşaqların tərbiyəsi ilə bağlı ailədaxili münasibətlərin struktur dəyişikliyinin geniş analizini aparmışdır (9, s.74).

Le Ple ailədaxili münasibətlərin sənayeləşmə və şəhərləşmənin basqısı altında qalan qeyri-stabil xarakterini vurğulayır. Bu da valideyn və övladların ayrı yaşayışı, atanın nüfuzunun zəifləməsilə bağlıdır.

Ssientist yanaşma: Ssientizm (latınca scientia elm sözündəndir) təbiət elmlərinin elmin bütün sahələrində tətbiqini, bilik və dünyəvi təsəvvürün mənbəyi kimi təsvir edən bir cərəyandır. Ssientizm bu üsulların pozitivlik anlamından irəli gəlir və ona görə də çox zaman pozitivizmin ekstrem vəziyyəti ilə eyniləşdirilir. Ssientist yanaşmada ailə münasibətləri cəmiyyətlə şəxsiyyətlərarası münasibətlər kontekstində tədqiq olunur. Bu yanaşmanın tərəfdarları və yaradıcıları sırasına U.Ceyms, Ç.Kuli, U.Tomas, F.Zanetskiy, J.Piaje, Z.Freyd və digərləri hesab olunurlar.

Şəxsiyyətlərarası münasibətlər, Mən və Başqası, yaxın münasibətlərin əhəmiyyətli xarakteri, ailə "şəxsiyyətlərarası münasibətlərin birliyi" kimi - bütün bu sadalananlar ssientist nəzəriyyələrin sosial-psixoloji istiqamətinə yanaşmanın əsas məqamlarıdır.

Ailə münasibətlərinin psixologiyasının öyrənilməsi tarixinə sadalanan yanaşmalardan savayı digər yanaşmalar da mövcuddur.

Ailənin tədqiq olunması konsepsiyaları və nəzəri sxemlərin analizinə ən

böyük töhfəni amerikan sosioloqu R.Xill vermişdir (10, s.34). Onun fikrincə, ailənin öyrənilməsində 5 mühüm yanaşmalar aşağıdakılardır:

1) İnstitusional-tarixi yanaşma (evolyusionizm);
2) Struktur-funksional yanaşma;
3) İnteraksionist-rol təhlili, simvolik interaksionizm;
4) Situasion-psixoloji yanaşma;
5) Divelopmentalist yanaşma (ailənin həyat siklinin inkişafına əsaslanan).

İlk iki yanaşma ailənin cəmiyyətdəki rolu və funksiyasına, eyni zamanda dinamikasına, ailələrin strukturu və onların sosial nəticələrinə köklənib. Üç son yanaşma isə şəxsiyyətin və qrupların sosial davranış nəzəriyyəsinə yönəldilib.

Münasibətlərdəki problemlər digər əhəmiyyətlilər kimi uzun zamandır ki, psixoloqların diqqətini cəlb edib.

Şəxsiyyətin psixologiyasının klassiki sayılan U.Cems güman edirdi ki, insan onu qəbul edən, onun haqqında hər hansı bir təsəvvürə malik olan nə qədər fərdlər varsa, bir o qədər də sosial "Mən"ə malikdir.

Sosioloq Ç.Kuli isə "güzgülü Mən"i ideyasını irəli sürürdü. İdeyanın mahiyyəti ondan ibarətdir ki, güzgüdə əks olunma fiziki "Mən" in obrazını verdiyi kimi, mənim davranışıma və xarici görünüşümə başqa insanların reaksiyalarının qavranılması sosial "mən"in obrazını verir. Sosial güzgü rolunu, birinci növbədə, valideynlər, yaxın və uzaq qohumlar, dostlar həmyaşıdlar, müəllimlər və fərdin bilavasitə ətrafındakı başqa şəxslər yerinə yetirir. Şəxsiyyət inkişaf etdikcə referent qrupun seçilməsi zamanı daha ciddi olur və ona təsir edən nümunələrin seçkisini həyata keçirir. İnsan həmişə bəzi rəylərə çox, başqalarına isə az fikir verir. O hətta öz davranışı barədə bəzi rəyləri və reaksiyaları, ümumiyyətlə, saymaya bilər. Bu zaman fikirlərin (rəylərin) və ya təhrif edilmiş güzgünün səhv şərhi ehtimalı vardır.

A.A.Brudnıy bu haqda yazır: "Ünsiyyət zamanı insan öz fərdiliyini anlayır və şəxsiyyət kimi özünü dərk edir. Əlbəttə, insan ilk növbədə qarşısındakına güzgüyə baxdığı kimi baxır, ancaq o özü də başqaları üçün güzgü olur. Onlar, hətta, onun fiziki yoxluğu zamanı şüurunda izlər buraxır, daxilində məskən salır. İnsanın tale bağı olan yaxınları və qohumları (ilk növbədə valideynlər) onun daxili dünyasına daxil olurlar" (3, s.50).

H.Xaymen tərəfindən fərdin qrupu qeyd etmək üçün özünü və ətrafdakıları qiymətləndirmə zamanı istinad nöqtəsi kimi istifadə etdiyi "referent qrup" anlayışını dövriyyəyə gətirilib (11). Fərdə önəmliliyi baxımından referent qrupa ailəni də aid etmək mümkündür. İnsan çox vaxt cəmiyyətdə ailə normalarına istinad edərək özünü aparır, bu normalar onun vicdanını formalaşdırır.

H.Lotse iddia edirdi ki, insan daxili dünyasına müraciət edərkən ümumbəşəri həqiqətləri, bu və ya digər hadisələrin öhdəsindən gəlmə təcrübəsi və hadisələrə önəm verən məqsədə inam aşkar edir. Əhəmiyyətlərin psixoloji ölçü cihazı əxlaq hissləridir. Onlar arasında ən mərkəzi yeri isə vicdan tutur.

Cemsin "sosial Mən"i, Ç.Kulinin "güzgülü Mən"i, C.Midin "ümumiləş-

miş başqası", Xaymanın "referent qrup"u insanın eyniliyə nail olmasında digər insanların rolunun psixoloji öyrənilməsinin mərhələləridir. Bu prosesdə iştirak edənlər insanın həyatında ən önəmli rolları oynayırlar, onlar başqaları ilə əhəmiyyətlidirlər. Bu çevrəyə ilk növbədə fərdin ailə üzvləri daxil olur.

B.Bratus şəxsiyyətin strukturunda bir neçə mərhələni qeyd edir. Şəxsiyyətin xarakteristikasının iyerarxiyası əsasında onun özünə, başqa insana, başqa insanlara olan münasibəti durur (2, s.13).

I mərhələ - eqosentrik, bu mərhələ öz şəxsi rahatlığı, mənfəəti və şəxsiyyət kimi özünüqiymətləndirmə ilə təyin edilir.

II mərhələ - qrupsentrik, bu mərhələdə insan özünü hər hansı bir qrupdakı insanla eyniləşdirir və onun insanlara qarşı münasibəti onların eyni qrupa aid olub-olmaması ilə ölçülür.

II mərhələ - prososial, digərlərinin xeyrinə yönəlməklə xarakterizə olunur. Yəni, şəxsiyyətə önəm ümumi prinsip əsasında qurulur.

IV mərhələ - mənəvi, özünün qutsal istiqaməti ilə xarakterizə olunur.

Qeyd olunan "ailə" və "nikah" alayışlarına bütün yanaşmalarda müxtəliflik olsa da, bütün bu yanaşmalarda ortaq mərkəzi yeri iki fərdin ittifaqı olan nikahdan ailəyə keçid yalnız uşaqlar dünyaya gələndən sonra olur və bu prosesdən sonra artıq iki nəfərin ittifaqı ailə ittifaqına keçir. Burada təkcə dünyaya gələn uşaqlar deyil, hər iki fərdin qohumları ilə əlaqələr qeyd olunur.

## Ədəbiyyat:


1. Антонов А. И., Медков В. М. Социология семьи. М., 1996, 304с.
2. Братусь Б.С. Психология нравственного сознания в контексте культуры. М., 1994
3. Брудный А.А. Психологическая герменевтика. М., 2005
4. Гуггенбюль-Крейг А. Бракумер - даздравствует брак! СПб., 1997, 112с
5. Дольник В.Р. Вышли мы все из природы. Беседы о поведении человека в компании птиц, зверей и детей. М., 1996, 328 с.
6. Карл Людвиг фон Берталанфи. Общая теория систем -обзор проблем и результатов // Системные исследования: Ежегодник. - М.: Наука, 1969. - с.33
7. Современная семья и ее проблемы: социал.-демогр. исслед. / авт. А.Г.Харчев, Михаил Семенович Мацковский. - Москва: Статистика, 1978. - 223 с.
8. Социология семьи П.А.Сорокина // Тендерные исследования в контексте социологического образования: Сборник научных статей. СПб.: Издательство «Скифия», 2005. С.56-66.
9. Социология брака и семьи: история, теоретические основы, персоналии/ С.Н. Бурова; Белорусский государственный универ-

ситет. - Минск: Право и экономика, 2010. С.74

10. Хилл Р. Семейные решения и социальная политика; социологический аспект//Изменение положения женщины в семья. М.: Наука, 1977, 57с
11. (https://studfiles.net/preview/5144964/)

# POLITICS

**UOT 32**

## HEYDƏR ƏLİYEVİN NEFT STRATEGİYASI MÜASİR MƏRHƏLƏDƏ

**Mirseymur QƏNBƏRLİ**
"Western Caspian" Universiteti
Bakı / AZƏRBAYCAN

mirseymur.qenberli@azertexnolayn.com

## XÜLASƏ

Müstəqillik əldə etdikdən sonra cənab Heydər Əliyevin aparmış olduğu, uzunmüddətli siyasətinin başlıca aspektlərindən olan neft strategiyası hal-hazırki dövrümüzdə Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmasında, öz müstəqilliyini qoruyub saxlamasında və xalqın rifahının yüksəldilməsində çox böyük rol oynamışdır. Bunun nəticəsi olaraq, müasir beynəlxalq arenada Azərbaycan Respublikası tanınmış, beynəlxalq və regional problemlərin həlli istiqamətində öz tövhələrini vermişdir.

**Açar sözlər:** Neft strategiyası, Əsrin müqaviləsi, H.Əliyevin neft siyasəti, Azəri, Günəşli, Çıraq neftyataqları.

## НЕФТЯНАЯ СТРАТЕГИЯ ГЕЙДАРА АЛИЕВА В СОВРЕМЕННОМ ЭТАПЕ

## РЕЗЮМЕ

После принятия независимости, в настоящее время нефтяная стратегия являющаяся основным аспектом долгосрочной политики Г-на Гейдара Алиева сыграла огромную роль в признании Азербайджанской Республики на международном уровне и в повышении сохранения и благосостояния народа. В результате, признание Азербайджанской Республикой на международной арене способствовало решению международных и региональных проблем.

**Ключевые слова:** Нефтяная стратегия; Контракта века; Нефтяная политика Гейдара Алиева; Нефтяных месторождений Азери, Гюнешли и Чираг.

# HEYDAR ALIYEV'S OIL STRATEGY IN THE IMPLEMENTATION STAGE

## SUMMARY

Since independence, the oil strategy that is the main aspects of a long-term policy and carried out by Mr. Heydar Aliyev plays great roles in the recognition of Azerbaijan Republic internationally in the current time, maintaining of its independence and upgrading of the welfare of the people. As a result, Azerbaij an Republic gives its contribution to the solu- tions of the well-known, international and regional problems in the modern international arena.

**Keywords:** The oil strategy; Contract of the Century; H.Aliyev's oil policy; Azeri, Guneshli and Chirag oilfields.

"Əsrin müqaviləsi" bağlandıqdan sonra Azərbaycan Respublikasının qarşısında duran ən mühüm problemlər sırasında hasil olunan neftin dünya bazarlarına hansı kəmərlər və hansı şərtlər daxilində çıxarılması əsas mövzulardan biri idi. Birinci müqavilə olaraq SOCAR-la Amerika Birləşmiş Ştatları, İngiltərə, Rusiya, Norveç, Türkiyə və s. Ərəbistanı ("Amoco", "Pennzoil", "Unocal", "Exxon", "Remoco", "McDermott", "Lukoil", "BP", "Statoil", "the Turkish petroleum Corporation "Delta") kimi karbohidrogen istehsalı sahəsində böyük təcrübəyə malik əsas neft şirkətləri ilə birlikdə 25 illik müddətə razılaşdırıldı. Sözü gedən müqavilənin şərtləri daha sonralar "Əsrin müqaviləsi" adı altında öz əksini tapdı. Müqaviləyə əsasən ilkin plan əsaslanaraq 25 il ərzində Xəzər dənizinin Azərbaycan sektorunda mövcud olan "Çıraq", "Azəri" neft yataqlarından neftin 500-520 milyon tonu çıxarılmışdır. Eyni zamanda prosesin həyata keçirilməsi üçün 8 milyard dollar civarında pul xərclənib. Statistika məlumatlarına uyğun olaraq demək olar ki, neft satışından yalnız Azərbaycan Respublikasının gəlir payı 30-35 milyard dollar civarında olmuşdur. Həmin müqavilənin şərtlərinə uyğun olaraq gəlir hesabını nəzərə alaraq 3 mənbədən qazanmaq düşünülmüşdür ki, bu da gələcək zamanda ölkənin 80-90 milyard dollar civarında gəlir götürülməsi proqnozlaşdırılmışdır [2, s.77-78].

Bu il sentyabr ayında Bakıda ölkəmiz üçün çox mühüm əhəmiyyətli bir hadisə baş vermişdir. Azərbaycan 6 ölkənin 11 şirkəti ilə 2050-ci ilə qədər "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında yenidən müqavilə başlanmışdır. Gözlənilməz olan bu hadisənin, təbii ki, dərin və tarixi kökləri mövcuddur. Yuxarıda qeyd etdiyimiz kimi bu razılaşma Heydər Əliyevin siyasi uzaqgörənliyi sayəsində "Əsrin müqaviləsi"nin uğurla aparılması siyasətinin bir hissəsidir. Həmçinin, Azərbaycan hökuməti ilə Böyük Britaniyanın BP şirkəti başda olmaqla dünyanın böyük enerji şirkətləri arasında uzunmüddətli

əməkdaşlığın davam etdirilməsinin siyasi əsasları davam etdirildi. Keçmişdə qalan 23 il müddət ərzində əldə edilən təcrübə göstərir ki, tərəflərin bir-birinə etimadı və əməkdaşlığı davam etdirməkdə maraqlıdır. Məhz bu aspektdən nəzər salsaq, imzalanan yeni saziş Azərbaycan Respublikasının beynəlxalq arenada geosiyasi nüfuzunun artması, müstəqil dövlət quruculuğu prosesinin yüksələn xətt üzrə inkişaf etdirilməsi və həmçinin dövlətimizin iqtisadi baxımından inkişafına bir çox sahələrdə hərtərəfli inkişafına təkan verəcəkdir. Məsələyə bu aspektdən yanaşmağı, analiz etməyi və bir sıra müqayisələr əsasında proqnozlar verməyə ehtiyac duyulur. Yaxın keçmişə nəzər salıb, bu prosesi aşağıdakı kimi nəzərdən keçirək.

1994- cü ilin 12-si dekabr tarixində, Heydər Əliyevin verdiyi fərman əsasında Azərbaycan Respublikası Milli Məclisi tərəfindən "Əsrin Müqaviləsi" təstiq edildikdən dərhal sonra Azərbaycan Respublikası qanunlarına uyğun şəkildə bu saziş qüvvəyə mindi. Keçmişə nəzər salsaq bir reallıq olaraq deyə bilərik ki, "Əsrin Müqaviləsi" minlərlə sayda insanların işlə təmin olunmasında xüsusi rol oynadı və Azərabaycan Respublikasının vətəndaşları üçün böyük həcmdə məşğulluq imkanları yaratmış oldu. Azərbaycan Respublikasının ümummilli lideri Heydər Əliyevin sözləri ilə qeyd etsək: "Bu neft strategiyasını böyük müvəffəqiyyətlə yaratdıq və onu uzunmüddətli strategiya ilə həyata keçirməyə çalışırıq. Biz bu neft strategiyasının inkişaf istiqamətlərini hazırlamışıq. Həmçinin bu strategiyanın dövlətimizin təhlükəsizliyi və beynəlxalq nüfuzunun artırılmasında əsaslı rol oynayacağını bilirik. Biz bilirik ki, müasir və gənc ölkəmizin nəyə ehtiyacı var.

1995- ci il oktyabrın 9-da Azərbaycan Respublikasının digər dövlətlərin neft şirkətləri və tərəflərinin idarə heyətinin görüşündə Heydər Əliyev bu razılaşmaların vacibliyini və əhəmiyyətini ölkə üçün aşağıdakı kimi qiymətləndirirdi: razılaşma hazırlandığı və danışıqlar aparılan müddətdə bir ölkə prezidenti olaraq bu müqavilənin Azərbaycan Respublikasının indiki və gələcək dövrü haqqında fikirləşirdik. Hər bir kəs aydın şəkildə bilməlidir ki, gələcək naminə biz bu müqaviləni başlatmaq fikrindəyik. Müqavilənin mərhələləri olaraq bir neçə il ərzində həyata keçirmək ölkəmiz üçün çox vacibdir. Həmçinin müqavilənin həyata keçirilməsi gələcək perspektiv inkişaf üçün vacib amildir. Müqaviləni bağlayarkən biz gələcək nəsilin həyatı haqqında da düşündük".

Planın birinci mərhələsi olaraq, Əsrin müqaviləsi beynəlxalq səviyyədə müstəqil dövlətin dünya iqtisadiyyatına inteqrasiya etməsinə şərait yaratmışdı. Eyni zamanda, yüksək səviyyəli müasir texnologiyaların tətbiq edilməsi, neft sənayesinin dirçəlişi prosesi və yenidənqurma işlərinin aparılması ölkə iqtisadiyyatının çətin vəziyyətə düşməyinin qarşısını almaqla bərabər, müxtəlif istiqamətlərdə inkişaf etməsində əhəmiyyətli rol oynamışdır.

Müstəqillik qazandıqdan sonra 1994-cü il sentyabrın 20-si "Əsrin müqaviləsi" imzalanan dönəmdə Azərbaycan Respublikası kasıb ölkə idi və dövlətimizin xarici valyuta ehtiyyatları sıfıra bərabər tutulurdu. Bugünki

günümüzdə, Azərbaycan Respublikasının xarici valyuta ehtiyatları 41 milyard dollardan çox hesab olunur. Dövlətimizin büdcəsi son illərdə 90-cı illərə nisbətdə 20 dəfə artmış, həmçinin iş yerlərinin ixtisarı ilə səciyyələnən müasir dövrdə ölkəmizdə isə bu göstərici tam əksinə olaraq çoxlu sayda müxtəlif iş yerlərinin açılması ilə xarakterik olmuşdur. Burada neft soktoru ilə bərabər qeyri neft sektoru da aiddir. İnsanların yaşayışının yoxsulluq səviyyəsinin göstəriciləri 45%-dən 6%-ə kimi düşmüşdür. Bütün bu qeyd olunanlar bir göstəricidir ki, ölkəmizin neft sənayesindən gələn gəlirləri sərfəli və digər sahələrin inkişafının təmin olunması üçün əsaslı rol oynayır. İlk öncə göstərilənlər sübut edir ki, inkişafın başlanması və həyata keçirilməsi istiqamətində milli lider Heydər Əliyevin neft strategiyası insanların milli maraqlarının qarşılanması prosesinə uyğun olaraq aparılır [6, s.97].

Azərbaycan Respublikasının "Yeni neft strategiyası" istiqamətində aparılan uğurlu nailiyyətləri qruplaşdıraraq aşağıda qeyd etdiyimiz istiqamətləri göstərə bilərik:

1. Respublikamızın, neft-qaz layihələrinə beynəlxalq səviyyəli neft şirkətləri və korporasiyalarının, bütünlüklə xarici işgüzar dairələrin, iri investisiya yatırımlarının edilməsi hesabına dünyanın bir sıra enerji daşıyıcıları bazarında çox önəmli amilə çevrilməsi olmuşdur;
   Bütövlükdə götürsək "Əsrin müqaviləsi" bağlandıqdan bugünkü günə qədər xarici neft şirkətləri ilə 25-dən çox neft müqaviləsinin razılaşması prosesi baş vermişdir. Həmin razılaşmaların yükünü olaraq Azərbaycanın neft-qaz sənayesinə təxminən 65 milyarddan çox ABŞ dolları həcmində sərmayə qoyulması planlanmışdırki, bu da respublikamızın gələcək inkişafının bir çox istiqamətlərdə şaxələnməsinin əsl təminatçısı kimi çıxış edir.
2. Azərbaycana Respublikasına məxsus olan karbohidrogen ehtiyatlarının bir sıra dünya bazarlarına sərbəst və sürətli çıxışının təmin olunması üçün ixrac boru kəmərlərinin bir sıra marşrutlar üzrə sistemləşdirilməsinin müvəffəqiyyətlə yaradılması;
   Hazırda hasil edilən neft Azərbaycandan üç marşrut üzrə çıxarılır:
   Bakı-Novorossiysk (Rusiya Federasiyasının Qara dəniz sahilindəki Novorossiysk şəhəri vasitəsilə), Bakı-Supsa (Gürcüstanın Supsa limanı vasitəsilə) və Bakı-Tibilisi-Ceyhan (Azərbaycan neftinin Xəzər dənizindən Türkiyənin Ceyhan limanına, oradan Aralıq dənizi vasitəsilə Avropa bazarlarına). İlkin neft layihəsinin həyata keçirilməsi və onun dünya bazarına ixracı "Azəri", "Çıraq" və "Günəşli" yataqlarındakı işlərin intensivləşməsinə və Azərbaycanın karbohidrogen resurslarının işlənməsinə yeni investisiyaların cəlb olunması ilə nəticələndi.
   1999-cu ilin noyabrında Türkiyənin İstanbul şəhərində keçirilmiş ATƏT-in Sammitində ABŞ, Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan və Türkmənistanın prezidentləri tərəfindən Bakı-Tbilisi-

Ceyhan (BTC) "Əsas İxrac Neft Kəməri"nin çəkilişi haqqında dövlətlərarası Müqaviləni imzalanmasından sonra Türkiyə, Azərbaycan və Gürcüstan Parlamentləri bu Müqaviləni ratifikasiya etdilər. 2002-ci ilin sentyabr ayında Bakı şəhərində, Səngəçal terminalında Azərbaycan, Türkiyə və Gürcüstan prezidentlərinin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan ixrac neft kəmərinin təməl qoyma mərasimi keçirildi və işin icrasına başlanıldı. Bakı-Tibilisi-Ceyhanın Azərbaycan hissəsinin Gürcüstan hissəsi ilə birləşdirilməsi 2004-cü ilin oktyabrında həyata keçirildi [10,s. 112-113].

3. Azərbaycanın Respublikasının aparılan enerji siyasəti nəticəsində karbohidrogen ehtiyatlarından əldə olunan gəlirlərin gələcək nəsillərə ötürülməsi, həmçinin bu gəlirlərdən ölkəmizin sosial ehtiyaclarının həll olunması istiqamətində istifadə etmək, eyni zamanda iqtisadi tərəqqi və inkişaf tələblərini nəzərə almaqla, günümüzün nəsillər üçün məqsədyönlü şəkildə istifadə edilməsi.

   Yuxarıda qeyd etdiyimiz məqsədlərə nail olmaq üçün 1999-cu il 29 dekabrında ümummilli lider Heydər Əliyev "Azərbaycan Respublikası Dövlət Neft Fondunun yaradılması haqqında” fərman vermişdir. Azərbaycan Respublikası Dövlət Neft Fondu fəaliyyətə başladığı gündən etibarən bu günki günə qədər həmin fonda bir neçə milyard ABŞ dolları məbləğində vəsait daxil edə bilmişdir [7, s. 18-19].

4. Ölkəmizin neft strategiyasının həyata keçirilməsində müsbət cəhətlərindən biri də Qərb ölkələrinin müasir və qabaqcıl texnika-texnologiyasının ölkəmizə gətirilməsi və tətbiq olunması olmuşdur;

   Bu mövzuda xüsusi ilə vurğulamaq istərdim ki, bu tikililərdə və yataqların işlənilməsində, qazmada və istismarda tətbiq olunan yeni texnologiya və avadanlıqlar neft sənayesinin bir çox sahələrində öz pozitiv təsir imkanlarını göstərmiş və müttəriqqi tərəqqiyə nail olunub.

Azərbaycan Respublikasının milli təhlükəsizliyi istiqamətində neft strategiyamızın hansı dərəcədə əhəmiyyətli və həssas bir mövzu olması bizim üçün çox vacib məsələlərdən biridir. Dünyanın beynəlxalq təhlükəsizlik məsələlərinə nəzər salsaq, müasir geosiyasi xəritədə əsas təsir faktorlarından biri də karbohidrogen ehtiyatlarının təhlükəsiz yollarla dünya bazarlarına çıxarılması prosesidir. Bu konteksdən olan Xəzər dənizinin Azərbaycan sektoruna məxsus karbohidrogen ehtiyatlarının - neft və qazın ixrac istiqamətləri, hansı ölkələrin ərazilərindən keçərək daşınma məsələləri müasir geosiyasi və geoiqtisadi problemlərin tam olaraq mərkəzində qərarlaşmışdır. Region dövlətləri ilə bərabər - Rusiya, İran, Türkiyə, Azərbaycan, Gürcüstan, Ukrayna, eyni zamanda aparıcı güc dövlətləri hesab olunan - Amerika Birləşmiş Ştatları, Avropa İttifaqı ölkələri, Çin, Yaponiya, eyni zamanda əsas neft istehsal edən dövlətlər olan - Fars körfəzi dövlətləri, Norveç, Venesuela və digərlərinin maraqları mütləq qaydada beynəlxalq arenada təmsil olunmuşdur. Qeyd edilən dövlətlərin bir

qismi neft kəmərlərini öz ərazisindən keçirməklə tranzit maraqlarını təmin etmiş olduğu təqdirdə, digər qismi onun hansı marşrutla - hansı bazara axacağı ilə özünün satış bazarında yaranacaq rəqabətə olacaq maraqlarını, üçüncü qrupa daxil olan dövlətlər isə öz ölkələri üçün daha ucuz, təhlükəsiz və sabit enerji yataqlarını davamlı təmin etmək maraqlarını, digər bir qrup dövlətlər isə sərvətlərini dünya bazarlarına daha sərfəli və müstəqil formada çıxarmaqla öz milli dövlətçilik maraqları və maddi problemlərinin həll etmək marağındadırlar.

Milli dövlətçilik fəlsəfəsi baxımından "Əsrin müqaviləsi"nin başlıca ana xəttini təşkil edən yuxarıda qeyd etdiyimiz siyasi məqamlar üzərində geniş şəkildə qalmağa ehtiyac duyulur. Əsas məsələlərdən biri də odur ki, Prezident İlham Əliyevin qeyd etdiyi kimi, ölkəmizin yüksək neft ehtiyyatlarına malik olması ümumi anlamda ölkənin zəngin olması anlamına gəlməz. Bugünki zamanımızda hegemon dövlətlər arasında gedən nüfuz və maraq savaşı hər hansı bir diqqətsizlik və ehtiyyatsızlıqdan atılmış səhv addım ucbatından bu əldə olunan zənginliyi qısa bir vaxt ərzində problemə çevirə bilər. Karbohidrogen yataqları ilə zəngin olan ərəb ölkələrinin bir neçəsində baş verən proseslər bunun bariz nümunəsidir. Bu dövlətlərdə müharibə, ixtilaflar, silahlı toqquşmaların ardı-arası demək olar ki kəsilmək bilmir. Bütün bunlarla bərabər, onların dövlətçiliyi də həmçinin ciddi təhlükə altında olaraq qalır.

Günümüzdə ölkəmiz üçün geoiqtisadi və geosiyasi aspektdə əhəmiyyətli dərəcədə mövcud olan bir məsələni xüsusilə nəzərdən keçirmək istərdim. Dünyanın bir çox müxtəlif aparıcı analitik mərkəzləri uzunmüddətli inkişaf proqnozları verərkən, o cümlədən 2050-ci ilə aid olan proqnozları göstərərkən, bir sıra ölkələrin reytinq göstəricilərini hazırlayır, həmçinin onları sıralamağa cəhd edirlər. Bir sıra faktorları nəzərə alaraq ölkələrin inkişaf perspektivləri barədə proqnozlar verməyə çalışırlar. Bu proqnozlarda adəti üzrə Rusiya, Türkiyə, Çin, Braziliya, Meksika kimi ölkələrin sürətlə inkişaf edəcəyindən söhbət açılır. Bununla bərabər eyni zamanda adları qeyd edilən ölkələrin belə 2050-ci ilə qədər işləyəcək hər hansı bir layihələri yoxdur. Doğrudur, Rusiyanın Çinlə, yaxud Türkiyənin Rusiya və Çinlə uzunmüddətli proqramları mövcuddur. Lakin konkret rəqəmlər üzrə, mərhələ-mərhələ hansı işlərin həyata keçiriləcəyi və ondan nə qədər gəlir əldə ediləcəyi barədə informasiyalar mövcud deyildir.

Dövlətimizin isə milyardlarla ABŞ dolları həcmində gəlir gətirəcəyi konkret beynəlxalq müqaviləyə imza atmışdır. "Yeni əsrin müqaviləsi"nin razılaşmalarına əsasən, şirkətlər Azərbaycana 40 milyard dollardan çox sərmaye yatırırlar. Zamanı da nəzərə alsaq, vurğulaya bilərik ki, bu göstəricilər kiçik rəqəm deyildir. Daha çox nailiyyətlərə yol aça biləcək bir reallıqdır. Ölkəmiz bundan sonrakı illər də belə sürətlə və qətiyyətlə inkişaf edəcəyinin faktiki göstəricisidir.

**Ədəbiyyat:**


1. Azərbaycan tarixi. VII cild. Bakı, 2003
2. Азери", "Чираг" и глубоководная часть "Гюнешли", как новый объект мировой политики // Нефть и капитал, 1995, №1.
3. Əliyev Ş. Müstəqilliyimiz əbədidir. Бакы, 1997-2010
4. Алиев Г.А. Результат продуманной и дальновидной политики нашего государства // Возрождение - XXI век. 1999, №19
5. Алиев Г.А. Международное значение «Контракта века» // Возрождение - XXI век. 2000, №5
6. Алиев Г.А. Новый важный шаг в успешном осуществлении новой нефтяной стратегии нашего независимого государства // Бакинский рабочий. 31 августа, 2000
7. Алиев Г.А. Нефтяная стратегия Азербайджана определена правильно, и это дает свои положительные результаты // Бакинский рабочий. 7 июня, 2001
8. Алиев Г.А. Началась новая эра нефтяной стратегии и нефтяной промышленности Азербайджана // Бакинский рабочий. 31 августа, 2001
9. Алиев Г.А. Новая нефтяная стратегия, новая нефтяная эра Азербайджана началась с «Контракта века» // Бакинский рабочий. 25 сентября, 2001
10. Алиев Г.А. США всегда поддерживают нефтяную стратегию Азербайджана // Бакинский рабочий. 7 июня, 2002

# HISTORY

**UOT 93/94**

## SİVİLİZASİYALARIN DİALOQU: QƏRB VƏ ŞƏRQ FAKTORU

**Mətanət YUSİFOVA**
Mingəçevir Dövlət Universiteti
Bakı / AZƏRBAYCAN

sevdagul@mail.ru

## XÜLASƏ

Təqdim olunan məqalədə sivilizasiyaların dialoqu kontekstində Qərb və Şərq fenomeninin mahiyyətinin açılmasına cəhd edilmişdir. Bəşəriyyətin gələcək inkişafının - neoatlantizm, monlializm və başqaları kimi müxtəlif konsepsiyalara münasibət bildirilmişdir. Qərb və Şərq mədəniyyətinin qarşılıqlı mədəni əlaqələrinin perspektiv inteqrasiyasına xüsusi aksent edilmişdir.

**Açar sözlər:** neoatlantizm, mondializm, sivilizasiyaların dialoqu, Qərb-Şərq dialoqu.

## ДИАЛОГ ЦИВИЛИЗАЦИЙ: ФАКТОР ЗАПАДА И ВОСТОКА

## РЕЗЮМЕ

В статье делаются попытки определить сущность феномена Запада и Востока в контексте диалога цивилизаций. Рассматриваются различные концепции о перспективах развития человечества - неоатлантизм, мондиализм и др. Особый акцент делается на взаимоотношения западной и восточной культур, перспективы их интеграции.

**Ключевые слова:** неоатлантизм, мондиализм, диалог цивилизаций, диалог Запада и Востока**.**

## DIALOG OF CIVILIZATIONS: WESTON AND EASTON FACTOR

## SUMMARY

The article attempts to define the essence of the phenomenon of the West and the East in the context of the dialogue of civilizations. Different concepts about the prospects of the development of mankind - neoatlantizm, mondialism

etc. Special emphasis is placed on the relationship between Eastern and Western cultures, the prospects for their integration.

**Keywords:** neoatlantizm, mondializm, dialog of civilizations, Weston and Easton dialog.

Müasir dünyanın geosiyasi kontekstində sivilizasiyaların qarşılıqlı əlaqəsi problemi mütləq surətdə ictimai tərəqqinin və maddi mədəniyyətin inkişaf mərhələsi kimi səciyyələndirilir.

Qərb geosiyasətçilərinin əksəriyyəti gələcək dünya inkişafının əsasən iki konsepsiyasından bəhs edir. Onlardan biri - neoatlantik konsepsiya - gələcək dünya nizamını müxtəlif sivilizasiyalar arasında mədəni, ideoloji və dini ziddiyyətlərin güclənməsi fonunda təsəvvür edir. Bu konsepsiyanın ən görkəmli nümayəndəsi S.F.Hantinqtondur ki, onun fikrincə bu sivilizasiyalar aşağıdakılardır: Atlantik, Latın Amerikası, slavyan-pravoslav, islam, Hind, Çin, Yaponiya və Afrika sivilizasiyaları. Hantinqton "Sivilizasiyalararası münaqişələr" nəzəriyyəsində bu sivilizasiyaların gələcəkdə toqquşmasından, lokal "qaynar" nöqtələrin, hətta münaqişələrin yarana biləcəyindən danışır. O qeyd edir ki, münaqişələrin əsas mənbəyi fundamental dəyərlərlə və təsəvvürlərlə bağlı mədəniyyətlər arasında mövcud olan müxtəliflik və fərqlilikdir. Hantinqton əmindir ki, Qərb sivilizasiyası digər xalqların sivilizasiyasından köklü şəkildə fərqlənir. O, bir tərəfdən "sivilizasiyaların əsasında mədəniyyət amili durur" desə də, digər tərəfdən mədəni müxtəliflik ideyasını qəbul etmir [6].

Müəllifin fikrincə mədəniyyət amili sivilizasiyaların rəqabətində də mühüm rol oynayır. O, bu rəqabəti, qarşıdurmanı dövrümüzün əsas xassəsi kimi qiymətləndirir, sivilizasiyalar arasında yaxınlaşma və qarşılıqlı əlaqə yaratmağın, öz növbəsində, mürəkkəb məsələ olduğunu qeyd edir. Doğrudur, sonralar, 1996-cı ildə nəşr etdirdiyi "The Clash of Civilizations and the Remarking of World Order" kitabında müxtəlif dəyərlər sistemi və davranış normalarına malik olan mədəniyyətlərin yaxınlaşması nəticəsində vahid dünya sivilizasiyasının yaranması ideyasını irəli sürür, bununla belə Hantinqton Qərb sivilizasiyasının, onun əsasını təşkil edən Amerika mədəniyyətinin üstünlüyünə inamını saxlayır. Öz əsərlərində liberalizm, bərabərlik, azadlıq, demokratiya, qanunçuluq, insan hüquqları kimi prinsiplərin dünyada ABŞ tərəfindən bərqərar olduğunu qeyd etməklə bərabər, o, bu ölkənin bütün dünyada yüksək mədəniyyət və humanist dəyərlərin möhkəmlənməsində də əsas rol oynadığını iddia edir [6].

Amerikalı geosiyasətçi Frensis Fukuyamanın təklif etdiyi "mondializm" adlanan ikinci konsepsiyaya görə gələcək dünya, müstəsna olaraq Qərb və Atlantik dəyərlərin qələbəsi ilə başa çatacaq, bütün ölkələr vahid planetar dövlətə inteqrasiya olunacaqlar [5]. Əlbəttə, qlobal inteqrasiyanın bəşəriyyətin gələcək inkişafının yeganə mümkün yolu olması şübhəsizdir, lakin "dünya hökumətinin" başçılıq etdiyi vahid dövlətin yaranması fikri utopiyadır. Ən azı

buna inteqrasiya mərkəzlərinin, dövlətlərin inkişaf yollarının müxtəlifliyi, sivilizasiyalararası ziddiyyətlərin dərinliyi imkan vermir. Ümumiyyətlə, bütün xalqların dünyagörüşlərinin eyniləşməsi çox mürəkkəb və ağrılı prosesdir. Çünki onun nəticəsində bəzi sivilizasiyalar daha güclü inteqrasiya mərkəzlərinə güzəştə getməli, ikinci, hətta üçüncü rollarla kifayətlənməlidirlər.

Yuxarıda adı çəkilən sivilizasiyalardan hər birinin (Afrika istisna olmaqla) gələcəkdə dünyanın lider sivilizasiyasına çevrilməsi üçün böyük potensialı vardır, lakin bu potensialın reallaşması həm dünyada gedən iqtisadi - siyasi proseslərdən, həm də hər sivilizasiyanın öz mədəni xüsusiyyətlərindən və mentalitetindən asılıdır.

Şərq və Qərb anlayışları təkcə coğrafi termin kimi işlənmir. Şərq ənənəviliyin, Qərb isə müasirliyin simvolu hesab edilir. Ümumilikdə Şərqlə Qərbi fərqləndirən ən mühüm amil münasibətlərin şəxsi, ya da ictimai miqyasda qurulmasıdır. Belə ki, Şərq düşüncəsində məqsəd insanın kamilləşməsi, Qərb düşüncəsində isə cəmiyyətin təkmilləşməsidir. Ancaq istənilən halda cəmiyyət də insanlardan ibarətdir.

Şərq dedikdə insana əzəldən xas olan, onun mahiyyətini ifadə edən mənəvi-əxlaqi keyfiyyətlər, Qərb dedikdə isə insanın yeni dövrdə əldə etmiş olduğu intellektual və texnoloji uğurlar yada düşür. Lakin bu gün Yaponiya, Çin, Hindistan, Cənub-Şərqi Asiya ölkələrinin texnoloji cəhətdən qazandığı uğurlar dünya iqtisadi mərkəzinin tədricən Asiyaya keçdiyini təsdiq edir. Qərb sivilizasiyası isə hissə-hissə bütün Yer Kürəsinə yayılaraq planetar hadisəyə çevrilməkdədir. İndi Qərb dünyası humanist, mənəvi dəyərlər böhranı ilə üz-üzə qalıbdır. Təəssüf ki, qərbpərəst dairələrin düşüncəsinə görə onlara məxsus olan mədəniyyət islam mədəniyyəti daxilində aşınmaya məruz qalar və yox ola bilər. Buna görə də dözümsüzlüklə islama qarşı hərtərəfli hücuma keçərək onu zəiflətməyə çalışırlar. Halbuki multikulturalizm və tolerantlığın əsas şərti elə dini dözümlülükdür. Şübhəsiz, islam sivilizasiyası özü də vahid deyildir. İslam dövlətləri, cərəyanları arasında ziddiyyətlər hələ də güclüdür. Qərb kütləvi informasiya vasitələrində terrorçuların guya islamı təmsil etdiyini iddia edən fikirlərə tez-tez rast gəlinir. Əslində isə onlar məsələyə necə qərəzli yanaşdıqlarını göstərirlər. Bu gün bütün dünyanın sülh və təhlükəsizliyi sərhəd tanımayan terrorizmin hədəfinə çevrilmişdir. Heç bir xalq terrorizmdən özünü müdafiə olunmuş hesab edə bilməz. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev V Bakı Beynəlxalq Humanitar Forumundakı çıxışında bu məsələyə toxunaraq demişdir: "Qərb siyasətçiləri İslamı terrorla eyniləşdirirlər. Halbuki terrordan ən çox əziyyət çəkən də elə müsəlman ölkələridir. Bəzi Avropa ölkələrinin rəhbərləri "miqrantları qəbul etməyə hazırıq, ancaq müsəlman miqrantları yox" deyirlər. Bu, XXI əsrdə Avropada yenidən faşizmin baş qaldırması deməkdir" [1]. Əslində, bu gün danılmaz faktdır ki, islamda radikal cərəyanların güclənməsinin əsas səbəblərindən biri Qərbin imperiyapərəst ayrıseçkilik siyasətidir. Baxmayaraq ki, "Qurani-Kərim"də də zorakılıq qəbul edilmir,

pislənir, qərb siyasətçiləri bunu bilə-bilə islama qərəzli münasibət bəsləyirlər.

Qərb və Şərq mədəniyyətlərinin inteqrasiya perspektivi ilə bağlı müxtəlif yanaşmaların mövcudluğu da bu məsələnin nə qədər problematik olduğunu sübut edir. Yeri gəlmişkən, Şərq-Qərb münasibətlərinin bütün dövrlərdə aktual olmasına baxmayaraq, Şərq ölkəsi olan Azərbaycanda sovet dövründə bu məsələ ilə bağlı tədqiqatlar demək olar ki, aparılmamışdır. Sovet rejiminin bu qadağalarını ilk olaraq dəf edən məşhur şərqşünas alim Aida İmanquliyeva olmuşdur. O, nəinki Azərbaycan hüdudlarından, hətta Şərq miqyasından kənara çıxaraq yeni dövrdə bütöv bəşəriyyət miqyasında gedən proseslərin məğzini açıb göstərmiş, Şərq-Qərb münasibətlərinin xarakterini və perspektivlərini təhlil etmişdir. Aida xanım öz zəmanəsini qabaqlayaraq Azərbaycan gerçəkliyində Şərqlə Qərbin vəhdəti ideyasını ilk dəfə konseptual şəkildə irəli sürmüşdür [2, s. 380].

XX əsrin sonlarında bütün dünyada yenidən aktuallaşmış bu problemi Azərbaycanda Aida İmanquliyevanın qızı, Azərbaycanın birinci xanımı, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Azərbaycanın birinci vitse prezidenti Mehriban xanım Əliyeva bir daha siyasi gündəmə gətirmiş, öz məqsədyönlü fəaliyyəti ilə ölkəmizin bir təşəbbüskar və aparıcı tərəf kimi çıxış etməsinə nail olmuşdur. Məhz onun bu fəaliyyəti nəticəsində Bakı 2009-cu ildə İslam mədəniyyətinin paytaxtı elan olundu; Bakıda Şərqlə Qərbi birləşdirən tarixi İpək yolunun bərpası işinin təməli qoyuldu; həmçinin Bakı Qərb-Şərq mövzusunda kino festivallarının, incəsənət bayramlarının, beynəlxalq elmi məclislərin keçirildiyi mədəni-mənəvi məkana çevrildi.

Qərb və Şərq xüsusi "genotipə" və daxili inkişaf məntiqinə malikdir. Cəmiyyətin iki tipi olan ənənəvi və texniki tiplərin qarşılıqlı əlaqəsi ənənəvi və texnogen sivilizasiyaların nailiyyətlərinin və dəyərlərinin qarşılıqlı çuğlaşması yolu ilə həyata keçirilə bilər [3]. Bu mövqedən çıxış edənlər yaxın və uzaq gələcəkdə müəyyən sosial-mədəni dəyişikliklər əsasında hansısa irimiqyaslı birliyin yarana biləcəyini inkar edərək Qərb və Şərq mədəniyyətlərinin qarşılıqlı çuğlaşmasından deyil, yalnız qarşılıqlı təsirindən danışmağı üstün tuturlar. Onların fikrincə dünyada mövcud olan bu qədər müxtəlif mədəniyyətlərin inteqrasiyası, ümumiyyətlə, mümkün deyil.

Bəzi filosoflar Şərqlə Qərbi ayırmaq, qarşı-qarşıya qoymaq cəhdlərini reallıqdan uzaq, uğursuz adlandırırlar. Onlar bu sivilizasiyaların çoxdan qovuşduğunu söyləyərək tarixi faktlara, müasir dünyada baş verən proseslərə (miqrasiya, ticarət, kommunikasiya) istinad edirlər. Doğrudan da xristianlıq, iudaizm Şərqdə, yoxsa Qərbdə yaranıb, onlardan hansı sivilizasiyanın əsasını təşkil edir? Məgər Hötenin yaradıcılıq zirvəsini "Qərb-Şərq divanı" təşkil etmirmi? Quran və Şərqin digər müdrik mənbələri L.Tolstoyun stolüstü kitabları deyildimi? Belə ritorik suallar çoxdur.

Qərb siyasi sivilizasiyasında demokratiya, insan azadlıqları və buna əsaslanan hüquq normaları sisteminin təşəkkül tapmasından danışan geosiyasət-

çilər unudurlar ki, bərabərlik, ədalətli cəmiyyət haqqında ilk fikirlərin mənbəyi tarixən Şərq olmuş, onların reallaşması uğrunda fəal sosial mübarizə də məhz burada baş vermişdir. Bunun üçün sadəcə olaraq Məzdəkilər, Xürrəmilər və digər tarixi sosial hərəkatları yada salmaq kifayətdir. Lakin elmi-texniki, mədəni nailiyyətlər, xüsusi mülkiyyət institutu, mülki və dini hakimiyyətlərin bölünməsi və digər amillər Qərbdə ictimai təşkilatlanmanın daha səmərəli formalarının tapılmasına təsir göstərmiş, nəticədə müasir Qərb demokratiyası təşəkkül tapmışdır.

Beləliklə, heç bir sivilizasiya, nə qədər güclü olursa olsun, bütün bəşəriyyət üçün məsuliyyət yükünü təkbaşına aparmaq iqtidarında deyildir. Ona görə də bəşəri böhrandan çıxış yolu da birgə, ümumbəşəri səylərlə axtarılıb tapılmalıdır. Şərqlə Qərbi qarşı-qarşıya qoymaq, bu və ya digər tərəfə üstünlük vermək heç bir müsbət nəticəyə gətirə bilməz. Hamını heyrətə salan Yaponiyada Şərq və Qərb təfəkkür tərzlərinin uğurlu vəhdəti əsas götürüldü, yəni Şərqin yüksək mənəvi potensialı Qərbin rasional düşüncə mədəniyyəti ilə birləşdirildi. Deməli, bəşəriyyətin əsasının, bütövlükdə insan cəmiyyətinin mütərəqqi mənəvi mədəni irsini təşkil edən yeni inkişaf paradiqmasının işlənib hazırlanması lazımdır. Bunun üçün sivilizasiyaların və mədəniyyətlərin dialoqu zəruridir. Elə bir dialoq ki, bütün bəşəriyyətin, müxtəlif sivilizasiyaların, xalqların humanitar potensialını hərəkətə gətirə bilsin, müxtəlif mədəniyyətlər arasındakı fərqləri aradan qaldırmağa deyil, onlar arasında balansın yaradılmasına səy göstərsin. Mədəniyyətlərin qarşılıqlı əlaqəsi, dialoq rejimində inkişaf etdirilməsi, sivilizasiyalararası gərginliyin aradan qaldırılması üçün dövlətlər bir-biri ilə qarşılıqlı əlaqəli üç məsələyə qadağa qoymalıdırlar: 1. Mədəni əsasda qarşıdurma ideyasından imtina etməli; 2. Mədəniyyətləri qarşı-qarşıya qoymaq cəhdlərinə, başqa mədəniyyəti aşağılayan sözlərə, hərəkətlərə yol verməməli; 3. Nəhayət, dialoqun baş tutması üçün onun iştirakçıları öz mədəniyyətini daha üstün tutan ifrat iddialardan birdəfəlik əl çəkməlidirlər [5].

Tarixən sivilizasiyaların dialoqu iki yolla baş vermişdir: 1. Uzunmüddətli sivilizasiyalararası qarşılıqlı əlaqələr vasitəsilə. Bu, obyektiv bir proses olub, coğrafi, tarixi amillərlə şərtlənir və kimlərinsə iradəsindən, ya da seçimindən asılı deyil. Bu cür əlaqələr lap qədim dövrdən başlamışdır və indiyə qədər davam edir. Misal olaraq Qədim Şərqlə antik dünyanın əlaqələrini, orta əsrlərdə Asiya və Avropa arasındakı Böyük İpək yolu vasitəsilə həyata keçirilən əlaqələri göstərmək olar; 2. Sivilizasiya və mədəniyyətlərin nümayəndələri arasındakı əlaqələr vasitəsilə gedən dialoq. Dialoqun bu forması coğrafi və tarixi amillərlə şərtlənmir, məqsədyönlü fəaliyyət sahəsində həyata keçirilir.

Dialoq beynəlxalq münasibətlərin yaxşılaşması üçün universal model kimi istər siyasətdə, istərsə də dində və mədəniyyətdə birtərəfliliyi, monoloqu inkar edir. Beynəlxalq hüququn bəzi normalarının dəyişdirilməsi ilə bağlı son vaxtlar səslənən təkliflər də məhz bu zərurətdən doğur. Sirr deyil ki, bu normaların əksəriyyəti çoxqütblü dünyanın məhsuludur və iri dövlətlərin maraqlarına hesablanmışdır. Bu məsələdə müsəlman dövlətlərin maraqları heç

vaxt nəzərə alınmır. Təsadüfi deyil ki, qlobal sivilizasiyanın təşəkkülü prosesində əsas təhlükə də məhz müxtəlifliyin qiymətləndirilməməsidir. "Maneələri dəf edərkən. Sivilizasiyalararası dialoq" kitabının müəllifləri "müxtəliflik qorxusu"nu mədəniyyətlər və sivilizasiyalar arasında dialoqun qarşısında ən təhlükəli maneə hesab edirlər [6].

Sivilizasiyalararası, mədəniyyətlərarası münasibətlərin dramatikliyinə və mürəkkəbliyinə baxmayaraq, onların dialoqu fundamental ziddiyyətlərin aradan qaldırılmasının, bütün tərəfləri qane edən qarşılıqlı əlaqə və prinsiplərin müəyyənləşdirilməsinin ən konstruktiv üsuludur. Bəzi hallarda dialoqun yalnız ənənəvi cəmiyyətlər üçün əhəmiyyət kəsb etdiyini, onun texnogen cəmiyyətlər üçün bir o qədər də aktual olmadığını iddia edənlər də tapılır. Lakin bu gün dünya elə vəziyyətdədir ki, mövcud inkişaf modellərindən heç biri başqa ölkələr üçün etalon ola bilməz. Ona görə də bütün sivilizasiyaların, mədəniyyətlərin bərabər şəkildə iştirak etdiyi, iştirakçıları inkişaf etmiş, inkişaf etməmiş, birinci, ikinci, üçüncü dərəcəli ölkələr və başqa təsnifatlara görə ayırmayan dialoq elə texnogen sivilizasiyanın özü üçün də xeyirlidir. Bu, bir tərəfdən onun daşıyıcılarının başqa mədəniyyətlərə münasibətdə özünü göstərən lovğalıq, təkəbbürlülük kimi ziyanlı yanaşmaları, fərdiyyətçiliyi, istehlakçılıq təzahürlərini aradan qaldırmağa şərait yaradır; digər tərəfdən, texnogen birliklərin daxilində mədəni zənginlik, özünəməxsusluqlar qorunub saxlanır.

Şübhəsiz, müasir siyasi, iqtisadi, mədəni qloballaşma və inteqrasiya bu proseslərin qanunauyğun mərhələsi olan sivilizasiyaların konvergensiyasına və hətta konfederasiyasına doğru aparır. Onların arasında qarşılıqlı münasibətlər birgə fəaliyyətin məhsulu olan və hamının qəbul etdiyi hüquqi normalarla, etik prinsiplərlə tənzimlənəcəkdir. Əlbəttə, bunun nə vaxt baş verəcəyi, hansı formalardan və mərhələlərdən keçəcəyi haqda proqnoz vermək mümkün deyil. Lakin son nəticədə qlobal sivilizasiyanın təşəkkül tapacağı bu ümumdünya prosesinin əsas xüsusiyyətini mədəniyyətlərin və sivilizasiyaların dialoqu təşkil etməli, eləcə də ümumbəşəri dəyərlərə münasibətdə qarşılıqlı anlaşma olmalıdır.

Yeni dünya düzəninin konturları artıq müəyyənləşməkdədir. Dünyanı dəyişmək, humanistləşdirmək üçün "yeni təfəkkür"ə ehtiyac duyulduğu getdikcə daha artıq dərk edilməkdədir. Məhz yeni planetar humanizm gələcək inkişafın əsas rəhnidir. Bu təfəkkürün mənəvi-ideoloji əsasında planetar şüura malik, bütün Yer kürəsinin məsuliyyətini öz üzərində dərk edən insanların dünyagörüşü durmalıdır. Bunun isə ilkin şərti dünyanın müxtəlifliyinin, çoxçalarlılığının qəbul edilməsi və saxlanmasıdır. Yəni yaxın gələcəkdə eyniliyin, həmahəngliyin, yeknəsəkliyin bərqərar olması inandırıcı görünmür. Müxtəlif sivilizasiyaların bir sivilizasiyada qovuşacağı və sivilizasiyalararası fərqlər əsasında vahid sivilizasiyanın təşəkkül tapacağının ciddi əsasları yoxdur. BMT Təhlükəsizlik Şurasının 56/6 saylı qətnaməsində qeyd edildiyi kimi: vahid bəşər ailəsi bütün sivilizasiyaları birləşdirir, bu sivilizasiyalar müxtəlifliyin nailiy-

yətlərini daha da yaymağa və təşviq etməyə imkan verir və bir daha təsdiq edir ki, sivilizasiyaların nailiyyətləri bütün bəşəriyyətin kollektiv irsidir [3].

**Ədəbiyyat:**


1. Əliyev İ. V Bakı Beynəlxalq Humanitar Forumunda çıxışı
2. Xəlilov S. Sivilizasiyalararası dialoq. Bakı, 2009
3. Xəlilov S. Şərq ruhunun Qərb həyatı. Aida İmanquliyevanın yaradıcılıq axtarışının izi ilə. Bakı, 2009
4. Аникеев Е.Н., Семушкин А.В. Диалог цивилизаций: Восток-Запад// Вопросы философии, 1998, № 2
5. Гусейнов А.А. О чем мы говорим, когда говорим о диалоге цивилизаций. Москва, 2007
6. Хантингтон С.Ф. Преодолевая барьеры. Диалог между цивилизациями. Логос, 2002

**UOT 902**

# YAPON KİNOSUNUN İNKİŞAF TARİXİ

**Xəyalə AĞAYEVA**
Azərbaycan Dillər Universiteti
Bakı / AZƏRBAYCAN

khayalayahyayeva@yahoo.fr

## XÜLASƏ

Tarixin ən qədim və ən böyük kinolarından biri olan yapon kinosu, teatr tərkibində yaranmış və inkişaf etmiş, bir müddət sonra teatrla qarşı-qarşıya gəlmişdir. Yeni dalğa filmləri və animasyonlar isə bir müddət sonra, yenidən Yaponiyaya xas və dünya standartlarına uyğun məhsul istehsal edərək kino sənayesinin dirçəlməsinə nail olmuşlar.

**Açar sözlər:** bunka-eiga, benşi, Jidai-Geki, Gendai-Geki, Akira Kurasava, anime.

## ИСТОРИЯ РАЗВИТИЯ ЯПОНСКОГО КИНО

## РЕЗЮМЕ

Японское кино являясь одним из старейшим и крупнейшим в истории кино, было создано и развивалось в театре, и через некоторое время столкнулось с театром. Позже, фильмы и анимации новой вольны возродили киноиндустрию, производя продукцию соответствующий мировым стандартам и свойственной Японии.

**Ключевые слова:** бунка-эйг, бэнси, Джидай-Геки, Гендай-Геки, Акира Курасава, аниме.

## DEVELOPMENT HISTORY OF JAPANESE CINEMA

## SUMMARY

Japanese cinema being one of the oldest and largest in the history of cinema, was created and developed in the theater, and after a while faced with the theater. Later, new wave films and animations revived the film industry, producing products that meet world standards and are peculiar to Japan.

**Keywords:** bunga-eiga, benchi, Jidai-Geki, Gendai-Geki, Akira Kurasava, anime

Kino və fotoqrafiyanın kəşfi fransızlara aid edilir. Əgər bu dəqiq şəkillərin ilkin təmsilçiləri rəssamlar (Le Qrey, le Sek, Neqr, Nadar və s.) olmuşlarsa, tez bir zamanda bu incəsənət növü tam estetik müstəqilliyə nail olur. Özünün sosioloji perspektivləri üzərində formalaşmış fotoqrafiya, həmçinin kino, təbii olaraq XIX əsrin ortalarına yaxın yaranmış müasir rəssamlığın böyük ruhi və texniki inqilabı ilə izah olunur. "Ruh yüksəkliyi" məqaləsində Andre Malro yazırdı ki, "kino plastik realizmin ən inkişaf etmiş aspektidir, ta İntibah dövründən yaranan prinsip barokko rəssamlığında özünün son ifadəsini tapdı".

Bütün dünyada kinonun yaradıcısı kimi tanınmış Lui Jan Lümiyer 1864-cü ildə Bezansonda fotoqrafiya ilə maraqlanan rəssam ailəsində dünyaya gəlmişdir. Texniki təhsilini aldıqdan sonra, atasının fotoplastinka fabrikində çalışmışdır. 1894-cü ildə Jan Lui Lümiyer Tomas Edissonun hərəkət edən təsvirləri ilə tanış olur və "hərəkət edən fotoqrafiyalar"ın işıq proyeksiyası problemi ilə maraqlanmağa başlayır. Öz qardaşı ilə birlikdə o, "kinematoqraf" adlandırdıqları apparatı kəşf edir. Oqüst Lümiyer qardaşına əsasən maliyyə dəstəyi ilə kömək edirdi, kəşfdə isə onun rolu demək olar ki, yox idi. Bununla yanaşı Lümiyer qardaşlarına filmlərin müntəzəm buraxılışı təşəbbüsü xasdır (4, s.22).

Beləliklə, 28 dekabr 1895-ci ildə Parisdə Bulvar-de-Kapyusindəki Qran kafedə birinci kinoseans keçirilir, seans Liondakı Belkur meydanının təsvirləri ilə başlayır. Həmin vaxt qiyməti cəmi bir frank olan 35 bilet satılmışdırsa, sonralar bu seanslara bilet tapmaq çox çətin məsələyə çevrilmişdir. Belə uğurdan sonra, Lümiyerlərin Avropadakı şöhrəti artmağa başladı. 1895 və 1896-cı illərdə onlar müxtəlif mövzuları əhatə edən əlliyə yaxın qısa müddətli filmlər çəkirlər. Onların arasında tamaşaçılara göstərilən "Fəhlələrin Lümiyer zavodundan çıxışı", "Qatarın La Syota vağzalına gəlişi" sənədli filmləri, "İslanmış suvarçı" komediyası, "Diananın çimizdirilməsi" filmlərini qeyd etmək olar (2, s.38).

Yapon kinosu da tarixin ən qədim və ən böyük kinolarından biridir. Yaponiyada ilk film 1897-ci ildə çəkilmişdir. Məhz bu ilə aid olduğu bilinən, ən qədim Yaponiya istehsalı olan "Payız yarpaqlarının oyunu" filmində hadisələr Tokioda cərəyan edirdi, mövzu isə geyşa və onların həyat tərzlərindən ibarət idi.

İlk vaxtlar bütün dünyada olduğu kimi burda da filmlər səssiz filmlər şəklində çəkilirdi. *"Benshi"lər* isə səssiz yapon filmlərinin əsas personajları idilər. Bu xüsusiyyətlərinə görə onları qədim türk *məddahlarına* bənzədirlər. Səssiz filmlər dövrünün ən yaxşı rejissorlarından biri kimi Shozo Makinonun adını qeyd etmək olar. 1920-ci illərin əvvəllərindən etibarən solçuların siyasətdəki rolunun artması ilə əlaqədar kinoda da sol ruhunu daha çox özündə əks etdirən filmlər çəkilməyə başladı. Bu dövrə qədər qadın rollarını da kişi aktyorlar ifa etməli idilər. Daha sonralar, Teynosuke Kinugasa yapon film

tarixində yenilik edərək bu aləmə qadınları da cəlb etdi (5, s.229). Beləliklə artıq yapon kinosunda Harumi Hanayagi və Yaeko Mizutani kimi kino aktrisaları da görünməyə başladı.

1920-ci illərdə bəzi gənc kino istehsalçıları, kinonun teatrın boyunduruğundan azad olunmasının vacibliyini ortaya atdıqlarında Yapon kinosunda bir-birilərinə zidd olan iki fikir yarandı: yapon ənənəvi teatrından bəhrələnən *Jidai-Geki* filmləri və müasir yaşam tərzini, gündəlik məsələləri özündə əks etdirən *Gendai-Geki* filmləri. Qeyd edək ki, bu qarşıdurma uzun illər yapon kinosunda öz varlığını sürdürmüşdür. Burada ənənəvi teatr dedikdə Kabuki teatrı nəzərdə tutulur. XVI əsrin sonu, XVII əsrin əvvəllərində yapon mədəniyyətində Noh janrından sonra yeni bir janr formalaşmağa başladı. Kabuki adlanan bu janrın (teatr) əfsanəvi banisi O-Kuni adlanan rəqqasə hesab edilir. Çin heroqlifləri ilə yazılan bu sözün mənası: ka-mahnı, *bu-ənənəvi* yapon rəqsi, ki-aktyor oyunu, aktyor bacarığı deməkdir. Bu janrın bütün təbiəti coşqun hisslərdən, emosiyalardan yoğrulub. Kabuki teatrı üçün forma kamilliyi, dəqiqlik, vizual gözəllik və hərtərəfli harmoniya ən xarakterik cizgidir (1, s.144). İlk vaxtlar yapon kinosunda teatrın hakimiyyəti açıq-aşkar görülməkdə idi. Ənənəvi kabuki oyunları, Şingeki adlandırılan qərb teatrı və Şimpa adlı müasir yapon teatrı birlikdə kinonu qidalandıran üç ana qolu təşkil edirdilər.

Teatr boyunduruğundakı kinodan narahat olan gənc kinomatoqrafçılar bir araya gələrək, bu asılılığı aradan qaldırmaq üçün birgə səy göstərməyə başladılar. Henri Kotaninin 1920-ci ildə çəkdiyi "Şima no Onna" və Tomas Kuriharanın eyni ildə istehsal etdiyi "Amaçua Kurabu" filmləri bu fəaliyyətin ilk bəhrələri idi.

1923-cü ildə Yaponiya tarixin ən böyük və ən dağıdıcı zəlzələlərindən biri olan Kanto zəlzələsi ilə sarsıldı. 105 min insanın öldüyü zəlzələ nəticəsində ölkədə demək olar ki, sağlam studio qalmadı (6, s.73). O dövr kino studiyalarının çoxu Kanto bölgəsində olduğu üçün, film sektoru böyük zərərlə qarşılaşdı. Beləliklə, yapon kinosu yeni bir böhran dövrünə qədəm qoydu. Studiyalar yerli filmlər istehsal etmədiyinə görə, kino salonlarında əsasən xarici filmlər nümayiş edilirdi. Amerikan kinosu da Yaponiyanı məhz bu zaman kəsiyində öz təsiri altına aldı. Bütün film istehsalçıları ayaqda dura bilən tək şirkət olan Nikkatsuda toplanırdılar. Daha sonra yeni şirkətlər qurulmağa başlandı və 30-cu illərin sonlarından ölkədə film istehsalı artdı.

*1930-cu illər.* Qərbin əksinə olaraq Yaponiyada 1930-cu illərdə də hələ səssiz filmlərin çəkilişi davam edirdi. Yapon teatrında oyunları səsləndirən "benşi"lər hələ də olduqca önəmli yerə sahib idilər. Qərbə nisbətən daha çox özünə qapanıq, daha çox milli dəyərlərə üstünlük verən Uzaq Şərq və xüsusilə Yaponiya, Qərb məhsulu olan kinoya alışmaqda nəinki çətinlik çəkmədi, hətta onu özünə görə yenidən yoğurdu. 1900-cu illərin əvəllərində istər yapon sərmayəçiləri, istərsə də xarici investorlar bu yeni göstəri sahəsinə olan marağı görüb yatırım qoymağa başladılar. İddialara görə ilk vaxtlar yapon kinosu

Kabukinin tərkibində fəaliyyət göstərirdi. Hekayələr *benshilər* tərəfindən nəql olunurdu. Bu göstəri şəkli və anladanlar o qədər maraqla qarşılanırdılar ki, 1930-cu illərdə dünya səsli kinoya keçdiyi halda, Yaponiyada uzun müddət anladılan səssiz kinonun göstərilməsi davam edirdi.

Hətta bəzi izləyicilər məhz onları dinləmək üçün teatra gəlirdilər. Buna görədir ki, 1940-cı ilə qədər yapon kino salonlarında həm səsli, həm də səssiz filmlər nümayiş etdirilirdi. İlk səsli film 1930-cu ildə çəkilmişdir ("Mina Talkie System"). 30-cu illərin sonlarında dövlətin film sənayesi üzərindəki təsiri artmışdı. Film Qanunu qəbul edilmişdir. Fumio Kamei tərəfindən *bunka-eigalar* (sənədli filmlər) çəkilmişdir (9). Vaxt keçdikcə Yaponiyada baş verən tarixi hadisələr yaponların sənədli filmlərə olan marağını artırmışdır. Əsasən, Rusiya-Yaponiya müharibəsi bu cür filmlərin çəkilişinə təkan vermişdir. Bu gün də Yaponiya filmləri içərisində müharibə mövzusunun əsas yer tutduğunu aydın şəkildə görmək olar.

*1940-cı illər.* II Dünya müharibəsi Yaponiyanın demək olar ki, altını üstünə çevirdi. Hiroşima və Naqasaki kimi iki böyük şəhərinə atom bombası atıldı. Müharibə illərində kino salonlarının böyük bir hissəsi yoxa çıxdı. Təsadüf nəticəsində sağ qalan bəzi salonlarda film nümayişi qismən də olsa davam etdirilirdi. Müharibə ilə əlaqədar bu illərdə çəkilən filmlərin böyük əksəriyyəti vətənpərvərlik mövzusunda idi. Akira Kurasava ilk filmi olan "Sugata Sanshiro" nu bu dövrdə çəkmişdi (6, s.67).

Bildiyimiz kimi, müharibə bitdikdən sonra, Yaponiya, 1952-ci ilə qədər davam edən amerika işğalına məruz qaldı. Amerika işğalı zamanı ölkədə bütün qurumların idarə forması və quruluşu dəyişdirildi. Yeni qəbul edilmiş senzura qaydasına görə, yapon mədəniyyətini təbliğ edən filmlərin nümayişi qadağan edildi. Kimono və qılınc görünən filmləri keçmişə aid edən işğalçılar bir çox rejissorların kino çəkməsinə mane oldular. İşğalçı rejim bununla da kifayətlənməyib, 200-ə yaxın filmi yandıraraq yox etdi.

*1950-ci illər.* Yapon kinosunun "qızıl dövrü" hesab olunur. İlk rəngli film də məhz bu dövrdə -1951-ci ildə Keisuke Kinoshita tərəfindən çəkilmişdir ("Carmen comes home"). 1950-ci illərə qədər bir çox maneələrdən keçən Yapon kinosu bu illərdə nisbətən rahat dövrə daxil oldu. Bir çox rejissorlar özlərinin yollarını cızmağa və dünyaya açılmağa başladılar. Bunların ən önəmlisi kino mütəxəssisləri tərəfindən bütün dövrlərin ən yaxşı rejissorlarından biri hesab edilən Akira Kurasava idi. 1951-ci ildə "Rashomon" filmi ilə Venesiyada Qızıl Ayı mükafatını alaraq, bütün dünyanın diqqətini Yapon kinosuna çəkən Kurasavanın Şekspir, Qorki, Dostayevski kimi Qərb nümayəndələrindən nümunələr göstərməsi onun dünyaya açılmasına köməkçi oldu (6, s.113). Kurasava bunu edərkən, filmlərini Yapon mədəniyyətinə və ənənəsinə uyğun çəkir, milli baxış vasitəsilə beynəlmiləliyi əldə edirdi. Akira Kurasavanın filmlərinin əksəriyyətinin mövzusu ABŞ və başqa ölkələr tərəfindən fərqli aktyor tərkibi ilə yenidən çəkilmişdir. "Yeddi samuray" filmi 1960-cı

ildə ABŞ istehsalı olan "Möhtəşəm yeddi" adlı yeni versiya ilə "Hollywood"da təqdim edilmişdir.

Kurasavadan sonra Yapon kino tarixinin ən tanınmış siması Yasujiro Ozodur. O, müharibədən sonra dəyişən toplum dəyərlərinə və Qərbin Yapon ailə mədəniyyətinə olan təsirinə ilk və ən önəmli reaksiya verən şəxslərdən biri olmuşdur. Məhz bu xüsusiyyətinə görə onu Yapon rejissorlar içərisində "Ən yapon rejissor " adlandırırlar. Bu illərdə çəkilən "Rashomon", "Yeddi samuray" və "Tokyo hekayəsi" bu dövrə aid filmlərdir (8, s.28). Ozonun filmləri həm yapon tamaşaçıları, həm də kino tənqidçiləri arasında çox məşhur idi. Gündoğan ölkədə böyük marağa səbəb olmalarına baxmayaraq, onun filmləri digər ölkələrdə elə də çox təqdim olunmadı: hətta eyni vaxtda fəaliyyət göstərən A.Kurasava kimi beynəlxalq şöhrət qazana bilmədi. Ozonun filmləri ölkəsində orta sinfə mənsub ailələrin həyatından daha çox bəhs edir. "Tokio hekayəsi" filmində, bir çox başqa filmlərdə olduğu kimi, yapon ailə daxili münasibətlərini mükəmməl şəkildə təsvir edir.

II Dünya müharibəsindən sonra, yapon kinosunun inkişafında mühüm rol oynayan şəxslərdən biri də Şoei İmamuro olmuşdur. 1926-cı ildə Tokioda dünyaya gələn İmamuro əvvəllər kino sahəsi ilə maraqlanmamış, teatrdan gələn gəlir onun xərclərini ödəmədiyindən, sonralar film sənayesinə maraq göstərməyə başlamışdır. İlk olaraq Şoçiko (1951-1954), daha sonra isə, Nikkatsu Film şirkətlərində rejissor vəzifəsində çalışmışdır. 1958-ci ildə ilk filmi "Oğurlanan arzu" ("Nusumareta Yokujo")- nu ekranlaşdırdı. İmamuronun bu ilk filmi, peşə həyatı boyunca davam edəcək yenicə formalaşan düçüncələrini özündə ehtiva etmişdi. Yapon mədəniyyətinin kənar hüdudlarında olanların ləhcələri və adətləri onun filmlərində işlədiyi əsas mövzular oldu. Rejissorun ilk 4 filmi, əlbəttə ki, tələsik çəkilmiş və aşağı büdcəyə malik şirkət sifarişləri idi. Yaponiyanın müasirləşməsindən bəhs edən "Donuzlar və müharibə gəmiləri" ("Buto to Gunkan") adlı ilk yetkin filmini 1961-ci ildə lentə aldı (8, s.26).

*1960-cı illər.* 60-cı illərdən sonra Kurasavayla başlayan dalğa, yeni Yapon dalğası idi. Ku- rasavadan sonra bu dövrün ən önəmli isimlərindən biri Shoie İmamura idi. 1970-ci illərdə bütün dünyada olduğu kimi Yaponiyada da televiziyanın təsiri kinoya olan marağı azaldır. "Pink" adlanan ucuz eşq filmləri və Yakutza (mafiya) filmlərinin salonları işğal etdiyi bu dövrdə, Yaponiyada boş qalmış kino salonlarını doldurmaq üçün, Avropa və Amerika filmlərinin tamamilə kopiyaları çəkilərək yapon tamaşaçısına təqdim olunur. Bununla əlaqədar Kurasava maraqlı bir fikir söyləyib: "Yaponiyadakı eşq münasibətləri Fransa və ya İtaliyadakına bənzəməz. Amma təəssüflər olsun ki, gənc rejissorlarımız Qərb filmlərində gördüklərini alçaq bir biçimdə kopya edirlər. İzləyicilər də bu filmlərdə gördüklərindən gerçək həyatlarında bəhrələnirlər. Bu çox gülünc bir şeydir" (3. s.815) .

*1980-90-cı illər.* Bəhs edilən dövrdə cizgi filmləri (animeler) daha cox

məhşurlaşmışdı. XX əsrin əvvəllərində Yaponiya kinematoqrafiyasında yeni dalğa yaranır. Günümüzdə baxış sayına görə bəzi filmləri də qabaqlamağı bacaran Yaponiya istehsalı olan animasiyalar, onların öz dili ilə desək animelər, dünya kinematoqrafiyası üçün tamamilə yenilik oldu desək yanılmarıq. Həmin dövr üçün animenin əsas təmsilçisi Osamu Tezuka sayılır. Anime xarakterlərinin xüsusi görünüşləri: uzun saçları, uzun ayaqları, çox böyük gözləri, balaca burun və ağızları insanların psixologiyası haqqında araşdırmaların nəticəsi olaraq yaradılmışdır. Bəzən xarakterlərin bu formada təsvir edilməsini yaponların balaca gözlərinə, qısa saçlarına qarşı olan kompleksi ilə də əlaqələndirirlər.

Yaponiyada çəkilən ilk anime sayılan "hərəkətli şəkillər" (Katsudö şyaşin) - 50 kadrdan ibarət olan qısa animasiyadır. 1907-ci ilə aid olan "Hərəkətli şəkillər"in yaradıcısı haqqında məlumatlar saxlanılmayıb. Lakin məhz Katsudö şyaşin'in Yaponiyada ilk anime olduğu həqiqəti danılmaz fakta çevrilib. Hərəkətli şəkilləri Osaka və Tokio Universitetlərində incəsənət və musiqi fənlərindən dərs deyən müəllim Natsuki Matsumoto Kiotoda qədim ailə proyektorunda digər xarici cizgi filmi kadrları kolleksiyası arasında aşkar edib. Qeyd edilən proyektorda selluloiddən ibarət olan lentdə çəkilən 50 kadr saxlanılmışdı. "Hərəkətli şəkillər" animesi cəmi 3 saniyə davam edir. Kadrın mövzusunu gəmiçi paltarında oğlan uşağının lövhədə kanci ilə "hərəkətli şəkillər" yazaraq tamaşaçılara çevrilib nəzakət əlaməti olaraq papağını çıxartması təşkil edir. 31 iyul 2005-ci ildə kadrların Kiotoda tapılmasına qədər "Gözətçi (qapıçı) Mukuzo İmokava'nın əhvalatı" (İmokava Mukuzö Genkanban no maki) adlı anime Yaponiyada ilkin hesab olunurdu. 5 dəqiqə davam edən bu anime Öten Şimokava tərəfindən 1917-ci ildə yaradılmışdı (10).

İqtisadi böhranla əlaqədar olaraq Yapon film sənayesi də xeyli zəifləmişdi. Bunun əksinə olaraq yapon cizgi filmləri dünya miqyasında tanınmağa başlandı. 1990-cı illərdə iqtisadi böhranla üzləşən Yapon kinosu həm keyfiyyət həm də kəmiyyət olaraq olduqca aşağı filmlər istehsal edirdi. Böhranın ardından canlanan kino sektoru fərqli istiqamətlərə yönəlir: anime (cizgi və animasyon) və qorxu. Texnologiyanın inkişafı ilə birlikdə, bütün dünyada diqqət çəkən animelər istehsal etməyə başlayan Yaponiya animasyon film bazarında ABŞ-la yarışır. Anime anlayışının mənası fransız dilindən "cizgi filmi" deməkdir. Qeyd etdiyimiz kimi, Osamu Tezuka Yaponiyada müasir animenin ən məşhur nümayəndəsi kimi tanınır. Ümumiyyətlə, anime tarixi, XX əsrin əvvəllərində yapon film istehsalçıları tərəfindən Fransa, Almaniya, ABŞ və Rusiyadan animasiya texnikasının mənimsənilməsindən sonra başlayır. 1970-ci illərdə manqa çəkimləri Yaponiyada bu sahəyə böyük maraq yaratdı. Bu şəkillərin böyük bir hissəsindən animelərin çəkilişində istifadə olunmuşdu: xüsusilə, Osamu Tezuka "Manqanın tanrısı" səviyyəsinə qədər yüksəlmişdi. Yapon kinosunda anime janrının günümüzdəki ən məşhur təmsilçisi Hayao Miyazakidir. Əsrarəngiz görüntüləri və dəqiq rəsmləri ilə Miyazaki bütün dünyada məşhur olan rejissorlar sırasına qoşuldu. Onun filmləri arasında "Gəzən saray",

"Şahzadə Mononoke", "Ruhların qaçışı" və s-nin adını çəkmək olar. Animelər təkcə uşaqlar üçün çəkilmiş cizgi filmlər deyil, həm də böyüklər üçün çəkilmiş və gerçək həyatda olan ya da olmayan hər cür məsələyə toxunan kino məhsuludur. Bunların ən məhşurları Hayao Miyazakinin animeləridir (5, s.252). Yapon kinosunun dünyada tanınmasında təsiri olan bir başqa filmlər də qorxu filmləridir. Qərbin əsas personajı şeytan olan qorxulu filmlərinin əksinə, Yapon kinosunda ölü uşaqlar, gotik hekayələr anladılaraq fərqli bir qorxu film perspektivi təqdim olunur.

Yaponiya rejissorlarının çəkdiyi qorxu janrında olan filmlər başqa ölkələrin ekranlaşdırdığı qorxu filmlərindən tamamilə fərqlənir. Belə ki, yaponlar professional qorxu filmlərində səssizliyin ardından gələn ani qışqırıq səsləri, qatilin üzünün göstərilməməsi, qaranlıqda görünən ruhlar və s. kimi adət olunmuş üsüllardan istifadə etməyi sevmirlər. Yaponiyada mövcud olan dini inanclardan dolayı rejissorlar adətən qəribə dini hadisələrin baş verdiyini göstərməkdə maraqlı olurlar və izləyicinin psixologiyasında iz qoymağı bacarırlar. Bu həm də filmi izləyən xarici kütlə üçün yetəri qədər maraqlı olur. Ən məşhur Yaponiya qorxu filmlərinə "Halqa" ("The ring"), "Qaranlıq sular" ("Dark water"), "Bir buraxılmış zəng" ("One missed call") kimi filmləri misal çəkmək olar.

*2000-ci illər.* 50-ci illərdən sonra Yaponiya kino sənayesinin ən yaxşı dövrüdür. 2-ci "qızıl dövr" hesab olunur. Bu dövrdə yüksək büdcəli filmlər istehsal olundu. 2006-cı ildə vizyona girən filmlərin sayı 821-ə çatdı. 2001-ci ildə Miyazakinin "Spirited Away"yi ən yaxşı cizgi filmi nominasiyası üzrə Oskar mükafatını aldı (3, s.813).

Bunlarla yanaşı, Yaponiya başqa xarici ölkələrlə də çoxlu sayda ortaq film çəkilişlərini həyata keçirmişdir. Hindistan, Amerika, Tayvan, Türkiyə, Rusiya kimi ölkələrlə ortaq filmləri olan Yaponiyanın bu mənada da qazandığı uğurlar az deyil. Xüsusilə, "Hollywood" tərəfindən maliyyələşdirilərək çəkilən filmlər daha çox uğur qazanmışdır. Bunlara misal olaraq, məşhur rejissor Kventin Tarantinonun (Quentin Trantino) ekranlaşdırdığı iki hissəli "Bili öldürmək" ("Kill Bill"), tanınmış aktyor Kiana Rivsin (Keanu Reeves) çəkildiyi "47 Ronin", eləcə də, Edvard Zvikin (Edward Zwick) ekranlaşdırdığı və Tom Kruzun (Tom Cruise) rol aldığı "Sonuncu samuray" (The last samurai) filmləri dünyaca məşhurdur (7, s.371). 2015-ci ildə Yaponiya və Türkiyənin ortaq tarixindən danışan "Ertoğrul 1890" filmi ekranlaşdırılmışdır. Film həm Türkiyə, həm də Yaponiya tərəfindən maliyyələşdirilmişdir.

Beləliklə, yapon kinosu teatr tərkibində yaranmış və inkişaf etmiş, bir müddət sonra teatrla qarşı-qarşıya gəlmişdir. İkinci Dünya müharibəsindəki məğlubiyyətin doğurduğu nəticələr və televiziyanın yayılması yerli filmlərin təsirini azaltmışdır. Yeni dalğa filmləri və animasyonlar isə bir müddət sonra yenidən Yaponiyaya xas və dünya standartlarına uyğun məhsul istehsal edərək kino sənayesinin dirçəlməsinə nail olmuşlar.

**Ədəbiyyat:**

1. A.Talıbzadə. Şərq Teatrı Tarixi. Bakı,2016
2. Bernard Lonjon, Emile Reynaud, le veritable inventeur du cinema, Polignac, editions du Roure, 2007
3. H.Komatsu, Dünya Sinema Tarihi: Japon Sinemasının Modernleşmesi, Kabalcı Yayınevi,2008
4. Marie-France Briselance et Jean-Claude Morin, Grammaire du cinema, Paris, Nouveau Monde, 2010
5. N.Bagu, The Japenese New Wave: Directory of world cinema Japan, The University of Chicago, 2010
6. P.Stephen , Savaşçının kamerası: Akira Kurasava sineması, Çevirmen: Ahmet Ergenç Kabalcı Yayıncılık, lstanbul 2013
7. R. Teksoy. Sinema Tarihi (1. Cilt). İstanbul: Oğlak Yayıncılık, 2009
8. T.C. Milli Eğitim Bakanlığı, Radyo-Televizyon, Diğer ÜlkeE Sinemaları , Ankara, 2011 http://sinemaninrenkleri.blogspot.com/2011/07/japon-sinemas-tarihi-ve-japon-filmleri.html
9. https://yapon.az/2014/05/13/katsudo-syasin-ilk-anime/

**UOT 39**

# İBN RUSTANIN QEYDLƏRİNDƏ XƏZƏR, XƏZƏRƏTRAFI ƏRAZİLƏR VƏ TAYFALAR

**Rəşad MUSTAFA**
"Western Caspian" Universiteti
Fəlsəfə və Tarix kürsüsü, t.ü.f.d.

reshadmustafa@gmail.com

## XÜLASƏ

Əbu Əli Əhməd ibn Ömər ibn Rusta X əsrin ən əhəmiyyətli coğrafiyaşünas – səyyahlarından biri olmuşdur. Onun elm aləminə verdiyi məlumatlar əsasən "Kitab əl-alaq ən-nəfisə" - "Nəfis daş-qaşlar kitabı"nda toplanmışdır. Bu kitabın "Dənizlərin təsviri" hissəsində Xəzər dənizi haqqında xeyli məlumat vardır. Buradan öyrənirik ki, ibn Rusta Xəzər dənizini həm də Təbəristan dənizi, Curcan dənizi, əl-Bab dənizi də adlandırmışdır. "Çayların təsviri" bölməsində Kür, Araz, İtil (Volqa), Səfidrud kimi Xəzərə axan çaylar haqqında məlumat verilir. Eyni zamanda bu kitabda Xəzərə dənizi ətrafında yerləşən şəhərlər, tayfalar, dövlətlər haqqında da məlumatlar verilir. Tədqiqatın məqsədi İbn Rustanın "Kitab əl-alaq ən-nəfisə" əsərində Xəzərlə bağlı məlumatları tapmaq və onların etibarlılığını digər mənbələrlə müqayisə edərək yoxlamaqdır.

**Açar sözlər:** İbn Rusta, Məsudi, İbn Fədlan, Xəzər dənizi, xəzərlər

# THE CASPIAN SEA, ADJACENT REGIONS AND TRIBES IN İBN RUSTA'S WRITINGS

## SUMMARY

Abu Ali Ahmad ibn Omar ibn Rustah was one of the famous geographer and explorer of 10th century. He collected his informations in "Kitab al-alaq al-nafisa" – "Book of precious pearls". In the part of "Description of seas" there is so many information about Caspian sea. We learn that ibn Rustah tryed to call Caspian sea (Khazar sea) as Tabaristan sea, Jurjan sea, el-Bab sea, Khazar sea too. In the part of "Description of rivers" there is informations about Kura, Araxes, Itil, Safidrud rivers which flow to Caspian sea. There were given information about cities which located near Caspian sea, and tribes and states which lived near Caspian sea. Aim of research was finding informations related

to Caspian sea in Ibn Rustahs "Kitab al-alaq al-nafisa" and for checking reliability was comparing it with other sources.

**Keywords:** Ibn Rusta, Masudi, Ibn Fadhlan, Caspian sea, khazars

## КАСПИЙСКОЕ МОРЕ, ПРИКАСПИЙСКИЕ ОБЛАСТИ И ПЛЕМЕНА ПО СВЕДЕНИЯМ ИБН РУСТА

### РЕЗЮМЕ

Абу Али Ахмад ибн Омар ибн Руста был из самых важнейших географов и путешественников X-го века. Свои труды он собирал в «Китаб ал-алаг ал-нафиса» - «Книга драгоценных камней». В главе «Описание морей» есть информации о Каспийским морем. Мы изучаем от ибн Руста что он называл Каспийскую морю как Табаристанское море, Джурджанское море, Море эл-Баба и Хазарское море. В главе «Описание рек» напоминается реки как Кура, Аракс, Итиль, Сафидруд которые течет Каспию. В источнике находятся информации о городах расположенные на берегах Каспия и так же племени и государства которые находились на берегах Каспия. Цель исследования был найти информации связанные с Каспийским морем и проверять их достоверность в сравнение другими источниками.

**Ключевые слова:** Ибн Руста, Масуди, Ибн Фадлан, Каспийское море, хазары

Əbu Əli Əhməd ibn Ömər ibn Rusta X əsrin ən əhəmiyyətli coğrafiyaşünas – səyyahlarından biri olmuşdur. Əslən İsfahandan olan [3, s.41] İbn Rustanın fars olduğu, Samanilər sarayında qulluq etdiyi iddia edilir [8, s.35]. Elmi ədəbiyyatda İbn Rusta uzun müddət D.A.Xvolsonun səhvi nəticəsində İbn Dasta adı ilə tanınmışdır. Lakin, sonradan M.J. de Quye bu səhvi ortadan qaldırmışdır [3, s.41-42]. Hal-hazırda tədqiqatımız üçün cəlb edilən əsəri "Kitab əl-alaq ən-nəfisə" ("Nəfis daş-qaşlar kitabı") (كتاب االعالق النفيسة) əsəridir. Bu əsərin dövrümüzə VII hissəsi çatmışdır. Əsərin bu hissəsi coğrafiya və astronomiyadan bəhs edir və öz dövrü üçün olduqca qiymətli məlumatlara sahibdir. Əsasən əsərin D.A.Xvolsonun (fraqmentar) və M.J. de Quyenin (tam) Britaniya əlyazması əsasında tərtib etdirdikləri nəşrləri məşhurdur. Eyni zamanda N.A.Karaulovanın "Qafqaz ərazilərinin və tayfalarının təsviri haqqında məlumatlar toplusu"nda da İbn Rustanın məlumatları nəşr olunmuşdur. Tədqiqatda nəşrlərin hər üçündən istifadə edilmişdir. İbn Rustanın əsərində bəzi məlumatları dəqiqləşdirmək üçün bir sıra mənbələrə, xüsusilə bölgəni yaxından tanıyan və əraziləri gəzən müasiri səyyah Məsudinin (d.896 – ö.956) verdiyi məlumatlara da diqqət yetirilib.

"Kitab əl-alaq ən-nəfisə"nin "Dənizlərin təsviri" hissəsində o dövrün dünyasında ən məşhur olan beş dənizin adı çəkilir: 1. Hind və ya Fars və ya S(Ç)in dənizi (بحر الهند و فارس و الصين). 2. Rum və ya Afrika və ya Şam dənizi ( بحر الروم و افريقية و الشام). 3. Okean dənizi, hansı ki, Məğrib dənizidir ( بحر اوقيانوس الذى هو بحر المغرب). 4. Pont dənizi (Qara dəniz) (بحر بنطس). 5. Təbəristan və Curcan dənizi (بحر طبرستان و جرجان). Məhz Təbəristan və Curcan dənizi deyilərkən İbn Rustanın qeydlərində Xəzər dənizi nəzərdə tutulur [10, s.83]. Ən maraqlısı odur ki, İbn Rustada Xəzər o dövrdə ətrafındakı əyalətlərin adı ilə adlandırılıb. İbn Rustanın sonrakı qeydlərindən də göründüyü kimi Xəzər dənizinin digər bir adı da "əl-Bab dənizi" olur ki (بحر طبرستان و جرجان و هو بحر الباب) [10, s.86], bu da məhz Xəzər sahilində yerləşən Dəmirqapı-Dərbənd şəhərinin adı ilə bağlı olub. Bulqarlarla bağlı İbn Rustanın qeydlərində isə Xəzərin adı elə Xəzər dənizi kimi də qeyd edilir (بحر الخزر) [10, s.141]. İbn Rustanın Xəzər dənizini israrla Təbəristan və Curcan kimi təqdim etmək istəməsinə baxmayaraq Əbu-l Həsən Əli ibn Hüseyn ibn Əli əl-Məsudi "Kitab əl tənbih və-l işraf" ( كتاب التنبيه و الاشراف) əsərində belə qeyd edir: Xəzəri dənizi, o ki, Xəzər, Bab əl-Əbvab, Ərminiyə, Azərbaycan, Muğan, Cil (Gilan), Deyləm və Abaskun dənizidir. Təbəristan, Curcan və Xarəzmə sahili var (البحر الخزري هو بحر الخزر و الباب الابواب و ارمينية و آذربيجان و موقان و الجيل و الديلم و آبسكون و هى ساحل جرجان و طبرستان و خوارزم ) [11, s.60]. İbn Rusta Xəzər dənizi haqqında qeyd edilir ki, onun qərbdən şərqə uzunluğu 1800 mildir, eni isə 600 mildir ( ميل طوله من المغرب الى المشرق الف و ثمان مائة ميل و عرضه ستمائة) [10, s.86]. Məsudi isə qeyd edilən əsərində Xəzər haqqında məlumat verərkən dənizin ölçüləri haqqında uzunluğunun 800 mil, eninin 600 mil olduğunun qeyd edir [11, s.60]. Eyni zamanda Məsudi Xəzər dənizinin zahiri formasının bağırsağa bənzədiyini qeyd edir [11, s.60; 7, s.31]. Xəzər dənizinin maksimum şimaldan cənuba uzunluğunun 1200 km, şərqdən qərbə 500-530 km olduğunu nəzərə alsaq Məsudinin izahlarının daha doğru olduğunu görərik. Bu məlumat İbn Rustanın coğrafi biliklərinin aydın- laşdırılmasından ötrü çox vacibdir. "Ərminiyə dənizi" qeydi İbn Rustanın Xəzərdənizinin coğrafi mövqeyini qeyd edilərkən çəkilir. Ərminiyə dənizinin Xər- çəng bürcündən 21 cüz şimala uzandığı, şimalda yerləşdiyi qeyd edilir. Şimalında şiddətli küləklərin hökm sürdüyü, qatı zülmətin olduğu və insanların olduğu qeyd edilir [10, s.88]. Belə ki, Xərçəng bürcü 23.5° şimal enliyində yerləşir. Ondan 21 cüz şimala 44° şimal enliyi edir ki, bu enlik də Xəzərdənizindən keçir. Bu onun göstəricisidir ki, İbn Rustanın coğrafi bilgiləri kifayət qədər doğruya yaxın olsa da, çox da mükəmməl olmamışdır. Qeydedilməlidir ki, bu ad güman ki, Cənubi Qafqazda mövcud olan inzibati –bölgü sistemi ilə əlaqəli olmuşdur. Məqalənin sonrakı hissələrində bu ad haqda daha geniş məlumat veriləcəkdir.

Həmin əsərin "Çayların təsviri" bölməsində Xəzər dənizinə Azərbaycan tərəfdən tökülən çaylar diqqəti cəlb edir. İbn Rusta böyük çaylar sırasında Araz çayının (نهر الرس) adını qeyd edir. "Araz Ərminiyə vilayətinin (inzibati

vahidinin) çayıdır, Qaliqaladan çıxır, Adas (العدس) nahiyəsinin rustaqı və onun bazarı (سوقه) -mərkəzindən axıb keçməyə davam edir və Dəbillə axır, buradan keçib Mədainlə axır (يمر بالمداين)." M.J. de Quye Mədainə etdiyi qeyddə bunun heç şübhəsiz Arran olduğunu qeyd etmişdir (Sic sine dubio pro بالران) [10, s.89]. Bu elə İbn Rustanın Araz haqqında sonrakı qeydlərində də özünü göstərir və Mədain ifadəsini dəqiqləşdirir: "Araz Qaliqaladan çıxır və Aranla (بالران) axır, burada ona Arran çayı (نهر اران) tökülür. Sonra Araz çayı Varsanla (ورثان) Bərzəncə keçir və Kürlə birləşdiyi yerə qədər axır. Birləşib Təbəristan (Xəzər) dənizinə tökülür." Arazla Kürün arasında Beyləqanın (البيلقان) olması çox əhəmiyyətli məlumatdır. Ən əhəmiyyətli məqam Arran çayı ilə bağlıdır. Arranın indiki hansı çay olması mənbədən dəqiq bilinmir. Qaliqaladan (Ərzurumdan) Araza axan ən böyük çaylar - Qərbi (Axurian) Arpaçay (başlanğıcını Şirəkdəki Arpa gölündən götürür – 186 km) və Şərqi Arpaçaylar (başlanğıcını Cənubi Göyçə (Vardenis) dağlarından götürür -128 km), Zəngi çayı (Hrazdan, başlanğıcını Göyçə gölündən İrəvanı keçərək – 141 km), Bərgüşad/Bazarçay (178 km – Araza çox az qalmış Həkəriyə qovuşur), Həkəri (155 km) kimi çayların hamısının tarixi Azərbaycan ərazisindən axması onlardan hər birinin Arran çayı olması ehtimalını verir. Lakin, bu çayların arasında Bazarçay/Bərgüşadın Kürlə birləşmə nöqtəsinə yaxınlığı, digər çaylara nisbətlə Dəbildən Kürlə Arazın birləşmə nöqtəsinə qədər olan ərazidə çayın Arranın ortasında olması, onun Arran çay olması ehtimalını daha çox gücləndirir. Aran əhalisinin, Araz ətrafı əhalinin Xilafətin həyatında mühüm yer tutması, xəzərlərlə çox yaxın olması, ərəb-xəzər əlaqələrində mühüm rol oynamaları bir çox mənbədə qeyd olunmuşdur. İbn Fədlanda Bulqar hökmdarı Almışa göndərilən elçilik heyətinin içində demək olar ki, hamısının türk və ya nisbəsinin türklərlə əlaqəli olması (Tigin əl-Türki, Bars əl-Səqlabi, Sevsən (Süsən-R.M.) əl-Rassi [14, s.69] ) Sevsən əl-Rassinin (سوسن الرسى) də türklərlə əlaqəli olduğunu düşünməyə əsas verir. Çox güman ki, əl-Rassi nisbəsi bir başa Araz çayı ilə əlaqəli olub və Süsən Arazətrafı bölgələr də daxildir.

İbn Rustadakı digər maraqlı qeyd Kür çayı ilə bağlıdır. İbn Rustanın coğrafi biliklərinə görə Kür çayı əl-Landan (الالن) çıxır. Tiflis (التفليس) və Bərdədən (برذعة) keçir və Təbəristan dənizinə axır [10, s.89]. Bilinir ki, Kür öz başlanğıcını Qarsın Səlim ilçəsindən götürür, buraların isə əl-Lana heç bir aidiyyatı yoxdur. İbn Rustanın dediyi dövrdə Dəryal keçidindən qərbdə yerləşən əl-Landa Böyük Liaxvi və Ksani çayları Kürə qovuşurdu. Yəqin ki, bununla İbn Rusta Kürün başlanğıcını Böyük Liaxvi çayı (115 km) və ya Ksani çayı (84 km) ilə götürmüşdür. Məsudi də Kürün Tiflis ölkəsindən və Suğdəbil şəhərindən axdığını, daha sonra Bərdəyə keçdiyini, Arazla birləşdiyini, Arazın həm də Varsan adlandığını (هو نحر ورثان) qeyd edir [11, s.62]. Güman ki, o dövrdə Kür çayının başlanğıcı ərəb coğrafiyaşünasları üçün əl-Landan götürülürmüş.

Daha sonra İbn Rusta Səfidrud çayı haqqında qeyd edir ki, o Bab-Sisərdən çıxır, Azərbaycan ölkəsindən keçərək Deyləmdə Təbəristan dənizinə tökülür. Şahrud da Səfidruda birləşib Xəzərə tökülən çay kimi qeyd edilir [10, s.89].

Daha sonra İbn Rusta Dünyanı yeddi iqlimə bölür (الاقاليم السبعة) [10, s.96]. Xəzər dənizi ilə bağlı tədqiqata maraqlı olanlar dörd, beş, altı və yeddinci iqlimlərdir. Hər dörd iqlimə Xəzər dənizi düşür. Şərqdən başlayıb ( يبتدئ من المشرق) Tibet tərəfdən davam edən dördüncü iqlimdən (الاقليم الرابع) Xəzərin birbaşa adı keçməsə də Təbəristan (طبرستان), Curcan (Gürgan) (جرجان), Deyləmin (ديلم ) adının çəkilməsi ilə Xəzərin cənub sahillərinin dördüncü iqlimə uyğun gəlməsini müşahidə edirik. Bu iqlim də Kipr və Rodos adalarından ( قبرس و رودس جزيرة) keçərək Məğrib dənizində bitir (ينتهى الى بحر المغرب) [10, s.97-98].

Beşinci iqlim şərqdə yəcuclar ölkəsindən (بلاد ياجوج) başlanır, Xorasan, Xarəzm və daha sonra Azərbaycana (آذربيجان) keçir. İbn Rusta bu iqlimdə Bərdə, Nəşavə (نشوى), Sisəcanın (سيسجان) adlarını çəkir. Beşinci iqlim Əndəlüsdən keçib Məğrib dənizində bitir [10, s.98]

Şərqdən başlayıb məcuclar ölkəsinə (بلاد ماجوج), oradan da Xəzər ölkəsinə (بالد الخزر) keçən altıncı iqlim Xəzər-Təbəristan dənizini İbn Rustanın dili ilə deyilsə kəsir (يقطع بحر طبرستان) [10, s.98]. Daha sonra Konstantiniyyə (İstanbul) tərəfə və oradan da Məğrib dənizində bitir.

Yeddinci iqlim isə yəcuclar ölkəsinin şimalından başlayır, türklərin ölkəsinə (بالد الترك) keçir, Xəzər dənizinin şimal sahillərindən Rum dənizinə keçir, Burcan (برجان) və səqaliblərin (صقالبة) ölkəsini keçərək Məğrib dənizində bitir.

Yeddinci iqlimin arxasında bilinən məskun torpaqların sırasında ( و اما ما وراء هذه الاقاليم الى تمام الموضع المسكون الذى عرفناه) İbn Rusta Yəcuc ölkəsi, Toğuzğuz ölkəsi (بالد التغزغز), türklərin yeri (ارض الترك), alanların ölkəsi (بالد االالن), avarlar (االبر) (açıqlamada tatarların (التتر) ), daha sonra Burcan və səqaliblərdən Məğrib dənizinə qədər ərazilərin adını çəkmişdi [10, s.98].

"İranşəhr və Savadın sifətləri" bölməsində İbn Rusta Azərbaycan şəhərləri və Xəzər dənizi sahilləri haqqında bir məlumat vermir, əsasən mərkəzi İran əyalətləri haqqında məlumatlar verilir [10, s. 103-105]. Lakin "İranşəhrin qismləri" bölməsində bir neçə ölkə adını çəkməklə burada nəzərdə tutulanın Sasani imperiyasının siyasi bölgüsünün olduğunu, coğrafi cəhətdən isə İran yaylasının nəzərdə tutulduğu müşahidə edilir. İranşəhrin ölkələri (بلدان) bunlardır: Xorasan, Sicistan, Kirman, Fars, Əhvaz, Cibal, Azərbaycan, Ərminiyə (inzibati bölgü olaraq), Mosul, əl-Cəzirə, Şam, Suristan (Suriyanın digər adı) [10, s.105]. Cibalda yerləşən həm də ona aid olmayan, lakin, Xorasana da aid olmayan vilayət və şəhərlər arasında Xəzər dənizinə sahili olan Təbəristanın və Curcanın adının çəkilməsi burada qeyd edilməlidir. Güman ki, İbn Rusta "nə Xorasana, nə Cibala aiddir" deyərkən məhz bu iki əyaləti nəzərdə tutub ( و مما ينسب الى الجبل و ليس منه و ال من خراسان) [10, s.106].

Azərbaycana aiddir: Ərdəbil, Mərənd, Bacərvan, Varsan, Marağa. Ərminiyəyə aiddir: Arran, Curzan, Nəşəva, Xilat, Dəbil, Sirac, Suğdəbil, Ərciş, Bəcuneys, Sisəcan və Bab əl-Əbvab [9, s.106]. Nəzərə alsaq ki, Ərminiyəni digər ərəb müəlliflərinin adətən bir neçə Ərminiyəyə bölməsi və Ərminiyənin inzibati bölgü olaraq göstərilməsi (məsələn: İbn Xordadbeh, Bəlazuri) [1, s.136-137; 4, s.34-35] İbn Rustanın Ərminiyə bölgüsü məsələsinə diqqətlə yanaşmadığını göstərir. Məsələn, İbn Xordadbeh "Kitab əl-Məsalik əl-məmalik"də Ərminiyəni dörd yerə bölür, əs-Sisəcan, Arran, Tiflis, Bərdə, Beyləqan, Qəbələ, Şərvanı birinci Ərminiyədə göstərir. Əsas Ərminiyə şəhərləri isə dördüncü Ərminiyədə qeyd edilir: Şimşat, Xilat, Qaliqala, Arciş, Bacuneys. Bunun ardınca qeyd edilir ki, Arran, Sisəcan, Curzan (ikinci Ərminiyə) Xəzər məmləkətində idi [13, s.122; 8, s.13; 6, s.54-55]. Bəlazurinin "Futuh əl-Buldan"ında Şimşat, Qaliqala, Xilat, Ərciş, Bacuneys dördüncü Ərminiyənin tərkibində verilir. Sisəcan və Arran isə birinci Ərminiyənin tərkibində göstərilir [12, s.272-273]. N.M.Vəlixanlı qeyd edir ki, ərəblər hələ Azərbaycan torpağına qədəm qoymamış 639-640-cı illərdə Bizans tərkibindəki erməni torpaqlarını ələ keçirmiş, daha sonra ərəb işğal zonasını idarə edən ərəb canişininin qərargahı Dəbil-Dvində olmuş, özlərindən əvvəlki Bizans üsul-idarəsini saxladıqları üçün bu yerlərin əvvəlki Ərminiyə adını da saxlamışdılar. Daha sonra Albaniya və Gürcüstan ərazilərinə daxil olan ərəblər Qafqazda tutduqları əraziləri, azərbaycanlıların, gürcülərin, ləzgilərin və b.-nın yaşadıqları yerləri də əvvəlki işğal zonasına qatmış, bu yerlərin hamısını, idarə etmək asan olsun deyə, əllərində olan Ərminiyə vilayətinin adı ilə adlandırmış, Cənubi Qafqazdakı işğal zonasının idarəsini isə Dəbildə oturan canişinə həvalə etmişlər. Digər bir səbəb isə erməni din xadimlərinin Bizansa qarşı ideoloji mübarizə aparması və Xəlifənin erməni din xadimlərinə xüsusi iltifat göstərməsi idi [4, s.34]. İnzibati bölgü sistemində əvvəllər Sasanilərin idarəçiliyini eynilə tətbiq edən Xilafət [1, s.136] sonrakı bölgünün təkmilləşdirmə zamanı Bizansın da təcrübəsindən istifadə etmiş, Ərminiyə adı və onun bölgüsünü I Yustinianın (527-565) 536-cı ildə keçirdiyi islahatdan miras almışdılar [4, s.34]. Nəticədə etnik sərhədlər pozulmuşdu.

Xəzərətrafı tayfalardan və ölkələrdən danışarkən xəzərlər və onlara tabe xalqların qurduğu dövlətlər qeyd edilməlidir. İbn Rusta Xəzər (الخزر) adlıxüsusi bir bölmədə xəzərlər haqqında məlumatlar vermişdir. O, peçeneqlərlə (البجاناكية) xəzərlər arasındakı yolun ongünlük meşəlik və səhralıq ərazidən keçdiyini qeyd edir. Bu iki ölkə arasında gedilən, bilinən yol (طريق مسلوك) və məqsədli, xüsusi böyük yollar (مناهج مقصودة) yoxdur [10, s.139; 9, s.15-16].

İbn Rusta Xəzər ölkəsinin böyük ölkə olduğunu qeyd edir. Bu ölkə bir tərəfdən böyük dağlara çatır. Bu dağların ucqarlarında tulaslar (طوالس) və luğarlar (لوغر) yaşayırlar. Bu dağ Tiflis ölkəsinə (بلاد تفليس) qədər uzanır. De Quye luğarların hansı millət olduğunu müəyyənləşdirməkdə çətinlik çəkir [9, s. 16]. Luğardakı (غر) və quz-ğuzzdakı (غز) luğarların oğuzların fərqli qolu və ya oğurlar ola biləcəyi ehtimalını irəli sürmək olar. D.A.Xvolson da oğuz varian-

tını inkar etmir. “Luğar” üçün D.A.Xvolson “qırğız” variantını irəli sürsə də qırğızın ərəbcə (خيرخيز) şəklində yazılması və bu regiondan uzaqda- daha şimal-şərqdə yaşaması, luğarın digər yazılışlarının “Kərğara” (كرغره) və “Ğaznar” (غزنار) olması onun bu fikrinə ehtiyatla yanaşmağa vadar edir və “ğaznar”ın üzərində dayanmağın vacibliyini qeyd edir. Adın ikinci hissəsinin isə oğuzlarla əlaqələndirilməsini qeyd edir. Tulas isə aydınlaşdırılmamış qalır [9, s.53-54].

İbn Rusta Xəzərlərin ən böyük hakiminin Xəzər xaqanı olduğunu, məliklərinin isə “İşa” (ايشا) olduğunu qeyd edir. İbn Rusta Xaqanın sadəcə formal hökmdar olduğu, real hakimiyyətin İşanın əlində cəmləşdiyini qeyd edir [10, s.139]. İşanın “Aşina” nəslinin ərəb variantı olduğunu da güman etmək olar. Xəzərlərin hökmdarları, həmçinin İşa yəhudi dinindədir. Lakin, əsilzadələr və hərbi əyanlar digər xəzərlər kimi türklərin dininə bənzər dinə ( دين شبيه دين على الاتراك) sitayiş edirlər.

Bu məlumatdan görünür ki, yəhudiliyin qəbulu xəzərlərdə hansısa siyasi məqsədlə əlaqəli olmuşdur. Belə ki, şəhərlərin adlarını çəkərkən İbn Rusta qeyd edir ki, Saraşin (سارعشن) və Hab Nəla (هب نلع) şəhərlərində müsəlmanlar yaşayır, onların öz məscidləri, imamları, müəzzinləri və məktəbləri (كتاتيب) var [10, s.140]. Bu onu sübut edir ki, xəzərlərin arasında türklərin təktanrıçılıq dini ilə yanaşı İslam da geniş yayılmışdı. Eyni zamanda İbn Fədlanın “Səyahətnamə”sində Bulqar hökmdarı tərəfindən Xəlifə əl-Müqtədirə Abdullah ibn Baştu əl-Xəzərinin (عبدالله ابن بشتو الخزرى) elçi olaraq göndərilməsi [5, s.1-2; 14, s.69] xəzərlərdə həm bu dinin əvvəldən, həm geniş kütlələrə və geniş arealda yayılmasının, Xilafətlə diplomatik və mədəni əlaqələrin mütəmadi olması nəticəsində Xəzər ölkəsində ərəb dilini bilən diplomatların yetişdiyinin sübutu idi. Qışda əhalinin şəhərlərdə yaşaması, yaz gəlincə ovalıqlara-səhralara çıxmasını və qış yaxınlaşana qədər oralarda qalmasını məlumat verən İbn Rusta xəzərlərdə yarımköçəri yaşayış tərzinin olduğunu göstərmişdir. Eyni zamanda xəzərlərin hər il peçeneqlər üzərinə hərbi və qarətçi yürüşlər etdiyi məlum olur [10, s.140; 9, s.18].

Əlyazmada xəzərlərə tabe olan burdaslar haqqında da məlumat verilmişdir. Burdaslar xəzərlərin ordusuna yürüşlərdə 10 min süvari verirdilər. İnancları oğuzların inanclarına bənzərdir. İbn Fədlan oğuzların inancları haqqında onların səmadakı “bir Tanrı”ya inandıqlarını [14, s.10], başqırdlarda isə bir neçə tanrı olduğunu, lakin, göydəki rəbbin - Göy Tanrının bunların arasında ən güclü olduğunu bildirir [14, s.20]. Güman ki, başqırd-burdasların dini də oğuzların dininə çox yaxın din imiş və ya İbn Fədlan ruh və ya qüvvələri tanrı kimi qələmə verib. İbn Rusta deyir ki, burdasların bəziləri ölülərini yandırır, bəziləri basdırır. Bu da güman ki, onlarda din fərqliliyinin göstəricisidir. Onların çoxlu dəvələri, davarları, arı balı var və əsas malları samur dərisidir [10, s.140-141].

Xəzərlərə qismən tabe olan bulqarlar haqqında olan qeydlərdə bulqarların Xəzər dənizinə (بحر الخزر) axan İtil (اتل) adlanan çayın sahilində yaşadığı qeyd

edilir. Bulqarların hökmdarı Almış (ألمش) adlı şəxsdir və müsəlmandır [10, s.141]. Eyni qeyd İbn Fədlanın səyahətnaməsində də təsdiqlənir [5, s.1-2]. Bulqarların çoxu müsəlmandır və yaşayış məntəqələrində (محالهم) məscidləri və məktəbləri, onlarda isə müəzzinləri və imamları (pişnamazları) var. Hətta geyimləri də müsəlman paltarlarına bənzəyir [10, s.141; 9, s.23]. Bu məlumat özlüyündə çox dəyərlidir. Xəzər dövlətinin yanında və ya daxilində bu qədər çox müsəlman türklərin yaşaması, hökmdar səviyyəsində İslamın qəbulu üç məsələyə diqqəti cəlb edir: 1. Güman ki, xəzərlər arasında da İslam kifayət qədər geniş yayılmışdı ki, bu din daha şimaldakı bulqarlar arasında bu cür geniş və rahat yayıla bilmişdi. Yuxarıda da qeyd edildiyi kimi İbn Fədlanın “Səyahətnamə”sində Bulqar hökmdarı tərəfindən Xəlifə əl-Müqtədirə Abdullah ibn Baştu əl-Xəzərinin elçi olaraq göndərilməsi də bunun sübutlarından biridir. 2. Ərəblərin xəzərlərin dövlətindən şimala keçmədiyini, Xarəzmlə bulqarların arasında oğuzlar və peçeneqlər olduğunu nəzərə alsaq iddia edə bilərik ki, bulqarlar arasında İslam tam dinc, əmin-amanlıq və sülh şəraitində yayılmışdır. 3. Türk dünyasında İslamı ilk dəfə qəbul edən toplumun Qaraxanlılar olduğuna yenidən baxılmalıdır. İlk müsəlmanların xəzərlər və ona tabe olan digər türk xalqları olması versiyası nəzərdən keçirilməlidir. Əlbəttə, bəzi yerlərdə bulqarların xəzərlərdən qismi asılılığı nəzərə çarpsa da, Bulqar hökmdarının oğlu Xəzər xaqanının yanında girov saxlanılsa da Bulqar xaqanının müstəqil xarici siyasət yürütməsi, müdafiə üçün qala tikməsi [14, s.37], qərarlarını sərbəst verməsi onun tam müstəqil hökmdar olduğunu göstərir.

Bulqarlar özləri üç hissəyə bölünür: Bərsula (برصولا), Əsəğal (اسغل), Bulqar (بلكار) [10, s.141]. D.A.Xvolson Barsulaya verdiyi şərhdə Barsulanın bulqarlardan olub Xəzər dənizi ətrafında yaşadığını və Volqanın mənsəbindən çox uzaqda yaşamadığını qeyd edir və xəzərlərlə əlaqəli tarixi Barsiliyyənin məhz burada yerləşdiyini qeyd edir [9, s.94].

Xəzər torpaqlarının içində Sərir torpaqları yerləşir. Məlik(lərinin) qalası (قلعة الملك) çox hündür yerdə-dağın başında yerləşir [10, s.147]. Bu qaladan Xayzana (خيزان) gedən yol var, onların da Azərnərsə (اذرنرسى) adlı hökmdarı var. Bu hökmdar üç dinə qulluq edirdi (يتمسك بالثلثة اديان): Cümə günü müsəlmanlarla, Səbt günü (şənbə günü) yəhudilərlə, bazar günü xristianlarla. Azərnərsə bunu qeyd edilən dinlərin həqiqətini dərk etməkdən ötrü edirmiş [10, s.148]. Bu əlamət onu xəzərlərə yaxınlaşdırırdı. Məsudi “Qızıl yuyulan yer və cəvahirət mədənləri” əsərində qeyd edir ki, X əsrin I yarısında Şəkidə hökmdar Adernerse ibn Hamam idi [7, s.57; 3, s.61]. Şirinbəy Əliyev Məsudidəki Şəki hökmdarı və İbn Rustadakı Xayzan hakiminin eyni şəxs olduğunu qeyd edir [2, s.122]. Çox güman ki, bu şəxs məhz Albaniya-Şəki hakimi Adernerse olmuşdur.

Xəzər sahilində olan ölkələrdən (بلاد) biri də Təbəristandır. Təbəristan şərqdən Curcanla və Qumislə, qərbdə Deyləmlə, şimaldan dənizlə (البحر) (Xəzər), cənubda Qumisdən sonra Reylə əhatələnib. Uzunluğu Curcandakı Ribat adlanan birinci sərhəddindən Astrabad və Tamis üzərindən ən axırıncı

Deyləm sərhəddinə qədər əlli fərsəxdir. Eni Qumisin yanından axıb Dənizin (Xəzər) sahillərinə tökülən Səfuhla (سفوح) götürmək olar -müxtəlifdir- bəzi yerlərdə 36 fərsəx, bəzi yerlərdə 40 fərsəxdir [10, s.149]. İki məşhur, bilinən yol vardır: Curcandan çıxmaq üçün istifadə edilən dağ ayaq tərəfdən sol yol və sağ asan yol.

Təbəristanda on dörd kurra var: Amul - o qəsəbədir, Səriyə, Məmatir, Turunca, Rubist, Milə, Mərari Kədah (مراركده), Mehrəvan, Tamis, Təmmar, Natil, Şaluş, Ruyan, Kəlar. Təbəristanın Curcanla sərhədində birinci şəhəri Tamisdir [10, s.149-150]. Ora böyük bir yol vardır: Təbəristan əhlindən Curcana çıxan və Curcandan Təbəristana gedən vilayətlərə daxil olduqlarını təxmin edə bilmirlər. Ancaq bu yolda dağlardan dənizin içlərinə Acarrdan (آجر) uzadılmış divarlar var ki, Xosrov Ənuşirəvan (كسرى انوشروان) tərəfindən Təbəristanla türklərin və digərlərinin hücumlarının arasına maneə olmaq üçün inşa edilmişdir [10, s.150]. Buradan çıxan nəticə odur ki, Xosrov Ənuşirəvan dövründə, VI əsrdə göytürklər, ağhunlar və Sasanilər arasında sərhəd Təbəristandan keçirdi və Curcan bu dövrdə türklərin əlində idi.

"Tamisdə çoxlu insan yaşayır, böyük came-məscidləri, rütbəli başçısı ( قائد مرتب) var [10, s.150]. Daha sonra Səriyə şəhəri, ondan sonra Amul şəhəri gəlir. Amulda min nəfər dəstəsi olan başçı var. Burada Təbəristan xalıları ( الفرش الطبري) istehsal edilir" [10, s.150]. Sonra Ruyan gəlir ki, o Təbəristandan olmayıb, fərdi ölkə şəklindədir əvvəllər Deyləmə aid olub [10, s.150]. Deyləm hüdudunda Şəluş adlı şəhər də var ki, orada məscid came və minbər vardır... Buradakı dağ sahildədir və dənizlə əlaqəlidir (متصلة بالبحر) [10, s.150-151]. Orada (İslam) din(in)ə mənsub qövm var, məscidlər tikirlər və Şəluş əhli onlarla evlənirlər. Onlar Deyləmlə Təbəristan valiləri ilə birgə vuruşurlar. Bu şəhərin əsası Məmunun dövründə qoyulmuşdur [10, s.151]. Bu şəhərin dağındakı və onun arxasındakı qövmlər deyləmlilərdir və onlara tabe olmurlar. Kəndləri və dağları Ərminiyə dağları və Bab əl-Əbvabla əlaqəlidir (yəni dağlar oraya qədər uzanır) [10, s.151]. Bu məlumatlarda deyləmlilərin hələ bu dövrdə müstəqil olduğu, hər hansı bir siyasi quruma tabe olmadığını bildirir.

İbn Rusta Xəzərin şərq sahilində yaşayanlarla bağlı demək olar ki, heç bir əhəmiyyətli məlumat vermir. Buna baxmayaraq digər mənbələrdə, xüsusilə İbn Fədlanda Xəzərin şərq sakinləri, oğuzlar haqqında geniş məlumat tapmaq olur. Bu mənada İbn Rustada verilən məlumatlar mükəmməllikdən qismən uzaqdır, bir çox hallarda yəqin ki, hansısa mənbədən köçürmədir və mənbə əsas kimi götürülərkən dövrün digər mənbələri ilə araşdırılmalı, müqayisəli-təhlil metodundan istifadə edilməlidir.

## Ədəbiyyat:

1. Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. - Bakı, Azərnəşr, 1989 – 336 s.
2. Hacıəli Ş. Şimal–Qərbi Azərbaycan: İngiloylar. (I kitab: ən qədim zamanlardan XIII əsrin ortalarınadək). Bakı: Təhsil nəşr., 2007, 277 s.
3. Vəlixanlı N.M. IX-XII əsr ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında. Bakı, "Elm" nəşriyyatı,1974 – 223 s.
4. Vəlixanlı N.M. Ərəb Xilafəti və Azərbaycan. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1993 – 157 s.
5. Ramazan Şeşen. İbn Fadlanın seyahatnamesi. İstanbul, Yeditepe yayınevi, 2010 – 180 s.
6. Велиханова Н.М. Изменение исторической географии Азербайджана в результата арабского завоевания / В сб.: Историческая География Азербайджана. Баку: Издательство «Элм», 1987, с. 46-87
7. Сведения арабских географов IX и X веков по Р. Хр. о Кавказе, Армении и Адербайджане. Перевод и примечания Н.А.Караулова // Сборник материалов для описания местностей и племень Кавказа, Вып 38-й, Тифлис, 1908. с.1-130
8. Сведения арабских писателей о Кавказе, Армении и Адербайджане. III. Ибн-Хордадбэ. IV. Кудама. V. Ибн-Рустэ. VI. Ал-Якубий. Перевод и примечания Н.А.Караулова // Сборник материалов для описания местностей и племень Кавказа, Вып 32-й, Тифлис, 1903. с.1-63
9. Хвольсон Д.А., Известия о Хозарах, Буртасах, Болгарах, Мадьярах, Славянах и Руссах Абу - Али Ахмеда Бен Омар Ибн Даста. С.-Петербург, Тип. Императорский Академии Наук, 1869 – 213 с.
10. ابن رسته، ابو على احمد بن عمر. المجلد السابع من كتاب االعالق النفيسة (1-222). مدينة ليدن، بمطبع بريل، 1921، ص.093
11. ابو الحسن على بن الحسين بن على المسعودى. كتاب التنبيه واالشراف. مدينة ليدن، بمطبع بريل. در صادر، بيروت، 1921 - ص. 839
12. ابو العباس احمد بن يحيى البالزرى. فطوح البلدان. حققه و شرحه عبداهلل انيس الطباع وعمر انيس الطباع . مؤسسة المعاف. جميع حقوق الطبع محفوظة.بيروت – لبنان، 1291 – ص. 169
13. ابو القاسم عبيد اهلل بن عبد اهلل ابن خرداذبه. المسالك و الممالك. مدينة ليدن، بمطبع بريل.1992 –ص. 039
14. احمد بن فضالن بن العباس بن راشد بن حماد. رسالة ابن فضالن. مطبوعات المجمع االسالمي العربي بدمشق. دمشق، 1282، ص. 238

**UOT 39(4/9)**

# POLYAK XALQININ ETNİK TARİXİNİN XARAKTERİK CƏHƏTLƏRİ

**Mehparə TAJDEHİBONAB**
Azərbaycan Dillər Universiteti
Bakı / AZƏRBAYCAN

m.tajdehibonab@gmail.com

## XÜLASƏ

Məqalədə polyak xalqının etnik tarixi, mənşəyi, qədim yaşayış məskənləri, təsərrüfat həyatı, maddi və mənəvi mədəniyyəti, dili, geyimləri, mətbəxi, ailə-məişəti araşdırılır. Eyni zamanda polyak xalqının dinamika və tempinin xarakterinə sosial və siyasi amillərın təsiri, dövlət qurumlarının yaranmasının polyak xalqının etnososial inkişafında keyfiyyətcə yeni mərhələyə - xalqın formalaşmasının başlanmasına qədəm qoymasına yardım etməsi məqalədə geniş araşdırmaya cəlb edilmişdir.

Həmçinin, müəllif faktik materiallar şərh edilərkən ənənəvi tarixi ardıcıllıq prinsipinə, hadisə və proseslər işıqlandırılarkən siyasiləşmədən uzaq olmağa üstünlük vermişdır.

**Açar sözlər:** Polşa, polyak, etnik tarix, adət-ənənə.

# ХАРАКТЕРНЫЕ ЧЕРТЫ ЭТНИЧЕСКОЙ ИСТОРИИ ПОЛЬСКОГО НАРОДА

## РЕЗЮМЕ

В статье рассматриваются этническая история, истоки польского народа, древние поселения, экономическая жизнь, материальная и духовная культура, язык, одежда, кухня и семейная жизнь. В то же время влияние социальных и политических факторов на природу динамики польского народа широко изучено в статье тем фактом, что создание государственных институтов привело к качественно новому этапу этнического развития польского народа - началу формирования народа.

Кроме того, автор предпочел избегать политизации традиционного принципа исторической последовательности при комментировании фактических материалов, освещении событий и процессов.

**Ключевые слова:** Польша, польяк, этническая история, обычаи и традиции.

# THE CHARACTERISTIC FEATURES OF THE ETHNIC HISTORY OF THE POLISH PEOPLE

## SUMMARY

The article is dealt with the ethnic history, origin, ancient settlements, daily lives, tangible and intangible culture, as well as the language, clothes, cuisine, and household of the Polish people. Besides, the impact of social and political trends on the characteristic features of the Polish people and the role of the establishment of public institutions in the ethno-social development of the said people, which has also paved the way for shaping the nation, has been studied thoroughly. When interpreting historical documents the author has remained faithful to the chronological sequence, while avoided politicizing the episodes and processes.

**Keywords:** Poland, polish, ethnic history, customs and traditions.

Polyaklar Polşanın əsas əhalisini təşkil edir. Polyakların dünyada ümumi sayı 55 milyondan çoxdur. Polyak dili Hind-Avropa ailəsinin slavyan qrupuna daxildir. Yazıları latın əlifbası əsasında formalaşmışdır. Dinə etiqad edənlərin əksəriyyəti katoliklər, çox az hissəsi isə protestantlardır.

Müasir Polşanın ərazisi, daha doğrusu Yuxarı və Aşağı Vislanın, həmçinin Pripyat çayı hövzəsinin çox hissəsi bir çox tədqiqatçılar tərəfindən slavyan xalqlarının vətəni kimi qəbul edilir. Roma imperiyasının çiçəklənmə dövründə Polşada yaşayan slavyan tayfaları Roma və onun vilayətləri ilə sıx iqtisadi əlaqələr yaratmışdılar. Visla mühüm ticarət yolu idi. Bu isə Baltik sahilinin Lakiyada olan Roma vilayətləri ilə birləşdirirdi. Roma imperiyasının böhranı dövründə slavyan tayfaları almanları qərbə doğru sıxışdıraraq Laba və Odra çayları arasında məskunlaşdılar. Slavyanların üç qrupa bölünməsi də bu dövrə aiddir. Quldarlıq quruluşunun heç vaxt inkişaf etmədiyi slavyan torpaqlarında, bütün Avropada olduğu kimi erkən feodal cəmiyyətinin formalaşması üçün şərait yarandı.

IX əsrə kimi polyakların torpaqlarında çoxsaylı slavyan tayfaları məskunlaşmışdı və ayrı-ayrı icmalarda yaşamalarına baxmayaraq, onları etiqadları, adətləri, torpağı becərmək metodları və ticarət etmək üsulu yaxınlaşdırırdı. Bütün bunlar onların polyaklar dövlətində birləşməsini asanlaşdırdı [1, s.6].

Polyak xalqı qədim Polşa dövlətinin formalaşması və inkişafı nəticəsində yaranmağa başlamışdır. Onlar haqqında ilk məlumat X əsrə aid edilir. Polşa dövlətlərinin yaranması və inkişaf dövrü eyni zamanda polyak xalqlarının formalaşması dövrü idi. Onun etnik əsasını polyaklar, silezlər, mozovanlar və pomoryanlar təşkil edirdi. Polşa slavyanlarının ayrı-ayrı qrupları arasında iqtisadi və mədəni əlaqələrin genişlənməsi, polyak xalqının birliyinə gətirib çı-

xardı. Lakin birləşmə prosesi Polşanın ayrı-ayrı rayonlarında müxtəlif cür gedirdi: Kiçik Polşa və Sileziyada tez, Mozoviya və Şərqi Pomoryedə nisbətən zəif, Qərbi Pomoryedə xeyli zəif. Bu ərazidə yaşayan əhalinin digər polyak slavyanları ilə əlaqələrinə baxmayaraq, burada xüsusi bir xalqın təşəkkül tapması qeyd edilməlidir. X əsrin axırları XI əsrin əvvəllərində Polska dövləti adı və onun əhalisi olan polyaklar adı meydana çıxdı. Onun əsasını, qərbi slavyan tayfaları – polyan, slenzan, vislyan, mazovşan, pomoryan birləşmələri təşkil edirdi [2, s.446].

Polyan torpaqlarının qalan hissəsi ilə Pomoryenin birləşdirilməsi prosesi yalnız Qədim Polşa dövləti ilə siyasi əlaqələrin möhkəm olmaması ilə deyil, eyni zamanda, sosial-iqtisadi və mədəni inkişafın unikallığı ilə də məhdudlaşdırıldı. Polyan, slenzan və vislyan tayfalarının danışıq dilləri oxşar idi. Siyasi parçalanma dövründə (XI-XIII əsrlər) Polşa torpaqları ayrıldı, lakin onların arasında mədəni və iqtisadi əlaqələr kəsilmədi. Alman ekspansiyası və siyasi parçalanmanın aradan qaldırılması (XIII-XIV əsrlər) müqavimətində Polşa torpaqları birləşdi, xalqları arasında əlaqələr genişləndi və gücləndi. Eyni zamanda almanlar (Aşağı Sileziya, Pomorye, Mazuriya, Qərbi Böyük Polşa) tərəfindən tutulan qərb və şimal torpaqlarının almanlaşdırılması prosesi davam edirdi.

XIV-XV əsrlərdə Polşa dövlətinin torpaqlarının birləşməsi polyak xalqının XVII əsrdə intensivləşən milli birlik prosesini sürətləndirdi. Çoxmillətli dövlət - Reç Pospolita çərçivəsində Polşa xalqının birləşməsi prosesi baş vermişdir. Bu proses Rusiya, Avstriya və Prussiya arasında Reç Pospolitanın üç dəfə bölüşdürülməsi və Polşa dövlətçiliyinin itirilməsi ilə əlaqədar olaraq XVIII əsrin sonlarından etibarən mürəkkəbləşdi. XVIII-XIX əsrin sonlarında polyak xalqının milli şüurunun qorunub saxlanmasında və inkişafında milli azadlıq hərəkatı böyük rol oynadı və polyak xalqı vətənə, ana dilinə və adətinə sadiq qaldı.

Rusiya İmperiyasının tərkibinə birləşdirilən, lakin Polşa Krallığına daxil olmayan Reç Pospolita rayonlarını polyaklar əllərindən alınmış torpaqlar hesab edirdilər [1, s.170].

Polyakların siyasi baxımdan bölünməsi etnik tarixinə təsir etdi. Hələ XIX əsrdə dialekti və etnoqrafik xüsusiyyəti ilə seçilən bir neçə polyak qrupları var idi: qərbdə - böyük polyanlar, lençitsanlar və seradzyanlar, cənubda - kiçik polyanlar, Sileziyada - slenzanlar, şimal-şərqdə - mazurlar və varmyaklar, Baltik dənizi sahillərində - pomoryanlar. Kiçik polyan qrupunu quralilər (dağlıq bölgələrin əhalisi), krakovlular və sandomirlilər əhatə edirdi. Sileziyalılar arasında lyax, sileziyan, quralilər və digər qruplar fərqlənirdi. Böyük polyanlara kuyavyanlar, mazurlara isə kurpilər aid edilirdi. Pomoryedə dil və mədəniyyətin spesifikliyini qoruyan kaşublar xüsusi ilə fərqlənirdilər. XIX əsrin sonlarından etibarən sənayenin və şəhərləşmənin artması ilə bu qruplar arasındakı fərqlər azalmağa başladı.

Qərbi slavyanların mənəvi həyatında din mühüm yer tutur. Polyakların,

çexlərin, slovakların böyük bir hissəsi katoliklərdir. Məhz buna görə də xalqların ənənəvi mədəniyyətində, konkret məskənlərin, müqəddəslərin adı ilə bağlı məbəd bayramlarına və kütləvi gəzintilərə böyük yer verilirdi [2, s.450].

Birinci Dünya müharibəsindən sonra müstəqil Polşa dövləti formalaşdı, lakin ora şimal və qərbi Polşa torpaqlarının çoxu daxil deyildi. Vahid dövlətin yaradılması bölünmüş əhali qruplarının etnik reinteqrasiyasının əsasını təşkil etmişdir. Polşanın şimal və qərb torpaqlarının birləşməsi yalnız İkinci Dünya müharibəsindən sonra baş vermişdir. Ölkə ərazisində əhalinin böyük yerdəyişməsi baş verdi. Böyük Polşanın qərb ərazilərində, almanların tərk etdiyi Sileziya, Pomorye və Mazuriya bölgələrində Polşanın digər ərazilərindən, SSRİ-dən, Rumıniyadan, Yuqoslaviyadan və digər Qərbi Avropa ölkələrindən köçürülmüş polyaklar yerləşdirildi. Polşa milli tərkibinə görə eyni millətli ölkəyə çevrildi.

Əhalinin yarıdan çoxu şəhərlərdə (Varşava, Lodz, Krakov, Vrotslav, Poznan) yaşayır və onlar müxtəlif sənaye, ticarət, istehlakçı xidmətləri, səhiyyə, təhsil, elm və mədəniyyət sahələrində çalışırlar. Kənd təsərrüfatının əsas sahələri əkinçilik və heyvandarlıqdır, əsas istiqaməti isə taxıl bitkilərinin yetisdirilməsidir. Əkin sahəsinin əhəmiyyətli hissəsi isə kartofdur. Bağçılıq və meyvəçilik vacib sahələrdən hesab olunur. Kənd təsərrüfatı sahələrində müasir texnikanın tətbiqi ilə yanaşı, qədim alətlərdən də istifadə olunur: dırmıq, bel və s. Heyvandarlıqda südçülük və ətçilik sahələrinə üstünlük verilir. Kəndlilər əkinçilik işi üçün nəqliyyatda ənənəvi olaraq atdan, nisbətən daha az sayda isə öküzdən istifadə edirlər. Təbii şəraitin, müxtəlif sahələrdə tarixi faktorların fərqli olması ayrı-ayrı ərazilərin təsərrüfat və mədəni həyatının inkişafında müxtəlifliyə gətirib çıxarmışdır. Məsələn, Kiçik Polşa ilə Sileziya dağlıq rayonunun əhalisi qoyunçuluq təsərrüfatında qədimdən qalma adətləri hələ də istifadə edirlər. Adətə görə qoyunçuluq təsərrüfatının sahibləri baş çobanı (basu), onun köməkçisini və qoyun otaranları (xonelnik) seçirlər.

Tapılmış arxeoloji materiallar, xüsusən Polşanın sahilyanı rayonlarında balıqçılığın inkişaf etdiyini göstərir. Balıqçılığın daha çox izləri erkən feodal cəmiyyəti dövrünün mədəni laylarının qazıntıları nəticəsində aşkar edilmişdir [2, s.449].

Qərbi və Şərqi Pomoryedə dəniz balıqçılığı qədim zamandan inkişaf etmişdir. Bununla əsasən, dövlət balıqçılıq sənayesi təşkilatları və müasir tipli kooperativlər məşğul olurlar. Lakin burada qədim balıqçılıq artelləri vardır və kollektiv balıqçılığın qədim ənənələri hələ də qorunub saxlanılır. Balıqçılıq ölkənin çay və gölətrafı ərazilərində inkişaf etmişdir. Balıq ovu və daşınması müasir texnologiya ilə yanaşı qədim balıqçılıq alətləri ilə də həyata keçirilir: nizə, tor və s. Arıçılıq, göbələk və giləmeyvə yığımı da köməkçi məşğuliyyətlərə aid edilir.

Kənd yaşayış məskənlərinin ən qədim forması müxtəlif tipli kiçik kəndlər idi. Bunlar nal formasında və ya dairə formasında olan evlərdən ibarət kiçik

kəndlər - okolnitsalar və ovalnitsalar adlanırdı. Sosial-iqtisadi və mədəni inkişaf prosesində Polşa kəndlərinin planlaşdırılması və tikilmə növləri dəyişməyə başladı. Bir çox kəndlərdə inşa edilən binalar - məktəblər, klublar, kafe və digər tikililərin memarlığında müasir üslub və yerli ənənələrin elementlərindən istifadə olunur. Klublarda və kafelərdə qədim üslubda yığılmış mebellərə rast gəlinir və kafenin içi bəzi kəndlərdə hələ də qorunub saxlanılan qədim mehmanxanalar tərzində tərtib olunur. Burada polyak milli yeməkləri və içkilər qonaqlara təqdim olunur.

Bir çox kənd yaşayış məntəqələrində çatılı binalar üstünlük təşkil edir. Bəzi rayonlarda tikililərin karkasını ağac gövdəsindən istifadə etməklə və onların arasını gil, kərpic qırıqları doldurmaqla inşa edirlər. Lakin hər yerdə müasir tikinti materiallarından istifadə etməklə inşa edilən tikililərin sayı artır. Ölkənin qərb və şimal-qərbində qalereya şəklində tikilmiş evlər qorunub saxlanılmışdır.

Qərbi slavyanların ənənəvi geyimlərində müxtəliflik müşahidə edilir. Qadın və kişi kostyumlarının əsasını qədimdə kətan və ya çətənədən tikilmiş köynək təşkil edirdi. Qərbi slavyanların üst paltarlarının forma və fasonları da müxtəlif idi (yarımkürklər, qolsuz geyimlər, kaftanlar və s.) [2, s.450].

Polşa xalq geyimləri çiçəkli çəməni xatırladır. Ənənəvi kostyumların bir çoxu yerli çeşidlərə malikdir. Polyak kostyumları üçün rəngli zolaqlar xarakterikdir və güllü kostyumların əsasını ürək şəklində olan orijinal tikişlər təşkil edir. Qadın geyimlərində qırmızı muncuqlar rəngli, zərli tikmələrlə işlənmiş məxmər korsetlərin altından geyinilən ağ köynəklərlə təzad təşkil edir. XIII-XVI əsrlərdə cəmiyyətdə kəndlilərin, şəhərlilərin və şlyaxtanın ayrılması prosesi gedirdi. Getdikcə daha da dərinləşən sosial fərqlilik üç növ geyimin yaranmasına səbəb oldu. Şəhərli və şlyaxta geyimləri dəbdən və Qərbi Avropa nümunələrinin təsirindən asılı olaraq dəyişirdi. Kəndli geyimlərində isə əksinə, dəyişikliklər əhəmiyyətsiz dərəcədə nəzərə çarpırdı və ləng şəkildə gedirdi. Yalnız XVI-XVII əsrlərdə zəngin və yoxsul kəndlilərin geyimləri arasında çox nəzərə çarpan dəyişikliklər yaranmağa başladı.

XVII əsrin əvvəlləri kişi geyim formaları ənənəvi və milli xüsusiyyətləri əks etdirirdisə, digər tərəfdən isə onlar Avropa dəbinə üstünlük verən kral sarayının və zadəgan zümrəsinin təsirində idi [7, s.3].

Belə ki, zəngin kəndli geyimləri şlyaxta və şəhərli geyimlərinin təsiri altında dəyişməyə başladı. Amma kiçik şlyaxta geyimləri eynilə kəndli geyimləri kimi qədim geyimlər əsasında inkişaf edərək və dəbin tez-tez dəyişməsinə baxmayaraq kəndli geyimlərinin bir çox xüsusiyyətlərini götürmüşdür. Məhz şlyaxta geyimi polyak milli kostyumu kimi Avropada şöhrət qazandı.

Polşa şlyaxtası və şəhərlilər üst çiyin geyiminin müxtəlif növlərini (germyak, yarmyak, kuntush, opancha, feryaz, plaş və s.) geyinirdilər. Hal-hazırda polyakların çoxu müasir kostyumlar geyinirlər. Bayramlarda kəndlərin bir hissəsində ənənəvi xalq paltarları geyinilir. Məhsul və ümumxalq bayramları

üçün müxtəlif bölgələrdən gələn kəndlilərin ənənəvi kostyumları müxtəlif və rəngarəng olur. Ənənəvi geyimə daha çox Loviç şəhəri və dağlıq kəndlərdə rast gəlinir. Loviç kostyumu üçün zolaqlı parçalar tipikdir. Onlardan ətəklər, önlüklər, qadın örtükləri tikilir.

Üst kişi geyimi - sukman adlanır. Dağlıq ərazilərdə kişilər gümüş və ya başqa bir metaldan düymələri olan qısa kətan köynək, ürək formalı naxışlarla bəzədilmiş ağ parçadan olan şalvar, enli dəri kəmər, ağ yundan qısa pencək geyinirlər. Kəndli qadınlar naxışlı və eynirəngli parçadan tikilmiş ətək və qolsuz köynəklər geyinirlər. Krakov özünəməxsus kostyumları ilə seçilir. Krakov milli qadın kostyumuna çiçəkli parçadan tikilmiş ətək, tül və ya kətan önlük, köynəyin üstündən qızıl və ya gümüş tikməylə bəzənmiş məxmər korsaj aiddir. Kişi milli kostyumuna isə geniş yaxalıqlı köynək, zolaqlı şalvar, bol tikməli göy kaftan, baş geyimlərinə isə xəz papaq, şlyapa və s. aiddir.

XVII əsrin ilk yarısında, macar və türk botlarını təkrarlayan qısa botların dəbi meydana gəldi. Botlar düymələrlə və ya daxildən iplə bağlanırdı, daban hissə dəridən və ya metal döymələrdən hazırlanırdı. Bununla yanaşı düz dabanlı ayaqqabılar da dəbdə idi [7, s.16].

XIII-XVI əsrlərdə cəmiyyətdə kəndlilərin, şəhərlilərin və şlyaxtanın ayrılması prosesi gedirdi. Getdikcə daha da dərinləşən sosial fərqlilik üç növ geyimin yaranmasına səbəb oldu. Şəhərli və şlyaxta geyimləri dəbdən və Qərbi Avropa nümunələrinin təsirindən asılı olaraq dəyişirdi. Kəndli geyimlərində isə əksinə, dəyişikliklər əhəmiyyətsiz dərəcədə nəzərə çarpırdı və ləng şəkildə gedirdi. Yalnız XVI-XVII əsrlərdə zəngin və yoxsul kəndlilərin geyimləri arasında çox nəzərə çarpan dəyişikliklər yaranmağa başladı. Belə ki, zəngin kəndli geyimləri şlyaxta və şəhərli geyimlərinin təsiri altında dəyişməyə başladı. Amma kiçik şlyaxta geyimləri eynilə kəndli geyimləri kimi qədim geyimlər əsasında inkişaf edərək və dəbin tez-tez dəyişməsinə baxmayaraq kəndli geyimlərinin bir çox xüsusiyyətlərini götürmüşdür. Məhz şlyaxta geyimi polyak milli kostyumu kimi Avropada şöhrət qazandı. XVIII əsrin sonu XIX əsrin əvvəllərində əsas geyimlərin iki böyük qrupa bölünməsi idi. XIX əsrin ortalarında isə daha bir qrup - üçüncü qrup da yarandı. İki əsas qrupun ayrılmasının əsasında parçalar dururdu: birinci qrupa aid olan kostyumlar ağ kətan və təbii rəngdə qoyun yunundan tikilirdi. İkinci qrupda, xüsusilə də qadınların kostyumlarında, zolaqlı yun parçalar üstünlük təşkil edirdi. Üçüncü qrup geyimlərin meydana gəlməsi ölkənin xüsusi sosial-iqtisadi və siyasi şərtləri ilə əlaqəli idi. Kənddə təhkimçilik hüququnun ləğv edilməsindən sonra kapitalist əlaqələrin inkişafı daha da güclənir. Digər sənaye məhsulları ilə yanaşı, fabrikdə istehsal olunan parçalar da buraya daxil olur. Kəndlilərin geyimləri daha zəngin və rəngli olur, əsasən mağazada satılan parçalardan tikilmiş olsa da, özünəməxsusluğunu itirmir. Eyni zamanda ənənəvi kəndli kostyumunun şəhərləşmə prosesi də davam edirdi.

Vilamovyanlar Polşanın cənub-qərbində, Sileziyada, Vilamovitse şəhərin-

də yaşayan polyakların etnoqrafik bir qrupudur. Şəhər 1250-ci ildə salınmışdır. XIV əsrdə bu şəhərdə Almaniyadan, Hollandiyadan və hətta Şotlandiyadan köçkünlər məskunlaşmışdır. Buna görə də, vilamovyanların ənənəvi geyimləri şotland kostyumunun elementlərini özündə birləşdirən yun, damalı parçadan tikilmiş örtük şəklindədir. Vilamovyanların bayram və toy kostyumları parlaq və dəbdəbəli idi. Boyuna ən azı beş mərcan sapla gümüş xaç taxılırdı [8].

Polşa milli mətbəxinin formalaşmasına uğurlu coğrafi mövqeyi və zəngin mədəni-tarixi keçmişi güclü təsir göstərib. Ona görə də Polşa mətbəxinin bəzi təamları rus, belarus və ukrayna mətbəxinin yeməkləri ilə oxşardır.

Polyaklar yeməyi ənənəvi üsulla hazırlayırlar. Dağlıq rayonlarında fiqurlu pendirlər, süddən hazırlanmış turş sərinləşdirici içkilər, duru yeməklər geniş yayılmışdır. Jur, kvasnitsa, barşç yeməkləri çox məşhurdur. Duru yeməklərə sala, yağ, smetan əlavə edirlər. Ən çox yayılmış yemək ət, kolbasa, soğan, göbələk, alma və dəfnə yarpağı ilə birlikdə bişirilən duza qoyulmuş və ya təzə kələmdən hazırlanan biqosdur. Polyakların yeməklərində əsas yeri kartof, süd, kəsmik, pendir tutur. Polşa mətbəxi şirniyyatı ilə də məşhurdur. Məşhur şirniyyatlara quş və heyvan şəkilli toy və yeni il peçenyeləri, pryaniklər, tortlar və s. aiddir. Bəzi kəndlərdə "toy çörəyi" də bişirilir. Polyakların içkilərinə çay, kofe və s. aiddir.

Polşada bütün şənliklər milli spirtli içkilərin qəbul edilməsi ilə keçirilir. Polyaklar üçün bahalı xüsusi, alkoqollu içki "Qoldvasser" arağı sayılır, bir çox turistlər suvenir kimi məhz onu alırlar [9].

Polyaklar üçün əsasən kiçik ailə xarakterikdir. XIX əsrdə isə mürəkkəb ailələrə rast gəlinirdi.

Qədim toy adətləri hələ də, qalmaqdadır. Ənənəvi toy dövrü keçmişdə elçilik, sözləşmə (onlar cehiz haqqında razılaşırdılar), nişan, nikah mərasimi, toy ziyafətindən ibarət idi. Toyda bəy və gəlinin qohumlarından və dostlarından ibarət iki "dəstə" qarşı-qarşıya dururdu. Lakin, müasir toylarda çox qədim mərasim adətləri demək olar ki, artıq həyata keçirilmir, əsasən mərasim oyun xarakterini daşıyır. Ənənə üzrə toy ziyafətinin yeməklərlə bol olması qayğısına qalırlar. Bəzi kəndlərdə toy çörəyi - "kolaç", xırda fiqurlu peçenyelər bişirilir.

Polyakların dəfn mərasimi əsasən əvvəlki kimi ikili (ailəvi-qohum və ictimai) xarakter daşıyır. Polşada hər il 2 noyabr Anım günü kimi qeyd olunur, kilsələrdə cənazə duaları edilir, hamı öz yaxınlarının qəbirlərini ziyarət edir. Məzarların, meydan və küçələrdə abidələrin qarşısında şamlar və çıraqlar yandırılır.

Təqvimdə qış bayramlarından Milad xüsusilə fərqlənir. Milad ərəfəsi — milad axşamı və onun birinci günü ailə bayramı hesab edilir. Polyaklar Milad axşamını ya valideynlərinin ya da öz evlərində keçirirlər. Bu günə özəl olaraq Milad ağacı bəzəyirlər. Şam yeməyinə əsasən balıq yeməkləri bişirilir, lakin başqa yeməklər də süfrədə olur. Hər kəs bir-birinə hədiyyə verir, xoşbəxt yeni il olmasını arzu edərək, bir-birlərinə uğur, sağlamlıq diləyirlər. Miladın birinci

günündə yemək çox və əsasən də ət yeməklərindən ibarət olmalıdır. Miladda uşaqlar guya Müqəddəs Nikolaydan hədiyyələr alırlar. Milad və Yeni ildə bayram mahnıları oxuyurlar.

Epifani bayramı, şərqdən gələn Kaspar, Melxior və Baltazar isimli 3 münəccimin İsa körpəni ziyarət edən katolik ənənələrdən biridir. Bu Polşada Üç Kral bayramı (Trzech Kroli) adlanır. Bu bayram Milad bayramından daha qədim tarixə malikdir. Bayramın tarixi kökləri İncilə gedir, orada körpə İsaya üç münəccimin hədiyyələr gətirməsi təsvir olunur. Onlar İsaya hədiyyə olaraq smirna (ətirli qətran), ladan (buxur) və qızıl gətirirlər. Yeni dünyaya gələn, bəşəriyyətin xilaskarı hesab edilən İsanı ziyarətə gələn bu üç nəfər kim idi. İndiyə qədər bu suala dəqiq cavab yoxdur. Onlar kral olublarmı, bu da sirrdir. Münəccim kral deyil sehrbaz və ya müdrik ola bilərdi. Amma Polşa ənənələrində onlar Üç Kral kimi məlumdur. Bu bayram "on ikinci gün bayramı" olaraq da adlandırılır və Polşa istirahət günləri arasında 6 yanvarda rəsmi tətil olaraq qəbul edilir [10].

Maslenitsa ictimai həyatda xalq gəzintisi ilə məşhur olan polyak karnavalıdır. Bayramdan əvvəl son cümə axşamı Maslenitsa günü üçün bişirilmiş xüsusi ponçiklər, oladyelər, yumru bulkalar həmin gün yeyilir. Əsas yaz bayramı olan "Velkanots"-u - Pasxanı polyaklar çox təntənəli şəkildə qeyd edirlər. Belə ki, Polyaklar Pasxa günündə yumurta rəngləyir, mərasim çörəyi və müxtəlif bayram yeməkləri bişirirlər. Polşada artıq yeni bayramlar - Dənizçilər günü, Mədənçilər günü, Uşaq günü və s. qeyd edilməyə başlandı.

Polşada xalq yaradıcılığı ənənələri - heykəltəraşlıq, taxta üzərində oyma sənəti, şüşə üzərində rəngkarlıq, kağızdan naxışların kəsilməsi, naxışlı tikmələr, keramikada, toxuculuqda və hörmədə istifadə olunan naxışlar və s. kimi sahələr inkişaf etməkdədir. Peşəkar rəssamlar öz yaradıcılıqlarında xalq motivlərindən istifadə edirlər. Zəngin şifahi xalq yaradıcılığına mərasim, təqvim, lirik, ailə, əmək mahnıları, əfsanələr, balladalar, təmsillər, nağıllar, atalar sözləri və başqaları aiddir. Polşanın milli xalq rəqsləri — polonez, krakovyak, mazurka və başqalarıdır. Bu rəqslər bütün Avropada da geniş yayılmışdır.

Polşa musiqisi qədim xalq rəqs və mahnıları üzərində kökləndiyindən bütün dövrlərdə bəstəkarlar milli ənənələrə sadiq qalmışlar.

XIX-XX əsrlərdə Polşa mədəniyyətində virtuoz sənətkarlar - dirijorlar E.Mlenarski, Q.Fitelberq, pianoçular Q.Lişetiski. İ.Qofman, Y.Turçiniski, skripkaçılar Quberman, İ.Lotto və bir çox müğənnilər yetişmişlər. Polşa musiqi mədəniyyəti dünya mədəniyyəti xəzinəsinə dəyərli klassik operalar, simfoniyalar, konsertlər, fortepiano əsərləri, vokal əsərlər bəxş etmişdir [3, s.321].

Xalq rəqsləri, mahnılar və musiqilər müasir peşəkar və həvəskar kollektivlərin repertuarına daxil oldu. Xalq rəqs və nəğmə melodiyaları Polşa bəstəkarlarının əsərlərində tez-tez səslənir.

## Ədəbiyyat:

1. A.Dıbkovskaya, M.Jarın, Y.Jarın. Polşa tarixi. Ən qədim zamanlardan bu günlərimizədək/Tərc: H.Məmmədov. Bakı-2010, 378 s.
2. H.A.Həvilov. Dünya xalqlarının etnoqrafiyası. B: Altay, 1999, 506 s.
3. Mədəniyyət tarixi və nəzəriyyəsi. Ali məktəblər üçün dərslik Bakı: 2010, 876 s.
4. Буданов В. П., Горский А. А., Ермолова И. Е. Великое переселение народов: Этнополитические и социальные аспекты. — СПб.: Алетейя, 2011, 336 с.
5. Гимбутас М. Славяне: Сыны Перуна. М. 2012, 256 с.
6. Нидерле Л. Славянские древности / Пер. с чешск. Т. Ковалевой, М. Хазанова /Отв. ред. О. А. Платонов. — М.: Институт русской цивилизации, 2015, 784 с.
7. Серия исторических фестивалей в Москве "Времена и эпохи" С.Шаменков, текст, 2012, 30 с.
8. https://calapolska.ru/polsha/kultura/polskij-natsionalnyj-kostyum-na-polotnah-petra-stahevicha
9. http://mypucmy.ru/countries/Poland/59/Poland-kyhnya-osobennostu-Poland-kyhnu
10. http://polomedia.ru/news/tradicii/6-yanvarya-prazdnik-tryoh-koroley

**MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ!**

«Elmi xəbərlər» jurnalının redaksiya heyəti bildirir ki, nəşr etdirmək üçün təqdim edilən məqalələr aşağıdakı qaydalar əsasında tərtib edilməlidir:

- mətnlər (Azərbaycan, rus, ingilis dillərində) – Times New Roman şrifti (ölçüsü – 12) ilə yığılmalı;
- məqalələr (boşluqları nəzərə almaq şərti ilə həcmi 40 min işarə) və xülasələr kompüterdə çap olunmuş şəkildə elektron variantla birlikdə təqdim olunmalı;
- məqalənin UOT-u, ədəbiyyatı, istinadı, üç dildə xülasəsi (15 sətrdən artıq olmamaq şərti ilə), açar sözləri (ən çoxu 10) və məqalələrin başlıqları verilməli;
- ədəbiyyat siyahısı ya istinad olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllıqla ya da əlifba sırası ilə verilməli;
- cədvəllərin, sxemlərin, qrafiklərin və şəkillərin adı göstərilməlidir.

***Müəllif haqqında məlumat:*** soyadı, adı, atasının adı, telefon nömrələri, elektron poçt ünvanı, işlədiyi təşkilatın tam adı.

Əlyazmaların nəşri haqqında qərar qeydiyyatdan sonra bir ay ərzində qəbul edilir.

Məqalələrin çapı üçün pul ödənilmir.

**К СВЕДЕНИЮ АВТОРОВ!**

Редколлегия журнала «Сборник научных статей» доводит до вашего сведения, что направляемые в журнал статьи следует оформлять в соответствии со следующими правилами:

- рукописи принимаются на азербайджанском, русском и английском языках, шрифтом Times New Roman (12п);
- к тексту обязательно прилагается электронная версия текста;
- объем рукописи не должен превышать 40 тыс. знаков (включая пробелы);
- пронумерованный список использованной литературы (либо в алфавитном порядке, либо в порядке упоминания в тексте) дается в конце статьи;
- К рукописи прилагаются; УДК, аннотация (не более 15 строк), ключевые слова, название статьи (на трех языках), имена и фамилии авторов;
- таблицы, графики, схемы, рисунки должны быть озаглавлены;

***Авторская справка:*** фамилия, имя, отчество (полностью), официальное наименование места работы, должность, ученая степень, а также данные для связи с автором; адрес, номера телефонов сл., дом., моб., электронный адрес.

Статьи принимаются в течение одного месяца со дня регистрации рукописи в редакции.

Плата за публикацию рукописей не взимается.

**TO THE ATTENTION OF AUTHORS!**

The editorial staff of the «Collection of Scientific Publications» journal brings to your notice that articles submitted for publication must meet the following requirements:

- texts (Azerbaijani, Russian and English) must be typed with Times New Roman font (size 12 p);
- articles (no more than 40 thousand characters including spaces), list of references, abstracts (no more than 15 lines, in Azerbaijani, Russian and English) and keywords (maximum 10, in Azerbaijani, Russian and English) must be presented in typed form together with the diskette;
- list of references should be enumerated lither alphabetically or in the order of reference in the text and be presented at the end of the article;
- tables, graphs, diagrams, figures should be titled;

***Information about authors:*** surname, name, last name, position, academic degree, e-mail address, telephone number, name of the organization.

Articles are accepted within one month since the date of their registration in the publishing house. Payment for article publication is not required.

**Kompyuter yığımı və korrektoru:** Aynur Qəmbərova

Məqalələr aşağıdakı ünvana göndərilir:
E-mail: science@wcu.edu.az;
Məqalələrin online qəbulu: journal.wcu.edu.az

Статьи направляются по адресу:
E-mail: science@wcu.edu.az;
Онлайн прием статей: journal.wcu.edu.az

Articles should be sending to the following address:
E-mail: science@wcu.edu.az;
Submit online: journal.wcu.edu.az

| | |
|---|---|
| ***Formatı*** | 70×100 $^{1}/_{16}$ |
| ***Həcmi*** | F.ç.v. 8,75 |
| ***Sayı*** | 500 |

"Western Caspian" Universitetinin nəşriyyat-poliqrafiya mərkəzində yığılmış və çap olunmuşdur.